www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 fevral 2019-cu il Çərşənbə № 40 (7210) Qiymәti 60 qәpik

**Xəbər**

**Bakıda "kupçasız" mənzil olmayacaq - prezidentdən daha bir mühüm fərman**

yazısı səh.4-də

**Gündəm**

**Milli Məclisdə bank faizləri və depozit müzakirəsi**



Deputat banklarda vətəndaşlara verilən kreditlərin faiz dərəcələrindən gileyləndi

yazısı səh.10-da

**Bakıdakı "Armani" şirkətinin ermənilərlə nə əlaqəsi - təfərrüat**

yazısı səh.12-də

**Münhen konfransından Qarabağla bağlı çıxarılan əsas dərs**

yazısı səh.11-də

**500 manat maaş alan işçiyə 23 milyon kredit "yükləyiblər" - nonses**

yazısı səh.14-də

**Hakimiyyətdən dindar məhbuslarla bağlı yeni strategiya**

yazısı səh.3-də

**Milli Şuranın 23 fevral mitinqinə hansı partiya gedir, hansı yox...**

yazısı səh.4-də

*Akif Nağı:*

**"İsgəndər Həmidov getmək üçün bəhanə axtarırdı"**

yazısı səh.6-da

**"Kölgə iqtisadiyyatı"na qarşı mübarizə: "Ya biznesi seç, ya da vəzifəni..."**

yazısı səh.12-də

**Azərbaycanlılarla çeçenlər arasında Moskvada növbəti görüş oldu**

yazısı səh.13-də

**"Rabitə işi"nə görə həbs edilən sabiq baş direktor necə "təmizə çıxdı"**

yazısı səh.14-də

# "AZƏRBAYCANIN HAVA QÜVVƏLƏRİ O QƏDƏR GÜCLÜDÜR Kİ..." - DÜŞMƏNDƏN ACI ETİRAF

**Erməni hərbi ekspert:** "Rusiyadan SU-30SM-in alınması artıq pul itkisidir"; baş nazir Nikol Paşinyanın ordu ilə bağlı 5 illik planı niyə reallaşa bilməz?..




yazısı səh.8-də

## Abutalıbovun ən odioz kadrı işdən çıxarıldı - itirilən yaşıl milyonlar...

Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin baş direktoru Vaqif Novruzov həm də generalın qardaşıdır; illərdir yaşıllaşdırma işləri üçün ayrılan milyonlar onun əlində cəmləşirdi...

yazısı səh.7-də



*Ayaz Salayev:*

**""Qafqaz üçlüyü"nü yazan adamın ətrafında kimlər toplaşacaqsa..."**

yazısı səh.6-da



**Əli Həsənovdan müxalifət düşərgəsinə və Əli Kərimliyə faktlarla dolu cavab**

yazısı səh.5-də



**Əli İnsanova azadlıq yolu göründü - martda azad oluna bilər**

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

# SOCAR-a qarşı "qara piar" kampaniyası

## Şirkət rəsmisi: "İctimaiyyətin obyektiv tənqidi fikirlərinə həmişə açığıq"

**Son vaxtlar bəzi media orqanlarında SOCAR-la bağlı müəyyən məlumatlar yayılmaqdadır. Həmin məlumatlarda şirkətdə vergi yoxlamalarının aparılması, onların nəticəsi olaraq şirkətin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin rəisi Ədnan Əhmədzadənin həbs olunmasına dair xəbərlər yer alır.**



SOCAR-ın İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədovun mətbuata verdiyi məlumata görə, bütün şirkətlərdə, o cümlədən SOCAR-da yoxlamaların aparılması Vergilər Nazirliyinin əsas və birbaşa funksional vəzifələrindən biridir: "Vergilər Nazirliyi hər il planlı şəkildə iri vergi ödəyicilərində, o cümlədən SOCAR-da müvafiq yoxlamalar aparır və bu il keçirilən yoxlama da növbəti səyyar vergi yoxlamasıdır. Bu yoxlamaların SOCAR-ın inzibatı strukturunda aparılan hər hansı dəyişikliklərlə əlaqələndirilməsi yanlışdır və kütləvi informasiya vasitələrində yer alan bir sıra məlumatlar, ümumiyyətlə, əsassız və uydurmadır. Vergi yoxlamaları hər iki strukturun iş fəaliyyətinə təsir etməyən adi bir prosesdir və şirkətin vəzifəli şəxsləri öz səlahiyyətləri çərçivəsində vəzifələrinin icrasını davam etdirirlər".

SOCAR barədə yayılan məlumatlar şirkətin iri layihələri, xüsusilə də Türkiyədə həyata keçirdiyi və icrasına yeni başladığı layihələrlə bağlı ola bilərmi? Bu kampaniyanın arxasında hansı qüvvələr dayanır?

**İ.Əhmədov bu suallarla bağlı "Yeni Müsavat"a bildirib ki, SOCAR-la bağlı KİV-də ən çox şirkətin reallaşdırdığı böyük layihələri barədə məlumat yayılır:** "İzləyəndə görürük ki, ən çox yayılan məlumatlar ötən ildə və bu ildə SOCAR-ın tamamlanan uğurlu sənaye layihələri ilə bağlıdır. Misal üçün, dünən SOCAR-la bağlı ən çox yayılan xəbər Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə SOCAR Polymer kompleksi çərçivəsində Yüksək sıxlıqlı polietilen zavodunun açılışı olub. Daha əvvəl Azərbaycanda SOCAR Karbamid, Heydər Əliyev adına NEZ-in modernizasiyasının ilk mərhələsinin tamamlanması, Bulla-dəniz yatağında yeni müasir 12 saylı özülün quraşdırılması və istismara verilməsi, STAR Neft Emalı Zavodunun Azərbaycan və Türkiyənin ölkə başçılarının iştirakı ilə açılışı, Azərbaycanda ölkə başçımızın iştirakı ilə Cənub Qaz Dəhlizinin açılışı və Türkiyədə TANAP boru kəmərinin iki dövlət başçısının iştirakı ilə açılışı həyata keçirdiyimiz layihələr haqqında məlumatlar KİV-də geniş yayılmışdır. Bir sözlə, mediada SOCAR-la bağlı ən çox yayılan xəbərlər şirkətin uğurlu layihələri ilə bağlıdır".

**Bununla yanaşı, SOCAR rəsmisi şirkətin ictimaiyyət nümayəndələrinin bütün irad, təklif və konstruktiv tənqidi fikirlərini də dinləməyə hazır olduğunu bildirir:** "Əlbəttə, ifadə olunan tənqidlərin tutarlı, böhtansız və konstruktiv olmasına, Azərbaycan qanunlarına zidd olmamasına diqqət etmək vacibdir".

❑ DÜNYA,
"Yeni Müsavat"



## Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinə sədr təyin edildi

**Prezident İlham Əliyev Fərid Rauf oğlu Şəfiyevi Azərbaycanın Çexiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırıb. Fevralın 19-da imzalanan digər sərəncamla Fərid Şəfiyev Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri təyin edilib.**

Fevralın 6-da yaradılan Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi dünyada və regionda baş verən prosesləri təhlil edən, Dağlıq Qarabağ münaqişəsinin müxtəlif aspektləri, beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri ilə bağlı fundamental araşdırmalar aparan, bu məsələlərə dair Azərbaycanın mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılmasında iştirak edən, Azərbaycanın dövlət orqanlarını elmi-təhlili materiallarla təmin edən publik hüquqi şəxsdir. Mərkəzə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən ibarət İdarə Heyəti həyata keçirir.

## Anar Kərimov nazir müavini oldu-dosye

**Prezidenti İlham Əliyevin sərəncamı ilə Anar Mehman oğlu Kərimov əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini təyin olunub. Modern.az-ın məlumatına görə, bununla da əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin müavinlərinin sayı 4-ə çatıb. İndiyədək nazir müavinləri Mətin Kərimli, Anar Əliyev, Vüsal Nəsirli idi.**

Yeni nazir müavini Anar Kərimov 1979-cu ildə Bakı şəhərində anadan olub. 1999 və 2002-ci illərdə Bakı Dövlət Universitetinin beynəlxalq hüquq üzrə bakalavr və magistr pillələrini fərqlənmə ilə bitirib. 2001-ci ildə Amerikan Universitetində (Vaşinqton, ABŞ) beynəlxalq iqtisadi hüquq üzrə magistr dərəcəsi alıb.

Həmin ildə ABŞ-Azərbaycan Ticarət Palatasında (ABŞ) hüquqşünas, 2002-2005-ci illərdə Xarici İşlər Nazirliyinin iqtisadi əməkdaşlıq və inkişaf idarəsində attaşe və üçüncü katib, 2005-2006-cı illərdə Azərbaycan Respublikasının İsveçrədəki səfirliyində üçüncü katib, 2007-2010-cu illərdə İslam İnkişaf Bankında (S.Ərəbistanı) Türkiyə və Mərkəzi Asiya üzrə baş hüquqşünas, 2010-2011-ci illərdə İqtisadi İnkişaf Nazirliyinin xarici investisiyalar və iqtisadi əlaqələr üzrə şöbələrində şöbə müdirinin müavini və şöbə müdiri, 2011-2018-ci illərdə beynəlxalq layihələrdə ekspert və özəl sektorda rəhbər vəzifələrdə işləyib.

Azərbaycan Vəkillər Kollegiyasının üzvü, Azərbaycan-Britaniya Hüquqşünaslar Assosiasiyasının həmtəsisçisi və Azərbaycan - İtaliya Ticarət Palatasının vitse-prezidenti olub.

Hüquq elmləri namizədi olan A.Kərimov Bakı Dövlət Universitetində hüquq fakültəsinin ingilis dilli magistratura proqramında müəllim kimi fəaliyyət göstərib.

Hazırkı vəzifəsinə qədər əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri vəzifəsində çalışıb.

İngilis, fransız və rus dillərini bilir. Evlidir, üç övladı var.


## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz **- 48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


## Bakıda iki uşaq anasını maşınla vurub öldürən sürücü yaxalandı

**Fevralın 17-də saat 23:15 radələrində Qaradağ rayonunun Qızıldaş qəsəbəsi ərazisində yolu keçmək istəyən qadın piyadanı vuran sürücü yaxalanıb.**

Qızıldaş qəsəbəsinin mərkəzi yolu ilə qəsəbə istiqamətində hərəkətdə olarkən yolu keçmək istəyən 1971-ci il təvəllüdlü Şahverdiyeva Nəzakət Qüdrət qızını vurub hadisə yerindən qaçan qəsəbə sakini 1978-ci il təvəllüdlü Qasımov İlqar Səfərqulu oğlu tutulub. Onun hadisəni 99-FZ-087 dövlət nömrə nişanlı "VAZ 21214 Niva" markalı avtomobillə törətdiyi məlum olub.

Faktla bağlı Qaradağ RPİ tərəfindən 17.02.2019-cu il tarixində Azərbaycan Respublikası CM-in 263.2 va 264-cü maddələri ilə cinayət işi başlanıb və sonradan cinayət işi üzrə əməl Azərbaycan Respublikası CM-in 263.2 və 364-cü maddələrindən həmin Məcəllənin 263.3, 263-1.3 və 264-cü maddələrinə tövsif edilib.

Qəza nəticəsində ölən şəxsin yaxınlarının «Trend»ə verdiyi məlumatda bildirilir ki, Nəzakət Şahverdiyeva iki övlad anası idi. O, uzun illər idi uşaqlarını tək böyüdürdü və mart ayında qızına nişan mərasimi keçirəcəkdi.



## ABŞ-ın 16 ştatı Trampı məhkəməyə verdi

**Amerikanın Kaliforniya, Kolorado, Konnektikut , Delaver, Havay və digərlərindən ibarət 16 ştatının nümayəndələri Meksika ilə cənub sərhədində fövqəladə vəziyyət rejimi elan etdiyinə görə prezident Donald Trampı məhkəməyə veriblər.**

"Politico" nəşri xəbər verir ki, iddiaçılar ABŞ prezidentini "qanunsuz sxemlə" Amerika vergiödəyicilərinin vəsaitlərini birtərəfli qaydada oğurlamaqda ittiham edirlər.

"Qanunsuz immiqrasiya böhranı bəhanəsi ilə Tramp ölkədə fövqəladə vəziyyət rejimi elan edərək, narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması, hərbi tikintilər və hüquqi məcburetmə təşəbbüsləri üçün ayrılan federal vəsaitləri divarın tikilməsinə yönəltmək istəyir. Biz prezident səlahiyyətlərindən sui-istifadəsini bloklamaq üçün Trampı məhkəməyə veririk" - ştatların iddia ərizəsində qeyd olunur.

Azvision.az xatırladır ki, cənub sərhədlərindəki vəziyyətin humanitar böhrana səbəb olması və dövlətin təhlükəsizliyinə təhdid yaratmasını əsas tutaraq ABŞ prezidenti Donald Tramp 15 fevralda ölkədə fövqəladə vəziyyət rejiminin tətbiq edilməsi barədə sənəd imzalayıb. Bu yolla o, Konqresdən yan keçərək Meksika ilə sərhəddə divarın tikintisi üçün federal büdcədən 8 milyard dollaradək vəsait ayrılmasına nail ola bilər.



## Ramil Usubov Türkiyədə səfərdədir

**Azərbaycanın daxili işlər naziri Ramil Usubov Türkiyədə səfərdədir.**

"Report" xəbər verir ki, bu məlumatı "beyazgazete" yayıb.

Onu Ankara hava limanında Türkiyənin daxili işlər naziri Süleyman Soylu qarşılayıb.

R.Usubov Budapeşt prosesi 6-cı Konfransında iştirak edəcək.

## Britaniya Avropa Parlamentindəki seçkidən imtina etdi

**Böyük Britaniya mayda Avropa Parlamentinə keçiriləcək seçkilərdə iştirak etməyəcək.**

Bunu Britaniyanın "Brexit" məsələləri üzrə nazir müavini Martin Kallanan jurnalistlərə açıqlamasında deyib. O, bununla da "Brexit" (Böyük Britaniyanın Avropa İttifaqından ayrılması) üçün Londonun Brüsseldən əlavə vaxt istəməyəcəyini dəqiqləşdirib.

"Britaniya seçkilərdə iştirak etməyəcək. Çünki baş nazir (Tereza Mey) açıq şəkildə bildirib ki, martın 29-da biz Avropa İttifaqını tərk etmək niyyətindəyik - 50-ci maddə (2007-ci il Lissabon müqaviləsinin) və bizim yerli qanunvericiliyimiz də bunu ehtiva edir" - Kallanan vurğulayıb.

Azvision.az xatırladır ki, ötən gün Avropa İttifaqı Komissiyasının rəhbəri Jan-Klod Yunker Britaniyanın Avropa Parlamentinə keçiriləcək seçkilərdə iştirakını istisna etməmişdi. Onun sözlərinə görə, London "Brexit"lə bağlı nəzərdə tutulmuş son tarixin uzadılması üçün müraciət edə bilər.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

**Son günlər hakimiyyətin apardığı yumşalma siyasətinin dindarlara qarşı da yönəldiyi müşahidə olunmaqdadır. Bunu təsdiq edən bir neçə detallar diqqəti cəlb edir. Güman ki, qarşıda daha bir neçə yumşalma addımları da olacaq.**



# Hakimiyyətdən dindar məhbuslarla bağlı yeni strategiya

## Son günlər baş verən bir neçə hadisə hakimiyyətin dindarlarla münasibətləri yumşaltmaq istədiyini göstərir

İlk nəzərə çarpan addım hazırda Qobustan həbsxanasında saxlanılan ilahiyyatçı Taleh Bağırov və daha bir neçə məhbusla bağlı oldu. Qobustan həbsxanasında saxlanılan və bir müddət öncə aclıq edən Müsəlman Birliyi Hərəkatının sədri Taleh Bağırzadə fevralın 15-də İnanclı Məhbusların Hüquqlarını Müdafiə Komitəsinin həmsədrləri Eldəniz Quliyev və Rövşən Əhmədli ilə görüşüb.

R.Əhmədli facebook statusunda yazıb ki, İnanclı Məhbusların Hüquqlarını Müdafiə Komitəsi fevralın 12-də Ədliyyə Nazirliyi Penitensiar Xidmətinə məktubla rəsmi müraciət edib. Bu müraciətdən 3 gün keçməmiş müraciətə müsbət cavab verilib və Penitensiar Xidmətdən zəng edərək komitənin həmsədrlərini, yəni Azərbaycan Ziyalılar Birliyinin sədri Eldəniz Quliyev və Qarabağın Azadlığı uğrunda İslami Müqavimət Hərəkatının sədri Rövşən Əhmədli Qobustan qapalı həbsxanasına dəvət edilib.

Həmin gün həbsxanaya gedən R.Əhmədli və E.Quliyev Qobustanda saxlanılan İslam Partiyasının həbsdə olan sədri Mövsüm Səmədovla, Müsəlman Birliyi Hərəkatının sədri Hacı Tale Bağırzadə və həmçinin Nardaran hadisələrində 19 il müddətinə azadlıqdan məhrum edilmiş Cabbar Cabbarlı ilə görüşüb.

**R.Əhmədli bildirib ki, hər bir dustaqla vəkillər üçün ayrılmış otaqda ayrı-ayrılıqda görüşməyə şərait yaradılıb və məhkumlar aclığı dayandırıb. Sitat:** "Qobustan həbsxanasında baş verən hadisələr ətrafında aparılan müzakirələr bir sıra müsbət nəticələr əldə olunması ilə yekunlaşa bildi. Tale Bağırzadə komitə həmsədrlərinin, Milli Şura rəhbərliyinin, çoxminli tərəfdarlarının xahişlərini və Ədliyyə Nazirliyi Penitensiar Xidməti əməkdaşlarının bu görüş üçün xoş məramlı jestlərini nəzərə alaraq aclıq aksiyasını dayandırıb".

Bundan başqa, hüquq müdafiəçiləri Qobustan həbsxanasının rəisi Aftandil Ağayevlə görüşüblər. Yalnız aclıq edən məhkumlardan Abbas Hüseynovla görüşə bilməyiblər. Çünki həmin vaxt A.Hüseynov Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülübmüş.

Ancaq hər kəsə aydındır ki, hadisələrin bu şəkildə inkişafı siyasi hakimiyyətin iradəsi ilə baş verib. Çünki daha əvvəl İnanclı Məhbusların Hüquqlarını Müdafiə Komitəsi belə bir görüş keçirə bilməyib. Yeri gəlmişkən, bu hadisədən bir neçə gün əvvəl T.Bağırov həbsxanada ailəsi ilə də görüşüb. Ardınca isə hüquq müdafiəçilərinin müraciətinə gözlənilmədən müsbət reaksiya verilib və həbsxana rəisi hüquq müdafiəçilərini qəbul edib, onların məhkumlarla görüşünə şərait yaradıb.

Belə görünür ki, siyasi hakimiyyət son zamanlar cəmiyyətə yönəlmiş "açılım siyasətini" dindarlara qarşı da edir. Taleh Bağırov və aclıq edən məhbuslar məsələsini qeyd etdik. İki gün əvvəl Bakı Apelyasiya Məhkəməsi daha bir siyasi məhbus, 2012-ci ildə həbs edilən Telman Şirəliyevi azadlığa buraxıb.

T.Şirəliyev 2012-ci il oktyabrın 5-də baş vermiş 3-cü "hicab aksiyasının" iştirakçısı kimi həbs olunub və polisə müqavimət, ictimai asayişi pozmaqda ittiham olunaraq 6 il azadlıqdan məhrum edilmişdi. Lakin onun cəzası ötən il başa çatsa da, ötən il dekabrın 20-də Xətai Məhkəməsi onu qadağan olunmuş əşya saxlamaqda təqsirkar bilərək 5 ay 18 gün müddətinə azadlıqdan məhrum etmişdi. Lakin Apelyasiya Məhkəməsi bu cəzanı azaldıb və Şirəliyev azadlığa çıxıb. O, həm də sonuncu "hicab məhbusu" idi.

Göründüyü kimi, artıq iki fakt var. Güman etmək olar ki, Novruz bayramı öncəsi gözlənilən əfv fərmanında dindar məhbusların bir qismi də azadlığa buraxılacaq. Yeri gəlmişkən, bir neçə gün əvvəl "Yeni Müsavat"a açıqlamasında hüquq müdafiəçisi Səidə Qocamanlı bildirmişdi ki, Əfv Komissiyasına dindar məhbusların da siyahısı təqdim olunub.

Hazırda siyasi məhbusların siyahısında əsas çoxluğu məhz dindar məhbuslar təşkil edir. Ümid edək ki, gələn ay əfv fərmanında çoxlu sayda günahsız inanclı məhbusların da adı olacaq.

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Martda 30-a yaxın siyasi məhbus azad edilə bilər

**Səidə Qocamanlı:** "Təkliflərimiz heç zaman diqqətsiz qalmayıb"

**Rəşad Məcid:** "Novruz bayramında ənənəvi olaraq prezident əfv sərəncamı imzalayacaq"





**Bir qrup hüquq müdafiəçisinin son zamanlar siyasi məhbuslarla, insan hüquqları ilə bağlı nazirlərlə, aidiyyəti qurumlarla intensiv görüşlər keçirmələri diqqəti cəlb edir. Son olaraq, İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvləri Novella Cəfəroğlu, Səadət Qocamanlı və Səadət Bənəniyarlı daxili işlər naziri Ramil Usubovla görüşüblər.**

Qeyd edək ki, son illərə qədər hüquq müdafiəçilərinin fəaliyyətləri demək olar arxa plana atılmışdı. 2019-un əvvəllərindən etibarən bu istiqamətdə olan dəyişikliklər göz önündədir. Müşahidələr siyasi məhbus probleminin, eləcə də insan hüquqları ilə bağlı bəzi boşluqların aradan qaldırılacağına olan ümidləri artırır.

Mötəbər mənbələrdən "Yeni Müsavat"a daxil olan məlumata görə, gələn ay - Novruz bayramı ərəfəsində imzalanacaq əfv sərəncamı ilə 30-a yaxın siyasi məhbus azad ediləcək. Mənbə onu da bildirir ki, yuxarıda adlarını qeyd etdiyimiz hüquq müdafiəçilərinin hazırladıqları və Əfv Komissiyasına, eləcə də digər müvafiq qurumlara təqdim etdikləri siyahı əfv sərəncamında daha çox nəzərə alınacaq.

**S.Qocamanlı "Yeni Müsavat"a bildirdi ki, keçirdikləri görüşlər heç kəsdə təəccüb doğurmamalıdır:** "Digərlərinə cavabdeh deyiləm. Amma onu deyə bilərəm ki, bizim qrupumuz üçün hər zaman istənilən məmurun qapısı açıq olub. Çünki onlar bilirlər ki, biz görüşə gəliriksə, əməli təkliflərlə, işlərlə gəlirik. Bu təkliflərin üzərində hər zaman işləmişik. İnsan hüquqları üzrə irəli sürdüyümüz təkliflərin hamısı olmasa da, heç olmasa bir qismi mərhələlərlə həyata keçib. Biz bunun dəfələrlə şahidi olmuşuq. Təkliflərimiz heç zaman diqqətsiz qalmayıb. Ona görə də son görüşlərimiz təəccüb doğurmamalıdır. Bu, sadəcə, iş görüşləri idi. Biz bunu daim keçirmişik. Ayrı-ayrı məmurlarla, nazirlərlə görüşlərimiz baş tutur və bu, davamlı olacaq. Çox ümidliyik".

**Hüquq müdafiəçisi siyasi məhbuslardan da danışdı:** "Tezliklə siyasi məhbuslarla bağlı ciddi addımların atılacağına inanıram. Hər birimiz bu vətənin övladıyıq. Çalışmalıyıq ki, bu vətənə xeyir verək. Onun mövqeyini heç kəsin ayaqları altına atmamalıyıq. Öz müstəqilliyimizi, azadlığımızı müdafiə etməyə çalışmalıyıq. Hansı sayda siyasi məhbusun bu əfvdə azadlığa buraxılacağını deyə bilmərəm. Amma hər halda, təqdim etdiyimiz siyahıdakı məhbusların hamısı azad olunsaydı çox şad olardıq. Bu il müsbətə doğru ölkədə çox ciddi dəyişikliklər gedir. Bu bizi çox sevindirir. Belə də olmalıdır, özü də davamlı şəkildə. Müxtəlif sahələrdə biz artıq dəyişikliklərin şahidi oluruq. İnsanların rifahı üçün atılan istənilən addım bizləri sevindirir".

Məlumat üçün bildirək ki, Əfv Komissiyasının iclasları hazırda intensiv şəkildə gedir. Həftədə 2 və ya 3 iclas keçirilir. Bu gedişlə komissiyasının Novruz bayramına qədər iclaslarını bitirəcəyi və son siyahını ölkə prezidentinə təqdim edəcəyi bildirilir.

**Əfv Komissiyasının üzvü Rəşad Məcid iclaslar barədə yekunda məlumat veriləcəyini bildirdi:** "İclaslar bitəndən sonra cənab prezident əfv sərəncamı imzalayar və ondan sonra hər kəs bununla tanış olar. Toplantılar hələlik davam edir. Çox güman ki, gələn ayda, Novruz bayramında ənənəvi olaraq prezident əfv sərəncamı imzalayacaq. Bir sıra məhbuslar var ki, onların işi ilə İşçi Qrupu məşğul olur və onları cənab prezidentə təqdim edir. O məhbuslar barədə qərar da cənab prezidentin səlahiyyətindədir. Əfv Komissiyasından kənar İşçi Qrupunun təqdim etdiyi siyahı olur. Bu barədə bir söz deyə bilmərəm".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Partiya sədri ona 165 min "atan" şəxslə barışıb

## İqbal Ağazadə: "Zərərçəkmiş deyiləm, bununla bağlı məhkəməyə mövqeyimi də bildirmişəm"

**"Mən o iş üzrə zərərçəkən deyiləm. Məni zərərçəkən hesab etmirlər? Mən də deyirəm ki, zərər çəkməmişəm" - Ümid Partiyasının sədri, sabiq deputat İqbal Ağazadə özünün zərərçəkən kimi adı keçən işlə bağlı "Yeni Müsavat"ın əməkdaşının sualını cavablandırarkən belə deyib.**



Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rahib Salmanovun sədrliyi ilə İqbal Ağazadəyə 165 min manat "atmaqda" ittiham olunan Sərməs Tağıyevin məhkəməsi başlayıb. İqbal Ağazadə məhkəmə hazırlıq iclasına qatılmayıb. Hakim onun prosesdə iştirak etmək istəmədiyini bildirib. Hakim həmçinin deyib ki, İqbal Ağazadə xahiş edib ki, təqsirləndirilən S.Tağıyevə kömək olunsun. Hakim əlavə edib ki, İqbal Ağazadə baxış iclaslarının birində ifadə verməsi üçün məhkəməyə çağırılacaq. İqbal Ağazadə "Yeni Müsavat"a Sərməs Tağıyevdən şikayətçi olmamasının səbəbini də açıqlayıb: **"Bu adamdan şikayətim yoxdur, zərərçəkmiş deyiləm, bununla bağlı məhkəməyə mövqeyimi də bildirmişəm. Mənə vurulan zərər ödənilib".**

S. Tağıyev daha öncə də müxtəlif şəxslərə qarşı dələduzluq edib və Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) maddəsi ilə təqsirləndirilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum edilib, lakin apelyasiya instansiyası ona şərti cəza verərək azadlığa buraxıb.

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

# Binəli Yıldırımı MHP üzvü əvəz etdi

## Fevralın 24-dək Türkiyə parlamentinə MHP üzvü Cəlal Adan sədrlik edəcək



**Xəbər verdiyimiz kimi, fevralın 18-də Türkiyə parlamentinin sədri Binəli Yıldırım vəzifəsindən istefa verib. Binəli Yıldırım martın 31-də keçiriləcək bələdiyyə seçkilərində AKP və MHP-nin birləşdiyi "Cumhur İttifaqı" koalisiyasının İstanbul Böyük Bələdiyyəsi sədrliyinə namizəd seçilib. Seçki kampaniyası başladığı üçün o, tutduğu vəzifədən istefa verib.**

Bu münasibətlə parlamentin bələdiyyə seçkilərində namizəd olmuş üzvlərinin iştirakı ilə qəbul təşkil olunub. Qəbulda çıxış edən spiker deputatlardan halallıq istəyib. B.Yıldırım Türkiyədə sonuncu baş nazir və yeni prezident idarəçiliyi sistemində 600 nəfər üzvü olan parlamentin ilk sədri kimi tarixə düşüb.

Artıq Binəli bəyin postuna yeni namizəd müəyyən olunub. Türkiyə parlamenti sədrinin səlahiyyətlərini müvəqqəti olaraq Milliyyətçi Hərəkat Partiyasından olan deputat Cəlal Adan icra edəcək. Fevralın 19-da Binəli Yıldırım səlahiyyətlərini C.Adana təhvil verib. Bununla bağlı keçirilən tədbirdə B.Yıldırım deyib ki, məclisə yeni sədr seçilənədək C.Adan sədr səlahiyyətlərini yerinə yetirəcək. Fevralın 24-də isə Türkiyə Böyük Millət Məclisinə yeni sədr seçiləcək.

Qeyd edək ki, prosedura əsasən qarşıdakı günlərdə parlament partiyaları spiker postuna namizədlərini müəyyən edəcəklər. Daha sonra isə parlamentin iclasında namizədlər səsverməyə çıxarılacaq. Bir qayda olaraq parlamentin spikeri ən çox mandata sahib olan partiyanın nümayəndəsi seçilir. Hazırda bilindiyi kimi, parlamentdə çoxluğu AKP və onun müttəfiqi olan MHP-nin birləşdiyi "Cumhur İttifaqı" əlində saxlayır. Bu baxımdan parlamentin yeni spikerinin bu ittifaqdan, yəni MHP və ya AKP-dən olması gözlənilir. Bəzi iddialara görə, AKP və MHP arasında spikerin MHP-dən olması ilə bağlı danışıqlar var. O da bildirilir ki, əgər müvafiq razılıq əldə olunarsa, MHP-nin daha uyğun namizədi bu dəfə spiker seçilə bilər.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Bakıda "kupçasız" mənzil olmayacaq- prezidentdən daha bir fərman

## Prezident İlham Əliyev çoxmənzilli binaların istismarına icazəni sadələşdirən fərman imzalayıb



**Fevralın 19-da prezident İlham Əliyev çoxmənzilli binaların istismarına icazəni sadələşdirən fərman imzalayıb. Sənədə görə, Fövqəladə Hallar Nazirliyi 2 ay müddətində 2019-cu il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla, tikinti-quraşdırma işləri başa çatmış və istismar edilən mənzilləri olan çoxmənzilli yaşayış binalarını (çoxmənzilli yaşayış binası komplekslərini) tikinti obyektinin yükdaşıyan konstruksiyalarının dayanıqlıq, möhkəmlik baxımından istismara yararlığı, yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi, liftlərin və mühəndis-kommunikasiya təminatı sistemlərinin istismara hazırlığı baxımından müayinə etməlidir.**

Müayinənin nəticələri müsbət olduğu halda çoxmənzilli yaşayış binasının (çoxmənzilli yaşayış binası kompleksinin) istismara hazır olması barədə rəy tərtib edilməli, binanın əsas texniki göstəricilərinin və tərkib hissələrinin istismar təyinatının faktiki vəziyyətini, habelə döngə nöqtələrinin koordinatlarını əks etdirən layihəsinin elektron surəti ilə birlikdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və ya yerli icra hakimiyyəti orqanına təqdim olunmalıdır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və ya aidiyyəti yerli icra hakimiyyəti orqanı 7 gün müddətində aparılmış müayinənin nəticələrinə əsasən istismara hazırlığı barədə müsbət rəy verilmiş çoxmənzilli yaşayış binasının (çoxmənzilli yaşayış binası kompleksinin) istismarına icazə verməli və bu barədə Tikintilərin Dövlət Reyestrinə və Fövqəladə Hallar Nazirliyinə yazılı məlumat göndərməlidir.

Aparılmış müayinənin nəticələri mənfi olduqda Fövqəladə Hallar Nazirliyi müayinə nəticəsində aşkarlanmış çatışmazlıqları və onların aradan qaldırılması üçün görülməli olan tədbirləri özündə əks etdirən rəyini tərtib edib çoxmənzilli yaşayış binasının (çoxmənzilli yaşayış binası kompleksinin) sifarişçisinə (sahibinə) və ya idarəedici təşkilatına, onlar olmadığı halda aidiyyəti yerli icra hakimiyyəti orqanına təqdim etməlidir. Müvafiq rəydə göstərilmiş çatışmazlıqlar 5 ay müddətində aradan qaldırıldıqda müayinənin yenidən aparılması üçün Fövqəladə Hallar Nazirliyinə müraciət oluna bilər.

Nazirlər Kabineti aparılmış müayinənin nəticələrinə əsasən istismara hazırlığı barədə müsbət rəy verilmiş çoxmənzilli yaşayış binasının (çoxmənzilli yaşayış binası kompleksinin) istismarına icazənin formasını 15 gün müddətində müəyyən etməlidir.

Fərman 2020-ci il yanvarın 1-dək qüvvədədir.

"Prezident İlham Əliyevin bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında fərmanı vətəndaşların və MTK-ların illərlə yığılıb qalan qeydiyyat problemini həll edəcək, üstəlik bürokratik əngəllər aradan qalxacaq, büdcəyə daxilolmalar artacaq".

**Bunu virtualaz.org-a Əmlak Ekspert Mərkəzinin direktoru Ramil Osmanlı söyləyib. Onun sözlərinə görə, uzunmüddətli qeydiyyat problemi olan çoxmənzilli binaların istismara qəbulu Bakı Şəhər İcra Hakimiyyətinin nəzarətində olub.** "Bakı Şəhər İcra Hakimiyyəti sənədlərində müəyyən çatışmazlıq, qüsurlar olan çoxmənzilli binalara istismar aktı verməkdən imtina edirdi. Tikinti şirkətləri isə müəyyən səbəblərdən bu məsələni Allahın ümidinə buraxırdılar. Vətəndaşlar özləri müvafiq qurumlara, ölkə başçısına müraciət edərək problemin aradan qaldırılmasına çalışırdılar. İndi isə artıq bu məsələ birbaşa dövlət nəzarəti altında həll ediləcək", - Osmanlı qeyd edib.

**Fövqəladə Hallar Nazirliyi 2 ay müddətində binaların siyahıya alınmasını həyata keçirməli və binaların istismara yararlı olub-olmaması haqda rəy verməlidir. Ekspert deyir ki, bu rəy müsbət olduqdan sonra Bakı Şəhər İcra Hakimiyyətinin istismara qəbulla bağlı müraciətdən imtina etmək səlahiyyəti olmayacaq:** "Xeyli bina vardı ki, Fövqəladə Hallar Nazirliyi istismara qəbul edilməsi ilə bağlı müsbət rəy verib, amma meriya sənəd verməkdən imtina edib. Artıq bu problem də öz həllini tapacaq. Beləliklə, hansı binaların kı, istismara yararlı olmasına dair rəy verilib, həmin binaların problemi aradan qalxacaq".

**Bununla yanaşı, istismara yararlı olmayan binalardakı qüsurların aradan qaldırılması, təkrar müraciət məsələləri də asanlaşacaq. Belə ki, fərman MTK rəhbərlərinin qüsurların aradan qaldırımasından sonra Fövqəladə Hallar Nazirliyinə təkrar müraciət etmələrinə imkan yaradır.** "Bir sözlə, binaların istismara qəbulu, həmçinin qeydiyyat məsələsi artıq asanlaşdı. Bəzi hallarda korrupsiya elementləri ilə bağlı şikayətlər də vardı, onlar da aradan qalxacaq, nəticədə, büdcəyə daxilolmalar artacaq", - R.Osmanlı deyib və əlavə edib ki, bu fərman çoxmənzilli binaların problemlərinin həllində əsaslı rol oynayacaq.

# Milli Şuranın 23 fevral mitinqinə hansı partiya gedir, hansı yox...

**Milli Şura növbəti mitinq üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edib. Mitinq fevralın 23-nə təyin edilib. Bu barədə Milli Şura sədri Cəmil Həsənli məlumat yayıb.**

"Mitinqin əsas tələbləri siyasi məhbusların azad edilməsi, xalqdan oğurlanmış pulların xalqa qaytarılması, milləti bankların maliyyə əsarətinə salmış problemli kreditlərin dövlət tərəfindən ödənilməsi, yəni soyğunçu bank borclarının ləğv edilməsi, uşaq pullarının verilməsi və sair demokratik çağırışlardan ibarətdir" deyə, C.Həsənli qeyd edib. Amma artıq fevralın 20-dir və mitinqə üç gün qalsa da, meriyadan rəsmi cavab yoxdur. Bəs hansı partiyalar MŞ-nin mitinqinə dəstək verməyə hazırlaşır?

"Bizə mitinqdə iştirakla bağlı Milli Şuradan müraciət olmayıb. Bu bir məsuliyyətdir, biz öz məsuliyyətimizi bilirik. Ümid Partiyasına dəvət olsaydı, təşkilatın strukturları bunu müzakirə edib müvafiq qərar verəcəkdik ki, iştirak etmək istəyirik, ya yox. Amma belə müraciət olmayıb".

Bu sözləri "Yeni Müsavat"a **Ümid Partiyasının sədri İqbal Ağazadə** Milli Şuranın 23 fevrala təyin etdiyi mitinqdə iştirak haqda danışarkən bildirdi. Ümid sədri qeyd etdi ki, mitinq təşkilatçısı partiyalara müraciət etməlidir: "Biz vətəndaş deyilik ki, mitinqə çağırışa fərdi qaydada qoşulaq. Partiyalara dəvət olur, müzakirə edilir".



**Pənah Hüseyn: "Əsas kütləvilik yox, vətəndaşların öz mövqeyini ortaya qoymasıdır"**



**Sərdar Cəlaloğlu: "Kiçik çaplı mitinqlər böyük ideyaları mənasızlaşdırır"**

**"Bu gün mitinqlər nə dərəcədə aktualdır və hakimiyyətə təzyiq yoludur" sualına isə cavabında İ.Ağazadə söylədi ki, hər bir təşkilatın öz baxışı var:** "Azərbaycanda siyasi partiyaların mitinq, piket keçirmək hüququ var və hər bir təşkilat qərar verməkdə sərbəstdir. Əgər onlar bu şəkildə demokratikləşməyə nail olunacağını düşünürlərsə, biz heç bir şərh verə bilmərik".

**Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn mitinqə icazə veriləcəyi halda dəstək verəcəyini açıqladı:** "Biz partiya olaraq mövqeyimizi açıqlamışıq, mitinqdə iştirak edəcəyik. Mitinqlər vətəndaşların ifadə azadlığıdır. Bununla ölkədəki sosial-iqtisadi məsələləri, Qarabağ problemini diqqətə çatdırmalıyıq və mitinqlər təzyiq vasitələrindən biridir".

"Bəzi partiyalar onlara dəvət gəlmədiyi üçün iştirak etmir" fikrini P.Hüseyn onların öz işi kimi qiymətləndirdi. P.Hüseyn hesab edir ki, mitinqdə kütləvilik yox, vətəndaşların öz mövqeyini ortaya qoyması vacibdir.

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu dedi ki, ölkədə demokratik proseslərə dəstək qərarı verirlər:** "Dövlətin, millətin əleyhinə olmayan birliklərdə iştirak etməliyik. Əgər icazəli mitinq keçiriləcəksə, dəstək verəcəyik".

**S.Cəlaloğlunun fikrincə, kiçik çaplı mitinqlər böyük ideyaları mənasızlaşdırır:** "Qarabağ tələbi və ya hakimiyyətə az təsiri olan məsələlərlə bağlı sayca az adamın iştirak etdiyi mitinqlərə zərurət yoxdur. Amma Mehman Hüseynov və ya iqtisadi problemlər üçün mitinqlər lazım idi. Fundamental məsələlərlə bağlı lokal mitinqlərin qəti əleyhinəyəm".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

# Əli Həsənovdan müxalifət düşərgəsinə və Əli Kərimliyə faktlarla dolu cavab

## "Əli Kərimli Azərbaycana Suriyanın "inqilab təcrübə"sini idxal etmək istəyir, Azərbaycan hakimiyyəti isə dünyaya ASAN xidmət inqilabının təcrübəsini yayır"

**Əli Həsənov "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" adlı böyük həcmli məqalə yazıb.**

**Məqalədə bildirilir ki, milli mənafelərə, ümumi və strateji maraqlara çox asanlıqla arxa çevirərək dövlətə və dövlətçiliyə qarşı opponentlik edən əsas siyasi qruplardan biri Əli Kərimli və onun çevrəsindəki şəxslərdir. Hazırda bu qrup milli dəyər, məfkurə və müqəddəratımıza zidd olan ritorikaları ilə Azərbaycanda böyük vüsətlə gerçəkləşən və son zamanlar daha da intensivləşən islahatlara hər addımbaşı kölgə salmaq yolunu tutublar. Prezident İlham Əliyev həyata keçirdiyi bir çox islahatların nəticəsi kimi son aylarda büdcəmizin artan imkanlarını sosial problemlərin həllinə yönəltdikdən, iqtisadi liberallaşmanı sürətləndirdikdən, siyasi plüralizmin genişlənməsi və bütövlükdə ölkəmizdə insan kapitalının sürətli inkişafına xidmət edən çoxsaylı qərarlar qəbul etdikdən sonra məlum xarici anti-Azərbaycan qüvvələr daha da fəallaşıblar. Bu qüvvələr xaricdəki anti-Azərbaycan şəbəkəsi və ölkəmizin daxilindəki "beşinci kolonu", bir çox digər uzantılarını, o cümlədən Əli Kərimlini və onun qrupunu fəallaşdıraraq işə qoşubdur:** "Əli Kərimlinin xaricdə mənzillənən internet resurslarından birinə müsahibə verərkən Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan hakimiyyətinin həyata keçirdiyi effektli siyasəti öz merkantil maraqları çərçivəsində şərh etməyə çalışması da həmin şəbəkənin fəaliyyətinin bir təzahürüdür... İrəli sürdüyü və heç bir arqumentə tab gətirməyəcək iddialarının əsasında dayanan motiv də aydındır. O, hər vəchlə hakimiyyət və onun həyata keçirdiyi siyasət barədə cəmiyyətdə formalaşmış müsbət rəyi qaralamağa çalışır.

Görünən reallıq odur ki, istər daxili siyasətdə, istərsə də diplomatik müstəvidə İlham Əliyev hakimiyyətinin qazandığı hər bir uğur Əli Kərimli və bu tipli insanların siyasi iflasını dərinləşdirir, onları cəmiyyətin dinamikasından geridə qoyur, ictimaiyyətin diqqət mərkəzindən uzaqlaşdırır".

**"Azərbaycan dövləti Əli Kərimlisiz də bu problemi öyrənib təhlil edir və..."**

**Əli Həsənov məqalədə Əli Kərimlinin müsahibəsindəki bəzi suallara konkret faktlarla cavab verib:** "Əli Kərimli müsahibəsində sual edir ki, hakimiyyətdə olduğu dövrdə İlham Əliyev Azərbaycan xalqı və dövləti üçün nə edib? Bu suala mən cavab verəcəyəm və həm də Əli Kərimli və ətrafı kimi subyektiv mülahizələrlə ictimai rəyi manipulyasiya etmək üçün deyil, real faktlarla danışacağam...

Prezident İlham Əliyevin 2003-cü ildə qarşıya qoyduğu hədəflərdən biri regionların inkişafını təmin etmək, əyalətlə paytaxt arasında sosial-iqtisadi və mədəni fərqləri azaltmaq idi. Baxın, keçən 15 ildə Azərbaycan regionları, sözün əsl mənasında, inkişaf edib, bölgələrdə müasir infrastruktur yaradılıb. Şəhərlərimizdə müasir mədəniyyət və gənclər mərkəzləri, məktəblər, muzey və parklar, 45 Olimpiya İdman Kompleksi, həm yerli, həm də xarici turistlərin axışdığı istirahət guşələri istifadəyə verilib. Bütün ölkə boyu daimi işıq, qaz, su problemi həll edilib, kommunal xidmət sahəsində narahatlıq doğuran bütün məsələlər əsasən aradan qaldırılıb.

Son 15 ildə Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf edib, ümumi daxili məhsul 3,3 dəfə, sənaye istehsalı 2,6 dəfə, ixracımız 4,7 dəfə artıb. Ölkənin valyuta ehtiyatları 24 dəfə çoxalıb və bu gün 45 milyard dollar təşkil edir. Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulub və onun yarısı xarici investisiyadır. Ölkədə 2 milyon yeni iş yeri yaradılıb, işsizlik və yoxsulluq həddi 50 faizdən 5 faizə düşüb, əhalinin sayı 1,6 milyon artıb. Bu dövr ərzində maaşlar 7, pensiyalar 9 dəfə yüksəlib. Biznes mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü siyasət həyata keçirilib, təkcə güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb.

Dərin sosial-iqtisadi islahatların həyata keçirilməsi, yolların ən müasir standartlara uyğun yenidən qurulması, 6 hava limanının tikintisi, Oğuzdan Bakıya içməli su çəkilişi və ölkə üzrə sistemli şəkildə su probleminin həlli, 31 yeni elektrik stansiyasının tikintisi və 2500 meqavatlıq yeni güc yaradılması, sənaye zonaları, aqroparklar, meliorasiya tədbirləri, kənd təsərrüfatının canlanması və sürətli inkişafı, sənaye zonalarının işə başlaması, Azərbaycanın 3 peykinin orbitə çıxarılması və onun kosmik dövlətə çevrilməsi, transmilli enerji və nəqliyyat layihələrinin reallaşması - Bakı- Tiflis - Ceyhan neft, Bakı - Tiflis - Ərzurum qaz layihələrinin işə düşməsi, 4 seqmentdən ibarət Cənub Qaz Dəhlizi layihəsinin faktiki reallaşması, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə mühüm işlərinə görülməsi, Azərbaycanın beynəlxalq nəqliyyat-tranzit xabına çevrilməsi və bu çərçivədə Bakı-Tiflis-Qars dəmir yolunun işə düşməsi..."

**Müəllif xatırladıb ki, 15 ildə Azərbaycanda 3200 yeni məktəb tikilib və ya əsaslı şəkildə təmir olunub. 640 tibb müəssisəsi tikilib və ya yenidən qurulub, vətəndaşlarımız pulsuz müayinə imkanlarından bəhrələnirlər:** "Bu gün Əli Kərimli hansı bölgəyə üz tutsa, avtomobili hamar şoselərdə şütüyəcək, hakimiyyətdə olduğu zamanlarda elementar təmizliyə malik dövlət qonaq evi belə tapmırdısa, indi 4-5 ulduzlu hotellər arasında seçim etməli olacaq...

Azərbaycan dövləti bilir ki, bu gün 12 mindən artıq şəhidə 11 min kompensasiya vermək gücündədir və müvafiq addım atır. Amma Əli Kərimli əhalinin kredit borcları üzərində ucuz şou düzəldəndə heç hesablayıbmı ki, bəhs etdiyi 500 min insanın banklara ümumilikdə kredit borcu nə qədər edir və dövlət hazırda bu yükün altına girə bilərmi? Siyasətçi heç olmasa bir az realist olmağı bacarmalıdır və şəxsi mənfəəti naminə cəmiyyəti populist bəyanatlarla aldatmamalıdır. Ümumən bu rəqəm özü də mübahisəlidir və mütəxəssislər daha kiçik saydan bəhs edirlər. Amma bəri başdan onu da bildirim ki, Azərbaycan dövləti Əli Kərimlisiz də bu problemi öyrənib təhlil edir və əgər qarşıdan gələn dövrdə dövlətin maliyyə durumu buna imkan verəcəksə, kreditlərin məsələsi də nəzərdən keçiriləcək və müvafiq qərar qəbul olunacaq. Bir də ki, digər ölkələrin bu və ya digər addımlarından nümunə gətirənlər həmin addımların "seçki rüşvəti" sayıldığını niyə unudurlar? Axı biz, deyəsən, demokratiyadan danışırıq".

**"Müxalifətin bütün kadr potensialı ASAN xidmətin bircə filialını idarə etməyə qadir deyil"**

**Məqalədə daha sonra bildirilir ki, Azərbaycan xalqı yaxşı başa düşür ki, müxalifətin bütün kadr potensialı ASAN xidmətin bircə filialını idarə etməyə qadir deyil:** "ASAN xidmət ictimai xidmət sektorunda bir inqilabdır. Əli Kərimli Azərbaycana Suriyanın "inqilab təcrübə"sini idxal etmək istəyir, Azərbaycan hakimiyyəti isə dünyaya ASAN xidmət inqilabının təcrübəsini yayır. Hakimiyyəti rüşvət və korrupsiyada ittiham etməyə aludə olan müxalifətin ölkəmizdə nümunəvi bir təsisatın yaranmasına qısqanc münasibəti başa düşüləndir. Axı cəmiyyət bu günə kimi Əli Kərimlinin təmsil olunduğu hakimiyyətin dövründə hökm sürən dərəbəylik, dövləti talanetmə, total korrupsiya və rüşvət faktlarını unutmayıb...

Prezident İlham Əliyevin cəmiyyətdə şəffaflığın təmin edilməsi, korrupsiya, rüşvətxorluq kimi neqativ hallara qarşı barışmaz mübarizə aparması Əli Kərimliyə və onun ətrafına sərf etmir. Onlar ittiham hədəflərini itirirlər, sözləri kəsərdən düşür və daha heç kimi aldada bilmirlər. Əlləri hər yerdən üzüləndə isə XXI əsrdə rasist təfəkkürünə pənah aparır,



Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri

məsələn, iddia edirlər ki, ərəb turistlərin Azərbaycana gəlişi xalqımızı alçaldır. Niyə? 2018-ci ildə Azərbaycana 3 milyona yaxın turist gəlməsi, ümumilikdə 2 milyard dollardan artıq vəsait xərcləməsinin nəyi pisdir? Bütün xidmət sektorunun hərəkətə gəlməsi, əhalinin əlavə gəlir imkanlarının artmasının nəyi pisdir? Nə qədər Əli Kərimli və çevrəsinin xoşuna gəlməsə də, əlbəttə, bunda Formula I yarışlarının, I Avropa Oyunlarının, İslam Həmrəylik Oyunlarının böyük rolu olub. Nədənsə, bütün bu beynəlxalq miqyaslı tədbirlər Əli Kərimlinin və çevrəsinin xoşuna gəlmir. Niyəsi də məlumdur, çünki onların işinə, istək və arzularına yaramır. Axı bu feodal zehniyyətə Azərbaycana Avropa Oyunlarının deyil, "köhnə qitədən" bəlli çevrələrin inqilab ixracı, Suriyada, Liviyada və s. ölkələrdə olduğu kimi İslam dünyasından silahlı radikal dini qrupların gəlişi, Formula I avtomobilləri əvəzinə isə Bakının küçələrində tanklar və topların irəliləməsi daha uyğundur".

**Müəllif həmçinin qeyd edib ki, cənab İlham Əliyev ilk dəfə Azərbaycan Prezidenti seçilməzdən əvvəl ölkədə bütün çadır şəhərciklərinin ləğv ediləcəyini, qaçqın və məcburi köçkünlərin fərdi mənzillərlə təmin olunacağını vəd etmişdi. O zaman Əli Kərimli və onun keçmiş hakimiyyətdəki "mehriban düşmənləri" bu vədlərin yerinə yetirilməsini mümkünsüz sayır, əleyhinə təbliğat aparır, məcburi köçkünlərə fərdi evlə təmin olunmalarını hətta xəyallarına belə gətirməməyi tövsiyə edirdilər:** "Prezident İlham Əliyevin verdiyi vədin müqabilində keçən müddətdə məcburi köçkünlər üçün bütün infrastrukturla təmin olunmuş 100-dən artıq müasir qəsəbə salınıb, 55 min ailə, 300 mindən artıq insan rahat mənzillə təmin olunub, başqa sözlə, hətta xəyallarında belə iki daşı bir-birinin üstünə qoymağı bacarmayan müxalifətçilərin deyingənliyinə rəğmən, İlham Əliyev xalqa xidmət amalının misilsiz bir nümunəsini ortaya qoyub...

1997-2018-ci illər ərzində dövlət tərəfindən Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə 6654 mənzil təqdim edilib. O cümlədən 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə 626 mənzil verilib. Bu il isə həmin kateqoriyaya daxil olan vətəndaşlara azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur;

1997-ci ildən etibarən müharibə əlillərinə avtomobillər bağışlanması ənənə halını alıb və bu günə kimi artıq onlara 6144 avtomobil verilib;

həmçinin cənab İlham Əliyevin 2018-ci ildə prezident seçildikdən sonra verdiyi ilk fərmanda şəhid ailələrinə 11 min manat kompensasiya ödənilməsinin əks olunması (12. 268 şəhidin vərəsələrini əhatə etməklə ümumilikdə 135 milyon manat vəsait ayrılması nəzərdə tutulur) faktdır".

**Məqalədə vurğulanır ki, bu qəbildən olan faktları 19 yanvar mitinqinə bağlamaq üçün Əli Kərimlinin "zamana səyahət makinası" kəşf edərək aksiyasını özü ilə birgə keçmişə aparması da lazımdır. Ancaq heç bu da Əli Kərimliyə sərf etməz, ona görə ki, yaxın keçmişə qayıdanda da cənab İlham Əliyevi prezident seçildiyi ilk gündən xalqın arasında görmüş olacaq:** "Cənab İlham Əliyev cənubdan şimala, qərbdən şərqə bütün rayonlarımızda dəfələrlə səfərdə olub, insanların güzəranı ilə maraqlanıb, problemlərinin həlli ilə bağlı anında tapşırıqlar verib. Lənkəranda bina çökəndə, Aranda Kür daşanda, Zaqatalada, Şamaxıda zəlzələ olanda xalq öz prezidentini onunla çiyin-çiyinə dayanmış görüb, əlini kürəyində hiss edib..."

**Əli Həsənov jurnalistlərin mənzillə təmin olunması məsələsinə də məqalədə yer ayırıb:** "Azərbaycan hakimiyyəti yüzlərlə jurnalisti mənzillə təmin etdi, siyasi dünyagörüşünə fərq qoymadan yüzlərlə qələm sahibini kirayələrdən, yataqxanalardan ayırıb Bakının ən prestijli ərazisində ev-eşik sahibinə çevirdi. Hətta vaxtilə öz nəzarətində olan qəzetlərdə çalışan mətbuat nümayəndələrinə də "Allah xeyir versin" deməyə mənəvi gücü çatmayan Əli Kərimli iddia edir ki, guya dövlət bu yolla medianı satın alır. Yaxşı olmazmı ki, AXCP sədri ev müqabilində hansısa şərt qoyulub-qoyulmamasını jurnalistlərin özündən soruşsun, dövlətdən hər cür qayğı görən mətbuatın səsini dinləsin?!."

Məqalənin sonunda qeyd olunur ki, kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə tez-tez belə bir sual səslənir ki, Azərbaycan müxalifəti niyə belə zəif və perspektivsizdir? Əslində bunun səbəbkarı nə Əli Kərimlidir, nə də düşərgənin digər nümayəndələri. Çünki onlar Prezident İlham Əliyevin düşünülmüş, prinsipial milli siyasəti, dövlət başçısının müasir və qüdrətli Azərbaycan naminə açdığı yeni üfüqlər, vətəndaş təşəbbüskarlığına yaratdığı imkanlar qarşısında aciz vəziyyətdə qalmağa məhkumdurlar. Bu pozitiv reallıq hələ uzun illər Azərbaycan xalqına və dövlətinə xidmət edəcək. Heç bir qüvvə Azərbaycan xalqının milli iradəsini sarsıda, bu iradənin ifadəçisi olan Lideri yolundan döndərə bilməz.

❑ **Hazırladı: Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

# “İsgəndər Həmidov getmək üçün bəhanə axtarırdı”

## Akif Nağı: “Bəziləri göstərmək istəyir ki, guya ən radikal onlardır”

**Qarabağ Komitəsində ötən həftə baş verən istefalar qurumun daxilində gərginlik yaradıb. Qarşılıqlı ittihamlarla müşahidə olunan prosesə sabiq daxili işlər naziri İsgəndər Həmidovun təşəbbüsü ilə yaranan Azərbaycan Xalq Hərəkatı daxilində Qarabağ Komitəsinin yaradılması əlavə gərginlik gətirib. Artıq Azərbaycan Xalq Hərəkatında təmsil olunan bəzi partiya sədrləri Qarabağ Komitəsində fəaliyyət göstərən bir qrupu hakimiyyətin istəyi ilə hərəkət etməkdə suçlamağa başlayıb. Baş verənlərlə bağlı Qarabağ Komitəsinin İdarə Heyətinin üzvü, Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı ilə danışdıq.**



***- Akif bəy, Qarabağ Komitəsində son zamanlar nə baş verir?***

- Doğrusu, mən də Qarabağ Komitəsi daxilində nə baş verdiyini anlamağa çalışıram. Amma hələ dəqiq bir şey deyə bilmərəm. Müəyyən versiyalarım var. Görünən odur ki, Qarabağ Komitəsi kimlərəsə mane olur, onu aradan qaldırmağa çalışırlar. Digər tərəfdən, kimlərsə ya sifarişlə, ya da öz təşəbbüsü ilə Qarabağ Komitəsində nəzarəti ələ keçirmək istəyir.

***- Qurumun daxilində baş verənlərdə, istefalarda kənar qüvvənin əli ola bilərmi?***

- Qarabağ Komitəsində baş verənlərdə kənar əlin rolunun olması versiyası da mümkündür. Faktlarım olmadığına görə bir şey deyə bilmərəm, amma kənar müdaxilə olmamış deyil, bəlkə də əsas amildir. Biz çox böyük əziyyətlə Qarabağa dair birliyə nail olmuşduq, xalq da bu birliyi çox istəyirdi, bu birliyə çox sevindi. Emosiyaya qapılmadan hər kəs desin görək bu birliyi pozan kimlər oldu?

***- İsgəndər Həmidov istefa verib gedəndə şəxsən sizə yönəlik ağır ittiham səsləndirdi, sizi hakimiyyətlə alver etməkdə suçladı. Qarabağ Komitəsi yaranandan bəri, ümumiyyətlə, hakimiyyətdən kiminləsə Qarabağ Komitəsi mövzusunda söhbətiniz olub?***

- İsgəndər bəyin ittihamının heç bir əsası yoxdur, daha çox gedişinə bəhanədir. Getmək istəyirdi, bəhanə axtarırdı, bəhanə tapa bilmədi, ona görə də əsassız bir ittiham irəli sürdü. Eyni ittihamı mən də ona qarşı deyə bilərəm. Sadəcə, bu cür söz güləşdirməsinə getmək istəmirəm. Mən iş görməyə üstünlük verirəm, bəziləri heç bir iş görmür, mənasız qeybətlərlə gündəmə gəlməyə çalışırlar. Mənim hakimiyyətdən heç kəslə heç bir təmasım olmayıb, heç nəyi məsləhətləşməmişəm. Mən həmişə demişəm və deyəcəyəm ki, Qarabağın azadlığı üçün hakimiyyətlə cəmiyyət, müxalifət bir yerdə hərəkət etməlidir. Mən Qarabağ Komitəsinin yaranmasının əvvəlində də bu tezisi demişəm, komitəni də bu prinsip əsasında yaratmışıq. O vaxt hamı da bu prinsipə razılaşıb. İndi nə olub ki, boş ittihamlara keçiblər?! Əsassız ittihamları kənara qoymaq lazımdır.

***- Komitənin İdarə Heyətinin üzvü Pənah Hüseyn isə deyir ki, son vaxtlar Qarabağ Komitəsi ətrafında hansısa əməliyyatlar aparılmağa başlandığı sezilirdi. Siz də bu cür düşünürsünüz? İstefalar bu əməliyyatın əlamətləri sayıla bilərmi?***

- Qarabağ Komitəsi ətrafında kimlərinsə əməliyyat keçirmək istəkləri hiss olunur. Məqsədləri komitəni ya ələ keçirmək, ya da bu mümkün olmasa dağıtmaqdır. Mən heç vaxt bu cür oyunlarda iştirak etməmişəm, indi də etməyəcəyəm. Böyük ehtimalla kənara çəkiləcəyəm. Meydanı verəcəyəm söz pəhləvanlarına. Mənim intriqa pəhləvanları ilə söz güləşdirməyə vaxtım və həvəsim yoxdur.

***- Qarabağ Komitəsindən istefa verənlər fevralın 18-də Azərbaycan Xalq Hərəkatı nəzdində Qarabağ Komitəsi yaradıblar. Onların bu addımına münasibətiniz necədir? Bu hadisə Qarabağ Komitəsinə alternativ yaradılmasıdırmı?***

- AXH deyilən qurumda Qarabağ Komitəsi yaradıblarsa, bu, onların haqqıdır, heç nə deyə bilmərəm. Uğurlar arzulayıram. Qarabağ adına kim nə yaradır, nə iş görürsə, ancaq alqışlanmalıdır. Qarabağ Komitəsinə alternativ deyəndə, sağlam yarış mənasında yaradırlarsa, olsun. Ziyanı yoxdur. Amma “mən də varam” məntiqi ilə yaradırlarsa, sönüb gedəcək.

***- AXH üzvü, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev isə bildirir ki, cəmi bir dəfə mitinqlə bağlı Qarabağ Komitəsinin iclasında iştirak edib və görüb ki, yaxşı atmosfer yoxdur. Əvvəldən problemlərin olduğunu iddia edir. Bu iddialar doğrudurmu?***

- Mitinq ərəfəsində çox müsbət atmosfer var idi, hamı iş gömək, bir işin qulpundan yapışmaq həvəsində idi. Elşad bəy nəyi necə görüb, deyə bilmərəm.

***- Eyni zamanda həm istefa verənlər, həm də Elşad Musayev deyirlər ki, Qarabağ Komitəsində mitinq məsələsində hakimiyyətin dediyi ilə oturub duranlar var, problem həm də bundan qaynaqlanır.***

- Söhbət hakimiyyətin dediyi ilə durub oturmaqdan getmir. Əksəriyyət hesab edirdi ki, icazəsiz aksiyaya, mitinqə getmək olmaz, mitinq razılaşdırılmalıdır. Bəziləri isə “istefa” tələbində israr edirdi. İstefa tələbi ilə hakimiyyəti Qarabağı azad etməyə məcbur etmək olmaz. Bəziləri istefa tələbi səsləndirməklə Qarabağın azadlığına deyil, özlərinin reklamına xidmət edirlər. Göstərmək istəyirlər ki, guya ən radikal onlardır.

***- Qarabağ Komitəsini Qarabağ məsələsini inhisara almağa çalışmaqda da qınayırlar...***

- QAT-ı da həmişə ittiham ediblər ki, guya Qarabağ məsələsini inhisara almışıq. Heç bir inhisar yoxdur. Meydan həmişə açıq olub, buyursunlar görək nə iş görəcəklər. Amma mənasız danışıqlara son qoyub iş görsünlər, çalışsınlar. Elə olarsa, ancaq sevinərik.

***- İsgəndər Həmidov istefa verdikdən sonrakı keçən günlərdə onunla ikilikdə görüşünüz, söhbətiniz olub?***

- Xeyr, heç bir görüşümüz, söhbətimiz olmayıb. İsgəndər Həmidovla görüşə ehtiyac görmürəm. Müsbət nəticəyə çox çalışmışdıq, amma bir şey alınmadı.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# ““Qafqaz üçlüyü”nü yazan adamın ətrafında kimlər toplaşacaqsa...”

## Şeyx Əbdül: “Rüstəm İbrahimbəyov özünün dağıtdığı ittifaqı necə bərpa edəcək, baxarıq”
## Ayaz Salayev: “Onun restoranda ad günü keçirməsi mətbuatın diqqətinə layiq deyildi”

**Məlum olduğu kimi, uzun fasilədən sonra Bakıya qısamüddətli səfər edən Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, tanınmış kinorejissor Rüstəm İbrahimbəyov bildirmişdi ki, qurumu yenidən dirçəltmək arzusundadır:**





Şeyx Əbdül



Ayaz Salayev

“İttifaqın 150 üzvünün günahı nədir? Niyə onlar işsiz qalmalıdır, əziyyət çəkməlidir? Mənim vətəndaş mövqeyim hakimiyyətin fikrindən fərqləndiyinə görə kinematoqrafçıların mülkiyyətini və əmlakını götürmək lazımdır? Kinematoqrafçılar İttifaqını mənim tərəfdarlarıma və əleyhdarlarıma bölmək, insanları mənəvi cəhətdən sındırmaq nəyə lazımdır? İttifaqın qurultayını keçirmək, onun işini sahmana salmaq lazımdır. Adamlara yaradıcılıqla məşğul olmağa şərait yaratmaq, bu mənasız cinayət və vergi təqiblərinə son qoymaq lazımdır. Hakimiyyətin mənə iradları ola bilər, ancaq niyə başqaları əziyyət çəkməlidir? ”Qafqaz üçlüyü" filminə görə mənə qarşı təqiblərə son qoymaq lazımdır".

Bəs ittifaqı qaldırmaq mümkün olacaqmı?

**Əməkdar incəsənət xadimi, rejissor Şeyx Əbdül Mahmudbəyli “Yeni Müsavat”a bildirdi ki, onun üçün Rüstəm İbrahimbəyov mövzusu çoxdan qapanıb:** “Amma 80 yaşlı kişinin bundan sonra nə edəcəyi maraqlıdır. Özünün dağıtdığı ittifaqı necə bərpa edəcək, baxarıq. Hər şeydən əvvəl çəkdiyi ”Qafqaz üçlüyü" filmi ilə bağlı söz-söhbətə cavab və izahat versin".

Şeyx Əbdülün sözlərinə görə, hamı qocalanda vətənə gəlir: “Kim gəlir, xoş gəlir, səfa gətirir. Onsuz da kim qocalırsa, vətənə dönür. Amma yaxşı olar ki, həmin film barədə danışsın”.

Yada salaq ki, Ə.Mahmudbəyli həmin filmə görə İbrahimbəyovu “xəyanətkar” adlandırmışdı. Azərbaycan Kinematoqrafçılar İttifaqının keçmiş katibi, xalq artisti Rasim Balayev isə bu haqda danışmaq istəmədi.

O, İbrahimbəyovun ittifaqı necə dirçəldəcəyini bilmədiyini, özünün orada təmsil olunmadığını, onu maraqlandırmadığını dedi. Yeri gəlmişkən, deyək ki, R.Balayev 2013-cü ildə ittifaqdan imtina edib.

**Əməkdar incəsənət xadimi, rejissor Ayaz Salayev başqa ittifaqın üzvü olduğunu söylədi. Onun sözlərinə görə, İbrahimbəyovun ittifaqın işləri ona maraqlı deyil:** “Özləri bilər nə edəcəklər. ”Qafqaz üçlüyü" filmini yazan adamın ətrafında kimlər toplaşacaqsa, onlar da ittifaq haqda fikirləşərlər. Bu məsələ həmin ittifaqın üzvü olanların öz vicdan problemidir".

A.Salayev “onun ətrafına yazıçı Anar, Rəssamların İttifaqının sədri Fərhad Xəlilov da toplaşmışdı” qeydimizə qısa olaraq bildirdi ki, bu da həmin şəxslərin öz işidir, şərh vermək istəmir.

**A.Salayev hesab edir ki, ümumiyyətlə, R.İbrahimbəyovun restoranda ad günü keçirməsi mətbuatın diqqət mərkəzinə gəlməsinə layiq deyildi:** “Başa düşmürəm ki, niyə kiminsə ad günü səs-küyə səbəb olur. Bu, bir adamın şəxsi hadisəsidir”.

**“Müəyyən perspektivlə bağlı fikir mübadiləsi apardıq”. Bunu moderator.az-a R.İbrahimbəyovun sədr olduğu Azərbaycan Kinemotoqrafiyaçılar İttifaqının katibi Əlisa Cabbarov bildirib.** “İlk olaraq bu görüş Azərbaycan Kinemotoqrafiya İttifaqının üzvlərinin, idarə heyətinin və katibliyin onun sədrinə olan etibarının nümayişi idi.

İdarə heyətinin qərarı ilə 2012-ci ildən 2019-cu ilədək Azərbaycan Kinemotoqrafiya İttifaqının katibliyinin fəaliyyəti Kinemotoqrafiyaçılar İttifaqının problemləri ilə bağlı apardığı işlər, kinomuzun maraqlarını qorumaqla bağlı apardığı işlər dəstəklənib. Katibliyin və idarə heyətinin işi qənaətbəxş sayılıb. İdarə heyətinin sədri Rüstəm İbrahimbəyova ittifaqın sədri olaraq dəstək nümayiş olunub. Həmçinin real durumumuzu müzakirə etdik. Müəyyən perspektivlə bağlı fikir mübadiləsi apardıq. Bu diskussiyanın, müzakirənin nəticəsini birmənalı şəkildə müsbət qiymətləndirirəm. Amma real olaraq nəticələrini üzümüzə gələn aylar görəcəyik.

Yəni həmişə Rüstəm İbrahimbəyov kino sahəsində, sənəd sahəsində kino ittifaqının katibi olaraq, güclü, komandasının maraqlarını güdən liderdir. O cəhətdən öz komandası ilə görüşü müsbət haldır və nəticəsi də müsbət olacaq", - deyə o bildirib.

Xatırladaq ki, 2012-ci ildə İbrahimbəyovun Azərbaycan Kinematoqrafçılar İttifaqını (AKİ) bir qrup üzvü tərk edərək yeni təsis olunmuş Azərbaycan Respublikası Kinematoqfafçılar İttifaqına (ARKİ) dəyişmişdi. Yeni quruma tanınmış aktrisa Şəfiqə Məmmədova sədrlik edir.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

# Abutalıbovun ən odioz kadrı işdən çıxarıldı-itirilən yaşıl milyonlar...

## Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin baş direktoru Vaqif Novruzov həm də generalın qardaşıdır; illərdir yaşıllaşdırma işləri üçün ayrılan milyonlar onun əlində cəmləşirdi...

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin baş direktorunu işdən çıxarıb. Unikal.org xəbər verir ki, Eldar Əzizovun müvafiq əmri ilə Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin baş direktoru Vaqif Novruzov vəzifəsindən azad edilib. Xəbəri Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyindən təsdiqləyiblər.**

Yaşıllaşdırma Təsərrüfatı Birliyi meriyanın o zamankı rəhbəri Hacıbala Abutalıbovun sərəncamı ilə 2005-ci ilin oktyabrında yaradılıb. Belə ki, Abadlaşdırma və Park-Bağ Təsərrüfatının İnkişafı Departamentinin bazasında Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyi yaradılıb.

Birlik Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi və nəzarəti altında Bakı şəhərində və Abşeron yarımadasında yaşıllaşdırma və mövcud yaşıllıqlara qulluq işlərini mərkəzləşdirilmiş qaydada həyata keçirir. Birliyin tərkibinə "Yaşıllıqtikinti" Podrat İxtisaslaşdırılmış Təmir Tikinti Müəssisəsi, Ağac Bəzək Bitkiləri Sovxozu, Avtonəqliyyat idarəsi, Bitkilərin Mühafizəsi Stansiyası, Su quyularının İstismarı və Təmiri xidməti idarəsi də daxildir.

"Yeni Müsavat" bildirir ki, ötən ilin noyabrında E.Əzizovun sərəncamına əsasən Vaqif Novruzova sonuncu xəbərdarlıq edilməklə şiddətli töhmət verilmişdi. Bildirilirdi ki, bu cəza tədbiri Bakı şəhərində yaşıllıqların vəziyyəti, o cümlədən parklara zəif qulluq göstərilməsi ilə əlaqəlidir. E.Əzizov tərəfindən bununla bağlı dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, vəziyyət dəyişməyib.

Məlumdur ki, E.Əzizov hələ Bakı Şəhər İcra Hakimiyyətinin başçısı səlahiyyətlərini icra edəndə şəhər təsərrüfatının müxtəlif sahələrində hökm sürən vəziyyəti araşdırmaq üçün komissiyalar yaradıb. Və belə komissiyalardan biri də yaşıllaşdırma təsərrüfatı və yaşıllıqlarla bağlı vəziyyəti araşdırıb. Nəticədə məlum olub ki, Yaşıllaşdırma Təsərrüfatı Birliyinin rəhbərliyi Bakı şəhərində qanunsuz şəkildə qiymətli ağacları qıran şəxslərə qarşı ciddi tədbirlər həyata keçirməyib, yaşıllıqların qorunması üçün lazımi işlər görməyib, ting ağacların yetişdirilməsi istənilən səviyyədə olmayıb. Həmçinin Yaşıllaşdırma Təsərrüfatı Birliyinin sahə idarələrində adı olan, amma işə çıxmayan onlarla şəxs müəyyənləşib.

Vaqif Novruzov BŞİH-də idarə rəhbəri olsa da, oliqarx-məmur hesab edilirdi. Çünki illərdir yaşıllaşdırma işləri üçün ayrılan milyonlar onun əlində cəmləşirdi.

Vaqif Novruzov Naxçıvan daxili işlər nazirinin müavini, general Səbuhi Novruzovun qardaşıdır. Səbuhi Novruzov uzun müddət Naxçıvan Şəhəri Polis İdarəsinin rəisi olub, 2013-cü ilin payızında nazir müavini təyin edilib. 2013-cü ilin iyununda prezidentin sərəncamı ilə general-mayor rütbəsi alıb.

Yaşıllaşdırma Təsərrüfatı Birliyinin sabiq sədrinin daha bir qardaşı Binəqədi Rayon İcra Hakimiyyəti başçısının sabiq birinci müavini, həmin rayonda 2015-ci ildə yanan və azı 17 adamın ölümünə səbəb olan bina işinə görə həbs edilən Qəzənfər Novruzovdur. Qəzənfər Novruzov Binəqədidən öncə Səbayel Rayon İcra Hakimiyyəti başçısının müavini olub. Binəqədidə işlədiyi müddətdə isə rayon sakinləri arasında ən çox narazılıq edilən məmurlardan biri olub. İşdən çıxarıldıqdan sonra onun ölkədən qaçdığı barədə xəbərlər yayılmışdı.


Vaqif Novruzov


Hacıbala Abutalıbov

Q.Novruzovun daha bir qardaşı Məhərrəm Novruzovun isə bir neçə il əvvəl Abşeronun sosial müdafiə fondunun rəhbəri vəzifəsində çalışdığı deyilirdi.

V.Novruzov uzun illərdir ki, həmin postu tuturdu və Hacıbala Abutalıbovun komandasının ən odioz fiqurlarından biri hesab olunurdu. Yada salaq ki, 2001-ci ilin yanvar ayından BŞİH başçısı olan Hacıbala Abutalıbov ötən ilin aprelində prezident İlham Əliyevin sərəncamı ilə işdən çıxarılıb. O, baş nazirin müavini təyin edilib. Hacıbala Abutalıbovun 17 illik mer dönəmində BŞİH-in tabeliyində olan müəssisələrdə, eləcə də Yaşıllaşdırma Təsərrüfatı Birliyi baş verən korrupsiya ilə bağlı ölkə mətbuatında çoxsaylı məlumatlar dərc edilib. Noyabrın 15-də BŞİH rəhbəri təyin edilən Eldar Əzizov meriyada köklü kadr dəyişikliklərinə başlayıb. Hacıbala Abutalıbov tərəfindən vaxtilə vəzifəyə təyin edilən xeyli kadrı işdən uzaqlaşdırıb.

❑ **ORXAN,**
**"Yeni Müsavat"**

# Əli İnsanova azadlıq yolu göründü-martda azad oluna bilər

## **Novella Cəfəroğlu:** "Çox ümid edirik ki, sabiq nazir bu dəfə azad olunacaq"


Əli İnsanov

**Son günlərdə Azərbaycan hakimiyyəti tərəfindən ciddi addımlar atılmaqdadır. Bu addımlar bütün sahələri əhatə edir. Prezident İlham Əliyevin şəhid ailələri ilə görüşü, imzaladığı bir sıra sərəncamlar, bir-birinin ardınca bölgələrə səfərləri və digər görülən işlər bunları əyani sübut edir.**

Bütün bunların fonunda siyasi məhbuslar məsələsi bir daha gündəmə gəlib. Hüquq müdafiəçilərinin nazirlərlə və aidiyyəti qurumlarla keçirdikləri görüşlər həbsdə olan siyasilərlə bağlı ümidlənməyə əsas verir.

Siyasi məhbusların içərisində ilk göz önünə gələn isim isə 14 ilə yaxındır həbsxana həyatı yaşayan sabiq səhiyyə naziri Əli İnsanovdur. Nəhayət, ölkə iqtidarının keçmiş nazirə güzəşt edəcəyi ehtimal edilir. Azərbaycan hökumətinin siyasi məhbus problemini birdəfəlik həll etmək üçün mart ayında ciddi addımlar atacağı bildirilir. Heç şübhəsiz ki, bu addımlar atılarsa, Ə.İnsanov azadlığın qoxusunu duyan ilk məhbuslardan olacaq.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu "Yeni Müsavat"a ümidli danışdı:** "Tək Əli İnsanovun deyil, bütün siyasi məhbusların azadlığa çıxmasını istəyirəm. Bu gün ciddi islahatların, prezidentin atdığı addımların şahidi oluruq. Bunlar həm xalq, həm də beynəlxalq aləm tərəfindən təqdir olunur. Bizim Avropa İttifaqı və Şurasının nümayəndələri ilə görüşlərimiz olur. Görüşlərdə bunların şahidi oluruq. Azərbaycanda atılan addımları müsbət dəyərləndirirlər. Siyasi məhbusların içərisində Əli İnsanov da var. Biz siyasi məhbus problemini tam aradan qaldırsaq, müsbətə doğru çox şeylərə nail ola bilərik. Əli İnsanovun azadlığa çıxmasını çox istəyirəm. O, Heydər Əliyevin ən yaxın dostlarından olub. Heydər Əliyevin yanında çox böyük xidmətləri olub. Əli İnsanov daxil, bütün siyasilər azad edilsə, hamının yanında başı uca gəzərik, sözümü tam şəkildə deyə bilərik. Aparılan islahatlarla bərabər bütün siyasi məhbuslar da azad olunsa, əmin olun ki, hər kəs Azərbaycana həsəd aparacaq. Əli İnsanov yaşlı adamdır. 14 il həbsdə olduğu müddət ərzində bir dəfə də onun nəyəsə irad tutduğunun şahidi olmamışıq. Bu insanın akademik olmağı, həbsxanada özünü ləyaqətlə aparmağı azad olunmasına əsas verir. Çox ümid edirik ki, sabiq nazir bu dəfə azad olunacaq".


Novella Cəfəroğlu

**Hüquq müdafiəçisi sabiq nazirin əfv ərizəsi yazmamasının hansı nəticələr verə biləcəyinə də toxundu:** "Biz bütün siyasilərin adından əfv üçün məktub yazırıq. Prezidentdən xahiş edirik ki, filankəslər azad olunsun. Bu baxımdan Əli İnsanov əfv yazmasa belə, onun adından onsuz da əfv müraciətləri edilib. Hesab edirəm ki, yaşına, işinə baxılıb, Əli İnsanov əfv oluna bilər".

Xatırladaq ki, Ə.İnsanov 2005-ci ilin oktyabrında dövlət çevrilişinə cəhd ittihamı ilə həbs olunub. 2007-ci ilin aprel ayında məhkəmə sabiq nazirin əmlakı müsadirə olunmaqla və 3 il ərzində dövlət vəzifəsi tutması qadağan olunmaqla, 11 il müddətinə azadlıqdan məhrum olunması haqda hökm çıxarıb. Məhkəməsində Ə.İnsanov irəli sürülən ittihamlarla razılaşmadığını, onların heç birini qəbul etmədiyini bəyan edib. 2013-cü ilin martında Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) onun işi üzrə qərarı açıqlayıb. Məhkəmə İnsanovun Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü (işgəncələrin qadağan olunması) və 6-cı (ədalətli məhkəmə təhqiqatı hüququ) hüquqlarının pozulduğunu təsdiq edib və ona 10 min avro təzminat ödənilməsi barədə qərar çıxarıb. Lakin Avropa Məhkəməsinin qərarı keçmiş nazirin azad edilməsi üçün yetərli olmayıb.

Belə ki, 2016-cı il avqustun 24-də Qaradağ Rayon Prokurorluğu Ə.İnsanova Cinayət Məcəlləsinin 315.2 (hakimiyyət nümayəndəsinə zor tətbiq etmə) , 234.1 (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə ) və 317-2.1-ci (cəzaçəkmə müəssisələrində qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması və istifadəsi) maddələri ilə yeni ittiham elan edilib. Həmin gün sabiq nazir təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunub.

Yeni cinayət işinin istintaqı ilə əlaqədar Ə.İnsanov 13 saylı cəzaçəkmə müəssisəsindən Bakı İstintaq Təcridxanasına köçürülüb. Qaradağ Rayon Məhkəməsi 2016-cı il oktyabrın 11-də İnsanov barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçib, sonradan bu müddət bir neçə dəfə uzadılıb. İttihama görə, o, 2016-cı il avqustun 23-də xidməti vəzifəsini yerinə yetirən ədliyyə mayoru Anar Məmmədova zor tətbiq edib. Bəyan olunub ki, avqustun 23-də 13 saylı cəzaçəkmə müəssisəsində rejim qaydalarına baxış tədbirləri keçirilərkən Ə.İnsanovda psixotrop maddə hesab edilən həblər, cəzaçəkmə müəssisələrində qadağan olunmuş güclü təsiredici dərman vasitəsi aşkar olunub, Penitensiar Xidmətin əməkdaşları protokol tərtib edərkən Əli İnsanov onlara mane olmağa cəhd göstərərək protokolu cırıb, hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq edib və sağlamlığı üçün təhlükəli xəsarətlər yetirib.

2017-ci il aprelin 26-da hakim Rəşad Mustafayevin sədrliyi ilə Qaradağ Rayon Məhkəməsində bu ittihamlar üzrə proses yekunlaşıb. Əli İnsanov növbəti dəfə 7 il 5 gün müddətinə azadlıqdan məhrum edilib. Beləliklə, 2005-ci ildə həbsə alınmış sabiq nazirin həbsi 2023-cü ilədək uzadılıb. Ə.İnsanov ittihamları qəbul etmir, bunu siyasi sifariş sayır. O, tibb elmləri doktorudur, 1993-2005-ci illərdə səhiyyə naziri postunu tutub.

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019



# Yeməyə baxan oğlanın yeyintisi

Zamin HACI
zaminhaci@gmail.com

"Qurd nə bilir qatır bahadır?!"
*(Azərbaycan ata sözü)*

**Yemək-içməyimizin təhlükəsizliyinə baxan bir idarə vardır, adının baş hərflərini yanaşı qoyanda məşhur kompüter oyunlarından birinin adına oxşayır. Həmin oyunda maşına minib müxtəlif dünya şəhərlərində adam öldürürsən. İstəyirsən güllələ, istəyirsən maşınla vur - uşaqlar kompüter salonunda oynayanda görmüşəm, yoxsa belə qanlı işlərlə aram yoxdur, lap virtual olsa da. Hər cür adam var, eləsi var adamyeyənlər temasında qorxu kinolarından ləzzət alır. Oturub ağzını marçıldada-marçıldada baxır. Səhər isə durub gedir filan nömrəli məktəbdə musiqi dərsi keçməyə, idarədə vətəndaşlara pasport verməyə, nə bilim, Biləcəri-Roma müasir işıq dirəkli asfalt yolunu çəkməyə. Yəni adamın kino zövqü ilə həyat tərzi üst-üstə düşməyə bilər. Bəşər tarixində əksər silsilə (çox adam öldürmüş) manyaklar həyatda sakit adam olmuşdur.**

Əlbəttə, mövzumuza qayıdaq, söhbət ondadır ki, bizim həmin yemək təhlükəsizliyi idarəmizin müdirinin də bu saat dünyanın fərqli ölkələrində biznesləri tapılmaqdadır. Jurnalistlər bunu pisləyirlər, halbuki fəxr etməyə dəyər. Deməli, bu qardaşımız yeyən oğlandır! Yeməsə biznesi necə qurardı? Özü yeyirsə, mütləq kimisə doyuzdurur. Çörəkli kişidir. Ən azı özünü doyuzdurmaq bu dəqiqə ciddi bacarıq tələb edir. Bu temada ata sözü də var: "Yedin dadındır, verdin adındır, qaldı yadındır". Başqa bir elmi analiz də var, deyir kişilər dörd cür olurlar: "Biri var özü yemir, başqalarına verir, o, səxavətli kişidir. Biri var özü yeyir, başqalarına da verir, bu da kişi adamdır. Biri var özü yemir, başqalarını da yeməyə qoymur, onu lənətə gəlsin". Dördüncü nə təhər kişi idi, düzü, yadımda qalmayıb, siz də üstünü vurmayın.

İndi bu yeməyə baxan adam özü yeməsə, bizim yeməyimizin içindən siçan quyruğu, it dirsəyi, pişik quyruğu, canım sənə desin, qoyun qığı və tarakan bığı çıxmaq ehtimalı artar. Yeyir, baxır problem yoxdur, bizə də deyir nuş eləyin. Sonra yediklərindən xaricdə biznes qayırır. Əsasən buna ilişirlər, guya biznesi vətəndə qayırsa daha patriot olarmış.

Məncə, çox yanlış yanaşmadır. Birincisi, bizim biznesmenlərimiz xaricə nə qədər çox pul qoysalar respublikamız o qədər çox tanınar, Azərbaycan həqiqətlərini yayarıq. Yoxsa sən get Biləcərinin tinində dükan aç - kimə lazımdır? İkincisi, ağbirçəklərimizin bu temada bayatısı var, deyir: "Geyməyə kətan yaxşı, Ölməyə kəfən yaxşı, Xərcləməyə qərib ölkə, Yığmağa vətən yaxşı". Millət çalışır hər zaman bu öyüdü əldə rəhbər tutsun. Haçan baxırsan, mütləq xəbər lentində belə başlıq olur: "Filan məmurun xaricdə biznesi tapıldı". Bəzən də məmur işdən çıxarılan kimi bunun xaricdə bir sürü şirkəti tapılır. Hər iki halda respublikamız qürur duyur. Şirkət açmasalar, yığdıqları pulları cırsalar nə edərdik? Yenə bunlar yığıb doyublar. Qoy şirkət açsınlar, hamısı bizə qalacaq. Keçən əsrin əvvəlində milyonçu Tağıyev neft pullarıyla Almaniyada bir kafe açmışdı, müdirə də vəsiyyət edib ki, 200 il ərzində hansı azərbaycanlı mühacir bura gəlib alman sosiskası ilə pivə istəsə müftə verərsən. Pulunu ödəyib qabaqcadan! Günü bu gün Almaniyada sığınacaq tapan müxalifətçi mühacirlərimiz o kafedə müftə yeyib-içirlər, Yutubda ölkəmizi tərifləyirlər. Yüz il sonra da bizim nəticələrimiz Qoşqar müəllimin (yemək cangüdənimizin ismi-şərifi belədir, dağ kimi adamdır) xaricdə açdığı hamam xalatı firmasının geyimlərini kontrastlı duşdan sonra geyinib divanda oturanda babalarına - bizlərə rəhmət oxuyacaqlar. Ki, nə yaxşı o zaman imkan vermisiniz, belə adamlar biznes qurubdur. Biz də o zaman rahat olub qəbrimizdə dombalaq aşacağıq.





# "Azərbaycanın hava qüvvələri o qədər güclüdür ki..." - düşməndən acı etiraf

## Erməni hərbi ekspert: "Rusiyadan SU-30SM-in alınması artıq pul itkisidir"; baş nazir Nikol Paşinyanın ordu ilə bağlı 5 illik planı niyə reallaşa bilməz?..

**Ermənistanın 100 milyonluq silah krediti çərçivəsində 2019-cu ilin sonları-2020-ci ilin əvvəllərində Rusiyadan 4 ədəd Su-30SM qırıcısı almaq niyyətində olduğu barədə yazmışıq. "Ümumilikdə 12 belə təyyarənin alışı arzu ediləndir" - düşmən ölkənin müdafiə naziri David Tonoyan bildirib. Lakin bu hərbi maşınların Ermənistana tədarükünün məqsədəuyğunluğu ilə bağlı işğalçı ölkədə birmənalı mövqe yoxdur.**

"Ermənistanın Rusiyadan SU-30SM qırıcıları alması havayı pul xərcidir". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri erməni hərbi ekspert Van Ambarsumyan tert.am portalına açıqlamasında deyib. "Azərbaycanın Hava Hücumundan Müdafiə Sistemi (HHMS) o qədər güclüdür ki, 4 ədəd SU-30SM-in alınması, hesab edirəm ki, artıq pul itkisidir. Bundan əlavə, həmin qırıcılar Rusiyadan bura gəlib çıxanadək artıq köhnələcək", - deyə o xəbərdarlıq edib.

**Erməni hərbi ekspertin sözlərinə görə, Rusiyanın Malayziya və Hindistana satdığı SU-30MK və SU-30MKM qırıcıları İrəvana təklif olunan SU-30SM-lə müqayisədə daha mükəmməldir.** "Hərbi təyyarəçilərin, texniki xidmət personalının hazırlanması da az vaxt aparmayacaq, halbuki Azərbaycan artıq Belarus modifikasiyalı və istismar üçün asan olan 16 qırıcıya malikdir", - deyə o əlavə edib.

*****

Qeyd edək ki, bir ara erməni tərəfi istismarı rusların nəzarətində qalmaq şərtilə Rusiyadan İrəvana verilən bir neçə "İsgəndər M" raket kompleksinə görə az qala eyforiya yaşayırdı. Lakin az sonra Azərbaycanın ondan heç də geri qalmayan və daha modern sayılan Belarus istehsallı "Polonez" sistemlərini almaq barədə Minsklə anlaşması İrəvanda pərtlik qarışıq, narahatlıq yaratdı. Həm də o səbəbdən ki, Bakı HHMS-ni gücləndirmək üçün təkcə Rusiyadan və Belarusdan deyil, qardaş Türkiyə, İsrail və Pakistandan da müasir döyüş sistemləri əldə edir. Elə bu günlərdə Azərbaycanın silahlanmasına Türkiyə istehsalı olan "SOM - 1B" qanadlı raketləri daxil olub ki, bu da düşmən ölkədə təlaşı artırıb. Erməni hərbi ekspertlərin fikirləri bunu təsdiq edir.

Yenə bu günlərdə İsrailin "Aeronautics Defense Systems Ltd." şirkəti Azərbaycanla 13 milyon dollar dəyərində yeni müqavilə imzalayıb. Müqavilə "Orbiter 1K" kamikadze-dronlarının "təmir işlərini" nəzərdə tutur və iki il ərzində yerinə yetirilməlidir. Başqa sözlə, Azərbaycanın hava qüvvələrinin bu il daha modern səviyyəyə qalxması gözlənilir. Bundan əlavə, Azərbaycanın İsraildən "Dəmir günbəz" raketdən müdafiə sistemi ilə bağlı anlaşma əldə etdiyi bildirilir - hansı sistemlərə ki, hətta indi ABŞ da maraq göstərir.

Hərbi ekspertlər isə müasir dövrdə müharibənin taleyinin məhz hərbi hava qüvvələrinin həll etdiyi qənaətindədir. Azərbaycanın bu xüsusda özünün hərbi-hava qüvvələrini durmadan gücləndirməsi, onu yeni-yeni müasir sistemlər və işğalçının qorxulu röyası olan PUA-larla - kamikadze-dronlarla zənginləşdirməsi təbii ki, düşməni təlaşda saxlamaya bilməz. Ermənistan isə belə sistemləri bazar qiymətinə almaq iqtidarında deyil və işğalçı ölkənin yeni rəhbərliyi də Moskvanın əlinə baxmaq zorundadır.

Ancaq Moskva heç kimə ucuz silahı boşuna vermir. Elə ucuz qaz da. Erməni politoloq Vaqe Davtyanın qeyd elədiyi kimi, əgər bu il ərzində Moskva-İrəvan münasibətlərində neqativ tendensiya olmasa, ola bilsin, Ermənistana satılan Rusiya təbii qazının qiyməti bazar qiymətindən aşağı olsun. Yəni siyasi faktor məsələsi...

*****

Populist baş nazir Nikol Paşinyan isə əksər iqtisadçı ekspertlərə görə, öz qarşısına çatılması heç vaxt mümkün olmayan hədəflər qoyub. Onlardan biri də yaxın 5 ildə işğalçı ordunun gücləndirilməsi ilə bağlıdır. "Ermənistan silahlı qüvvələrinin gücləndirilməsi lazımdır və bunun üçün 2,5 milyard dollara ehtiyacımız var". Nikol Paşinyan bunu Nazirlər Kabinetinin toplantısında deyib. Onu da bildirmişdi ki, əlavə maliyyə mənbələri tapmaq üçün ciddi səy göstərmək lazımdır.

"Biz demişdik ki, qarşıdakı 5 il ərzində ordunun inkişafına 2,5 milyard dollar sərf etməliyik" - Paşinyan çıxışında söyləmişdi. O, həmçinin ölkənin hərbi sənayesinin inkişaf etdirilməsinə ehtiyac olduğunu demişdi. Ötən həftə isə Nikol Paşinyan hökumətin proqramını parlamentə təqdim edən zaman bildirdi ki, "Ermənistana iqtisadi inqilab (oxu: iqtisadi möcüzə - "YM") lazımdır". Bu sözlər də hətta ən nikbin erməni iqtisadçı ekspertlərdə istehza doğurdu.

Məntiqlidir. Çünki "halva-halva" deməklə ağız şirin olmur. Ordunu gücləndirmək, onun maddi-texniki bazasını, hərbi təchizatını yaxşılaşdırmaq, yerli hərbi sənaye kompleksini yaratmaq, işğal altındakı torpaqları nəzarətdə saxlamaq üçün böyük vəsait lazımdır. Ordusuna düz-əməlli çağırışçı tapmayan Nikol Paşinyan pulu bəs haradan tapacaq? Ümumiyyətlə, iki əsas qonşu - Azərbaycan və Türkiyə ilə anlaşmadan, blokada vəziyyəti dura-dura, üstəlik, Qarabağla bağlı absurd və həyasız bəyanatlar verə-verə "iqtisadi inqilabi", iqtisadi möcüzəni o, necə təsəvvür edir, görəsən?

Xatırladaq ki, Ermənistanın hərbi büdcəsi ötən illə müqayisədə 17.6 % aşağı düşüb. Bu il onun daha da azalacağı gözlənilir...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

# "Xalqın sosial rifahı naminə..." - iqtisadçı prezidentin qərarlarını şərh etdi

## Fikrət Yusifov: "Azərbaycan iqtisadiyyatının real durumu və maliyyə vəziyyəti dövlətimizə imkan verir ki..."

**2019-cu ilin ilk rübü sosial-iqtisadi islahatlarla yadda qaldı. Hökumət ilin əvvəlindən etibarən sosialyönümlü siyasət yürüdərək, əksər qərarları əhalinin maddi rifahının yüksəldilməsi istiqamətində atmış oldu. Dövlət başçısının şəhid ailələri ilə görüşü, daha sonra şəhid ailələrinə 11 min manat vəsaitin ödənilməsinə başlanması müsbət bir tendensiyanın başlanğıcı oldu.**



Şamaxıda baş verən zəlzələnin ardından prezidenti İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyevanın bu rayona səfəri, sakinlərlə səmimi görüşlər, zərərçəkənlərə yeni evlərin tikilməsi ilə bağlı göstəriş verilməsi də cəmiyyət tərəfindən müsbət qarşılandı. Bunun ardından minimum əməkhaqqı kəskin artaraq, 180 manata qaldırıldı. Pensiyalarla bağlı da oxşar addım atıldı, martın 1-dən əmək pensiyalarının minimum məbləği 160 manata qaldırılacaq.

Bu ay ərzində dövlət başçısının yaddaqalan addımlarından biri də Beyləqan rayonuna səfəri, orada əhali ilə keçirdiyi səmimi görüşlər, bu rayonla bağlı verilən qərarlar oldu. Bundan başqa, prezidentin Sumqayıta gəlişi də isti görüntülərlə yaddaqalan oldu.

**İqtisadçı alim, sabiq maliyyə naziri Fikrət Yusifov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan hökumətinin daxili siyasətinin ana xəttini ölkə vətəndaşlarının sosial həyat səviyyəsinin yüksəldilməsinin təmin olunması təşkil edir:** "Cari ilin ötən bir ay 20 gününə yaxın bir dövründə bu istiqamətdə atılan addımlar bunu bir daha sübut etdi. Biz bir daha gördük ki, "bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun maraqlarıdır, onun rifahıdır" deyən prezident üçün vətəndaşların sosial məsələlərinin həlli bir qayda olaraq ön sırada yer alır. Onun cari ilin başlanğıcından ötən müddət ərzində insanlarımızın sosial problemlərinin həlli ilə bağlı qəbul etdiyi qərarlar Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasının təsdiqidir. Bu gün Azərbaycan iqtisadiyyatının real durumu və ölkənin maliyyə vəziyyəti dövlətimizə imkan verir ki, heç bir çətinlik çəkilmədən insanlarımızın əmək haqlarının və təqaüdlərinin birdən-birə 30-40 faiz artımına getmək mümkün olsun. Və bu addımlar bir-birinin ardınca atılır".

**İqtisadçı alim hesab edir ki, 2019-cu il iqtisadi yüksəliş ili olacaq və bu səbəbdən də dövlət başçısı builki əmək haqqı və təqaüdlərin artımlarının iqtisadi yüksəlişin reallıqlarına uyğun bir səviyyədə olmasını istədi:** "Minimal əmək haqqının birdən-birə 38,5 faiz - yəni 50 manat artımına getmək bu məsələdə prezident qətiyyətinin ifadəsi idi. Bu fərmanla Azərbaycanda minimum əmək haqqının məbləği 2019-cu il martın 1-dən 130 manatdan 180 manata çatdırılır. Beləliklə, ölkəmizdə minimum əmək haqqının yaşayış minimumunun səviyyəsinə çatdırılması təmin olunacaq. Minimum əmək haqqının artımı birbaşa olaraq 600 minədək insanı əhatə edəcək. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əmək haqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əmək haqqında isə 25 faiz artım baş verəcək. Minimum əmək haqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu ilin qalan 10 ayı üzrə isə 335 milyon manata qədər əlavə vəsait yönəldiləcək. Bu mühüm sosial əhəmiyyətli tədbir, eyni zamanda əmək münasibətlərinin leqallaşdırılması istiqamətində istədiyimiz nəticələrin əldə olunmasına imkan verəcək. Minimum əmək haqqının 180 manat səviyyəsində müəyyən olunması o deməkdir ki, mülkiyyət formasından asılı olmayaraq heç bir müəssisə onda çalışan işçilərə bundan az əmək haqqı verə bilməz. Əmək qanunvericiliyinə əsasən, əmək haqqı - müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənişlərin məcmudur. İşçilərin əmək haqqı məbləğinin hər hansı şəkildə azaldılması və onlara dövlətin müəyyən etdiyi minimum əmək haqqı miqdarından az əmək haqqı verilməsi qanunla qadağandır".

**Fikrət Yusifov Sosial Tədqiqatlar Mərkəzinin yaradılmasını da yüksək qiymətləndirdi:** "Əhalinin sosial məsələlərinin həllində prezidentin göstərdiyi qayğının yeni bir dalğası onun sərəncamı ilə bu günlərdə Sosial Tədqiqatlar Mərkəzinin yaradılması oldu. Mərkəzin yaradılmasında məqsəd - ictimai əhəmiyyətli məsələlərin araşdırılması və ictimai rəyin öyrənilməsi üçün əlavə vasitə yaratmaq, bu sahədə təhlil, tədqiqat və proqnozlaşdırma işinin səmərəliliyini artırmaq, sosial tədqiqatlarda müasir informasiya texnologiyalarından və qabaqcıl elmi-metodoloji yanaşmalardan istifadəni genişləndirməkdən ibarətdir. Bir sözlə, yeni yaradılan mərkəz ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə, ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən bir qurum olacaq. Bu qurum həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini aidiyyəti dövlət orqanlarına təqdim edəcək. Bu, ölkə başçısının vətəndaşlarımızın sosial problemlərinin vaxtında aşkar olunması və onların operativ həlli istiqamətində atdığı çox önəmli bir addımdır. İnsanlarımızın sosial durumunun yaxşılaşdırılması istiqamətində atılan növbəti addım prezidentin fevral ayının 14-də ölkənin ali məktəblərində təhsil alan tələbələrin təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı imzaladığı sərəncamla atıldı. Bu sərəncamla ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu il martın 1-dən 16000 vahid artırılacaq və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılması nəzərdə tutulur".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Bir zamanlar belə bir şərt vardı: "Ya İbrahimbəyov, ya İbrahimbəyov"...



**Xalid KAZIMLI**

**Rüstəm İbrahimbəyov dünyanın ən görkəmli, ən məşhur azərbaycanlılarından biridir.**

Dünyanın ən istedadlı, ən yaradıcı azərbaycanlılarından biri də Rüstəm İbrahimbəyovdur.

Bunlarla yanaşı, o, ölkəmizin tarixində ən uğursuz siyasət adamlarından biri kimi qalacaq.

Çünki üstündən 6 il keçsə də, Rüstəm müəllimin 2013-cü ildə ölkənin siyasi arenasında oynadığı rol, tutduğu mövqe hələ də unudulmayıb.

O zamanlar İbrahimbəyovun prezident seçkilərində vahid namizəd olması ideyasına iki yöndən tənqid səslənirdi.

Ana müxalifət partiyası Müsavat da bu ideyaya qarşıydı, təbii ki, iqtidar düşərgəsi də.

Müsavatın motivi bu idi ki, Milli Şura adlı müxalifət blokunda birləşmiş bəzi qüvvələr İbrahimbəyovu prezidentliyə iddialı İsa Qəmbərin önünə keçirmək istəyirdilər və partiya üzvləri bunu yanlış sayırdı.

İqtidar düşərgəsi isə müxalifətin vahid namizədinin məşhur adam olmasından və bu məşhur adamın Rusiyanın siyasi və mədəni dairələrində yaxşı tanındığı üzündən əndişəliydi.

İbrahimbəyovu İsa Qəmbərdən önə keçirmək istəyənlərin iki hədəfi vardı - həm uzun illərdir həzm edə bilmədikləri Müsavat liderini oyundankənar vəziyyətə salırdılar, həm də Rusiyanın dəstəyindən yararlanaraq hakimiyyəti götürəcəklərinə inanırdılar.

Bu təməl ideya kimə məxsus idi, bu günə qədər də dəqiq, birmənalı bilgi yoxdur.

Bəzən deyirlər ki, İbrahimbəyovun müxalifətin namizədi olaraq önə çıxarılması hakimiyyətin öz planı olub. Buna inananlar da var, şübhə edənlər də.

"Oskarlı kinorejissor"un siyasi arenaya itələnməsi ideyasının Kremlə məxsus olduğunu iddia edənlər də çoxdur.

Nəhayət, müxalifətin bir hissəsinin vahid namizəd axtarışları zamanı məhz partiyasız İbrahimbəyovun üzərində dayandığı bildirilir.

Onun komandasız olması və öz ad-sanından, əlaqələrindən, gücündən yararlanaraq hakimiyyətə gələcəyi təqdirdə iqtidar komandasının nüvəsini Milli Şura liderlərinin təşkil edəcəyi şübhəsiz idi.

2013-də bu avantüra qismən baş tutdu. İbrahimbəyov vahid namizəd oldu. İsa Qəmbər müxalifətin birliyi naminə geri çəkildi. Bu işdə aramsız şəkildə hücum edən müxalifət (Milli Şuranın bir qanadının) trolları da öz şantajlarıyla ona "kömək etdilər".

Ancaq qısa bir müddətdən sonra aşkarlandı ki, Rüstəm müəllim prezidentliyə namizəd ola bilməz, çünki Rusiya vətəndaşıdır. Sonra onun barəsində cinayət işı açıldı və onun ölkəyə qayıda bilməyəcəyi, daha dəqiqi, qayıtmaq fikrində olmadığı bilindi.

Əslində bu səbəbdən onun ölkəyə qayıtmamaq istəməməsini anlamaq çətin deyildi. 74 yaşlı ahıl və ömrü boyu komfort içində yaşamış adamın gəlib həbsxanada məhrumiyyətlər içində qalması çətin olardı. Amma gərək o və silahdaşları siyasətin içində bu kimi döngələrin olduğunu öncədən biləydilər.

Beləcə, müxalifət başqa bir vahid namizəd axtarmağa məcbur oldu və bu, tezliklə tapıldı - Cəmil Həsənli. İnsafən, Cəmil Həsənli prezidentliyə namizədliyi qeydə alınmış başqa siyasətçilərdən daha güclü alternativ olduğunu sübut etdi, Müsavat və AXCP-nin gücü ilə yaxşı kampaniya apardı.

İbrahimbəyovun prezident yarışından çəkilməsi isə ona münasibəti dəyişdirmədi. Sadəcə, ona ümid bəsləyib umsuq olanların hiddəti, ondan çəkinib əndişələnənlərin qəzəbini üstələdi.

Dünənə qədər iqtidar düşərgəsində ona münasibət birmənalı olaraq pis idi. Hətta iqtidar təbliğatçıları bu gün də onu yamanlayır, 2013-cü ildə prezidentliyə namizəd olmasını xəyanət adlandırırlar.

Ancaq bu, əlbəttə ki, xəyanət deyildi. Kiminsə seçkili posta seçilmək istəməsi xəyanət deyil, konstitusion hüquqdur. Hamı kimi vəteninin, millətinin gələcəyindən narahat olan İbrahimbəyovun da belə bir hüququ vardı.

Fəqət o, heç bir səriştəsi, komandası olmadan bir oyuna qoşulmuş və sonadək davam edə bilməmişdi.

İndi 6 ildən sonra onun ölkəyə qayıtması barədə çoxlu söz-söhbətlər gedir. Vaxtilə "ya İbrahimbəyov, ya İbrahimbəyov" deyə başqalarının başını yaranlar indi ona dair tənqidi fikirlər səsləndirirlər.

Bu, artıq tarixdə qalmış məsələdir. 2013-dən sonra 2018-ci ildə daha bir prezident seçkiləri keçirilib. İbrahimbəyova qarşı olanların bir çoxunun hiddəti azalıb, yox olub.

İndi o, 80 yaşlı qoca və hörmətli adamdır və dünyanın ən istedadlı, ən məşhur azərbaycanlılarından biridir.

Böyük və işıqlı sənətkarlar çirkin siyasi oyunlara qarışmayanda daha böyük görünür və sevilirlər.

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

**Fevralın 19-da Milli Məclisin növbəti plenar iclası Oqtay Əsədovun sədrliyi ilə keçirildi. İlk olaraq Milli Məclisin Gənclər və idman komitəsinin tərkibində dəyişiklik edilməsi haqqında qanun layihəsi təsdiqləndi.**



# Milli Məclisdə bank faizləri və depozit müzakirəsi

## Deputat banklarda vətəndaşlara verilən kreditlərin faiz dərəcələrindən gileyləndi; Milli Məclisin plenar iclasında dövlət başçısının son addımları yüksək qiymətləndirildi

Dəyişikliyə əsasən, Milli Məclisin deputatları Adil Əliyev və Rauf Əliyev parlamentin Gənclər və idman komitəsinin üzvlüyündən çıxarıldı. 3 deputat - Rəşad Mahmudov, Elşən Musayev və Cavid Osmanov isə komitəyə yeni üzvlər seçildi.

"Kitabxana işi haqqında" qanun layihəsi haqqında - III oxunuşda - Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov məlumat verdi və dəyişiklik təsdiqləndi.

"Azərbaycan Respublikasının Dövlət Gerbinin istifadə qaydası haqqında" və "Azərbaycan Respublikasının Dövlət Himninin istifadə qaydası haqqında" qanun layihələri barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseyni məlumat verdi. "Qərara aldıq ki, "dövlət himni oxunduqda fərağat vəziyyətdə dinlənilməsi və oxunması" sözləri əlavə olunsun" - komitə sədri bildirdi. Həmçinin beynəlxalq təcrübədə himnin oxunması zamanı əl qoyuluşu ilə bağlı xüsusi qaydanın olmadığını deyən komitə sədri bildirdi ki, burada ənənələr var. Yəni kim istəsə, əlini ürəyinin üstünə qoyub oxuya bilər. Dövlət himninin oxunması zamanı əcnəbilərin fərağat vəziyyətdə himni dinləməsi tələbi də qanunda əksini tapır.

**"Milli Məclisin komitələri haqqında" Qanuna təklif edilən dəyişiklik də təsdiqləndi. "Əmanətlərin tam sığortalanması haqqında" Qanuna dəyişikliklə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə layihə barədə məlumat verdi. Z.Səmədzadə bildirdi ki, qanuna edilən düzəliş bank sektorunun dəstəklənməsinə, əhalinin banklara depozit qoymasının stimullaşdırılmasına xidmət edəcək:** "Bu, əhalinin banklara inamını artıracaq. Bütövlükdə bu qanun layihəsi cəmiyyət tərəfindən çox yüksək səviyyədə qarşılanıb".

**"Əmək pensiyaları haqqında" Qanuna dəyişiklik haqda isə Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli məlumat verdi. Komitə rəhbəri prezidentin bu istiqamətdə atdığı addımları yüksək qiymətləndirdi:** "Azərbaycanda pensiyanın minimum həcmi 116 manat idi. Hətta 80 manatdan da aşağı müavinət alan insanlar var idi. "Əmək pensiyaları haqqında" Qanuna dəyişikliklə 233 min nəfərin pensiyasında hiss olunacaq dəyişikliyə gətirib çıxaracaq". H.Rəcəbli bildirdi ki, bu dəyişikliklərdən sonra 9 min insanın pensiyası iki dəfə, 26 min nəfərin pensiyası 30 faiz artacaq: "Bütövlükdə isə böyük bir qrup pensiyaçıların pensiyası 38.5 faiz civarında artır. Bunun üçün bu il 41 milyon manat, gələn il 49 milyon manat vəsait nəzərdə tutulur. Prezident Sumqayıt sakinləri ilə görüşdə də dedi ki, bu islahatlar, bu addımlar son deyil, davam edəcək".

**Deputat Fazil Mustafa prezidentin addımlarının cəmiyyətdə yüksək səviyyədə qarşılandığını dedi. Həmçinin prezidentin iştirakı ilə Sumqayıtda açılış mərasimi keçirilən zavoddan bəhs edərək bildirdi ki, dövlət başçısı yeni iş yerlərinin də açılması istiqamətində ciddi addımlar atır.** "Ancaq Azərbaycanda hansısa əllər bu işlərin görülməsinə mane olur" - deyən F.Mustafa bildirdi ki, Azərbaycanda ən ciddi problemlərdən biri inhisarçılıqla bağlıdır: "Ölkədə rəqabət mühiti yaratmaq lazımdır ki, təşəbbüskar insanlar pul qazana bilsinlər. Xarici investorların ölkəyə gəlməsinə şərait yaratmaq lazımdır. Xarici investorlar niyə Gürcüstana vəsait qoyurlar? Çünki orada məhkəmə islahatları həyata keçirildi, sahibkarların fəaliyyətinə müdaxiləyə son qoyuldu. İlk öncə maneələri ortadan qaldırmaq lazımdır. Biz əvvəlcə yolu açmalıyıq. Vaxtilə bizdən də sabit ölkələr var idi, kiçik problemləri həll edə bilmədiyi üçün böyük təlatümlər yaşadılar. Şükür Allaha ki, Azərbaycan sabit ölkədir. Amma ölkədəki narazı insanlardan məkrli niyyətləri üçün istifadə etmək istəyən qüvvələr var". F.Mustafa təcili şəkildə Rəqabət Məcəlləsini qəbul etməyə çağırdı.

**Komitə sədri Siyavuş Novruzov da prezidentin fəaliyyətindən bəhs etdi. O, dövlət başçısının addımlarını öz adına çıxmağa çalışan müxalif qüvvələrdən də danışdı. Bildirdi ki, müxalifət prezidentin xalqın rifahı naminə atdığı addımlar keçirdikləri mitinqin nəticəsi sayırlar:** "Onlar xalqı aldatmaq, xalqdan istifadə etmək üçün belə adımlar atırlar. Bu artımlar göydən gəlmir ki. Bunlar hələ dövlət büdcəsi qəbul olunanda məlum idi. Ötən ilin noyabrında biz dövlət büdcəsini təsdiq etmişdik və bu artımlar da o zaman nəzərdə tutulmuşdu. Milli Məclis qanun qəbul edib və prezident də təsdiqləyib. Bunlar isə yanvar ayında mitinq keçiriblər. Görün nə qədər ucuz formada, düşüncəsiz tərzdə insanları yoldan çıxartmaq istəyirlər. Artıq ölkə başçısının atdığı hər bir addımı öz adlarına çıxırlar". S.Novruzov o qüvvələrin məkrli məqsəd güddüyünü dedi: "O adamlar istəyir ki, bu kimi işlər həyata keçməsin. Hansısa şəxslərin həbsdən azad olunması belə, bu şəxslərə sərf eləmir. Bu adamlar məkrli niyyətləri ilə özlərini tarixin arxivinə göndərəcəklər".

**Deputat Səttar Mehbalıyev də müxalif qüvvələrin iddialarını cavablandırdı:** "Bəzi müxalifət nümayəndələri prezident İlham Əliyevin gördüyü işlərə kölgə salmağa cəhd edirlər. Onlar sosial şəbəkələrdə təhqirlər səsləndirirlər, ölkə başçısından tutmuş bütün məmurları təhqir edirlər. Bu insanlar Azərbaycan xalqının nümayəndəsi ola bilməz. Düşünmürəm ki, azərbaycanlı olan şəxs digər azərbaycanlı haqqında belə fikirlər səsləndirsin. Həmin söyüşlər, təhqirlər onların özlərinə və ailələrinə aiddir".

**Deputat Çingiz Qənizadə əmanətlərin bir illiyinə, tam sığortalanmasından bəhs etdi:** "10 milyonluq Azərbaycan əhalisinin 7 milyonunu əhatə edəcək bir qərarın verilməsi təbii ki, alqışlanmalıdır. Təkcə əmanətçilərin deyil, həm də bankların maraqlarına uyğun bir qərarın verilməsi yüksək qiymətləndirilməlidir". **Ç.Qənizadə ardınca banklara da çağırış etdi:** "Banklarda vətəndaşlara veriləcək kreditlərin faiz dərəcələrinə də nəzər salınmalıdır. Çünki kreditlərin qaytarılmasında çətinliklər var. Çox arzu edirəm ki, yaxın zamanlarda vətəndaşlara veriləcək kreditlərin faiz dərəcələri xeyli aşağı salınsın".

**Deputat dedi ki, islahatlarla bağlı ciddi addımlar atılır. Xatırlatdı ki, təkcə gömrük islahatları nəticəsində dövlət büdcəsinə 1,2 milyard əlavə vəsait daxil edilib. Deputat həmçinin Qida Təhlükəsizliyi Agentliyinin yaradılmasını da təqdir etdi və fəaliyyətini yüksək qiymətləndirdi:** "Bəzi müxalifyönlü qüvvələr ölkədə aparılan işlərə kölgə salmağa çalışırlar. Müxalifyönlü insanların aktivləşməsi ilə bağlı fikirlərə mən də qoşuluram. Görünür, Qərbdən bəzi şəxslərin cibləri açılır, bundan da ilhamlanan insanlar ölkədəki sabitliyi başqa cür yozmaq istəyirlər. Son dövrlər ölkə prezidentinin tapşırığı ilə müxtəlif qurumlarda islahatlar həyata keçirilib. Qida Təhlükəsizliyi Agentliyinin gördüyü işlər əhalini keyfiyyətsiz məhsullardan qoruyur. Bu islahatlar yalnız müxalif qüvvələri deyil, mafioz qüvvələri də narahat edir. Son günlər Qida Təhlükəsizliyi Agentliyi və onun sədri Qoşqar Təhməzli ilə bağlı yazılan yazıları araşdırsaq, görərik ki, bunun arxasında "leş mafiyası" dayanır. Həmin mafiya uzun illər yararsız və keyfiyyətsiz məhsulları vətəndaşlarımıza sırımaqla məşğul olub".

İclasda "Gənclər siyasəti haqqında" qanun layihəsi II oxunuşda müzakirə olundu. Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev qanun layihəsi barədə məlumat verdi. Komitə rəhbəri dedi ki, əgər əvvəlki layihədə 18 yaşına çatmayan vətəndaşlara tütün məmulatları ilə yanaşı, alkoqollu içkilərin satılması qadağan edilirdisə, son dəyişikliklərdə daha sərt əlavələr edilib. Belə ki, 18 yaşına çatmamış şəxslərə bütün növ energetik içkilərin satılması qadağan edilir.

Deputat Fazil Mustafa qanun layihəsində gənclik yaşı ilə bağlı müddəaya maraqlı münasibət bildirdi. "Onda belə çıxır ki, bu qanun özünü gənc hesab edən hər kəsin üzünə açıqdır" - deyə, o soruşdu. Həmçinin gənclərin potensialının üzə çıxarılmasına çalışmağı zəruri saydı. Dedi ki, ölkədə pulsuz hovuz tapmaq mümkün deyil, ona görə də hər il dənizdə batanlarımızın sayı başqa ölkələrlə müqayisədə çox olur.

**"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna dəyişikliklər zamanı da söz alan deputat Fazil Mustafa vəkil olmaq istəyən şəxslərin qarşısında əlavə baryerlərin qoyulmasından narahatlığını ifadə etdi və şərtlərin daha da asanlaşdırılması təklifini səsləndirdi. Dedi ki, vəkillərdən məmur düzəltməyə ehtiyac yoxdur:** "Vəkilliklə bağlı fəaliyyətin bu qədər çətinləşdirilməsinə, mürəkkəbləşdirilməsinə nə lüzum var? Onlardan məmur düzəltməyə ehtiyac yoxdur. Vəkildən məmur obrazı yaratmağın nə mənası var ki? Onların nüfuzunu qaldırmaq üçün məhkəmə islahatı keçirmək lazımdır. Bu gün məhkəmədə vəkil heç kimdir. Yəni heç bir işi vəkil öz ağlı ilə udmaq imkanına sahib deyil. Məhkəmələrdə hakimin, dövlət ittihamçısının iradəsindən kənar nəsə edə bilmirlər".

**Spiker Oqtay Əsədov deputatın fikirlərinə reaksiya verdi:** "Fazil müəllim, mən sizinlə razı deyiləm. Vəkil kimdir? Onlar dövlətin vətəndaşıdır. Vəkilin savadı olmasın, amma müştərisi bol olsun? Nəyə görə savadı olmamalıdır? Zəhmət çəkib hazırlaşsın və növbəti il təkrar sənəd versin. Biz savadlı vəkil korpusunun formalaşmasında maraqlıyıq".

İclasda "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919 - 2019)" medalının təsis olunması barədə layihə də qəbul olundu.

**Deputat Qüdrət Həsənquliyev isə söz alaraq hüquq müdafiəçilərinin daxili işlər naziri Ramil Usubovla keçirdiyi görüşə diqqət çəkdi. Bildirdi ki, Monitorinq Qrupunun üç üzvü - Novella Cəfəroğlu, Səidə Qocamanlı və Səadət Bənəniyarlı nazirə vaxtilə bir qrup ağır cinayət törədib həbs olunan şəxslərin əfvi ilə bağlı müraciət ediblər.**

"Onlar cənab prezidentə də müraciət ediblər. Artıq Əfv Komissiyasının iclasları keçirilir. Ümid var ki, cənab prezident mart ayında belə bir əfv sərəncamı imzalayacaq. Mən də hüquq müdafiəçilərinin müraciətlərinə qoşuluram. Bu insanlar öz obyektivlikləri, sağlam mövqeləri ilə cəmiyyətin rəğbətini qazanmış insanlardır. Onlar beynəlxalq təşkilatların haqlı olub-olmamalarından asılı olmayaraq, bir qrup insanların həbsdən azad olunması təşəbbüsü ilə çıxış ediblər. Həm yerli hüquq müdafiəçilərinin, həm beynəlxalq hüquq müdafiə təşkilatlarının təkliflərini nəzərə alaq, biz də onların təşəbbüsünə qoşulaq. Cənab prezidentdən xahiş edək ki, dövlət və vətəndaş əleyhinə, yəni şəxsiyyət əleyhinə, ağır və xüsusilə ağır cinayət törətmiş şəxslər istisna olmaqla, digər şəxslər - hansı ki, hüquq müdafiəçiləri siyahını təqdim edib, onların da böyük bir qismi təyin olunmuş cəzanın əhəmiyyətli hissəsini çəkib - onları əfv eləsin".

**"Telekommunikasiya haqqında" Qanuna dəyişikliklərin müzakirəsində çıxış edən deputat Əflatun Amaşov çox maraqlı fikirlər söylədi:** "Əgər Londondasansa, sənə Bakıdan gələn zəng başqa ölkədən keçib gəlir. Telefonun ekranında Azərbaycan əvəzinə Rusiya yazılır. Bakıda da eləmdir. Tutaq ki, Rusiyadan sənə zəng olunur, telefonda başqa nömrə, başqa ölkə görünür. Görünür, kimlərsə bu yolla külli miqdarda vəsait əldə edirlər". **Ə.Amaşov bildirdi ki, bununla bağlı qanunvericiliyə edilən dəyişiklik vacibdir. Deputat ölkəmizin suverenliyinə digər təhdidlərdən də bəhs etdi:** "Söhbət telekommunikasiyadan gedirsə, bir məsələni xüsusi qeyd etmək istərdim. Bakıdan çıxıb Hacıqabula çatanda İran radiolarının dalğaları bizim radioları üstələyir, hətta udur. Ağsu dolaylarında erməni radio dalğaları eşidilir, Gəncədən sonra gürcü radio dalğaları hakimdir. Hər bir ölkənin quru sərhədi olduğu kimi informasiya məkanlarının da sərhədləri var. Ölkəmizin gələcəyi naminə hər iki sərhədimizi qorumalıyıq. Hesab edirəm ki, bununla bağlı müvafiq qurumlar qarşısında məsələ qaldırmalıyıq".

Yekunda "Ümumi təhsil haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldı. Layihə haqda Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli məlumat verdi.

Müzakirələrdən sonra layihə ikinci oxunuşda qəbul edildi.

**❑ Elşad PAŞASOY, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**





# Münhen konfransından Qarabağla bağlı çıxarılan əsas dərs

## Uzunmüddətli atəşkəs yalnız müharibəyə işləyir; **politoloq:** "Rusiya yenə Ermənistanı ələ keçirməklə danışıqlar prosesinə tam nəzarət edir..."

**Qarabağa dair danışıqlarda yenidən qeyri-müəyyənlik dönəmi başlayır. Bu da Azərbaycan və Ermənistanın xarici işlər nazirləri - Elmar Məmmədyarov və Zoqrab Mnatsakanyan arasında Münhen Təhlükəsizlik Konfransı çərçivəsində baş tutacağı öncədən anons edilmiş görüşün reallaşmamasından qaynaqlanır.**





Belə bir görüşü həm Z.Mnatsakanyan, həm də ardınca E.Məmmədyarov istisna etməmişdilər. Fevralın 15-də Məmmədyarov Rusiya mediasına açıqlamasında erməni həmkarı ilə ayaqüstü də olsa, mütləq görüşəcəyini bildirmişdi. Lakin heç ayaqüstü təmas da baş tutmadı. İki ölkənin XİN başçıları arasında ötən ilin dekabrında və bu ilin yanvarında keçirilmiş çox saatlıq görüşlərin davamı gəlmədi. Həmin görüşlərin nəticəsi olaraq, "xalqları sülhə hazırlamağın zəruriliyi" barədə ilkin anlaşma əldə edildiyi, paralel surətdə iki ölkə liderlərinin ilk rəsmi görüşünün hazırlanacağı deyilirdi.

O da maraqlıdır ki, Mnatsakanyan Münhendə Qarabağ problemini Rusiya XİN rəhbəri Sergey Lavrovla müzakirə etsə də, analoji görüş Lavrovla Məmmədyarov arasında keçirilmədi. Rusiya xarici işlər naziri buna lüzum görmədi. Yəni məhz Mnatsakanyan-Lavrov söhbətindən sonra Mnatsakanyan-Məmmədyarov görüşünün reallaşmaması suallar yaratdı.

Azərbaycan XİN artıq Məmmədyarov-Mnatsakanyan görüşünün baş tutmamasının səbəblərinə qısaca münasibət bildirib. XİN sözçüsü Leyla Abdullayeva deyib ki, Azərbaycan nəticəyə yönəlik danışıqlara hər zaman hazırdır.

Sitat: "Tərəfimizdən hər zaman və hər yerdə bəyan edilir ki, Azərbaycan nəticəyə yönəlik - ərazilərimizin işğaldan azad olunması, məcburi köçkünlərin öz torpaqlarına geri qayıtması ilə bağlı bütün danışıqlara hazırdır. 55-ci Münhen Təhlükəsizlik Konfransı çərçivəsində belə bir görüş imkanı olsaydı, tərəfimizdən mütləq dəyərləndirilərdi".

*****

**Siyasi müşahidəçilər isə sülh prosesindəki belə bir qəfil durğunluğu ilk növbədə Rusiya amilinə bağlayırlar. Məsələn, keçmiş dövlət müşaviri, politoloq Qabil Hüseynli teleqraf.com-a açıqlamasında öncə bildirib ki, postsovet məkanındakı regional münaqişələrə Münhen Təhlükəsizlik Konfransının gündəliyində yer verilməməsi bu konfransın ciddi nöqsanlarından biridir:** "Təşkilatçılar hər dəfə bunu onunla əsaslandırırlar ki, gündəliyə daha qlobal məsələləri salıblar. Amma keçmiş sovet məkanındakı münaqişələri, xüsusən də Qarabağ məsələsini bu konfransın gündəliyinə salmaqla beynəlxalq təhlükəsizliyə töhfə vermək olar. Amma nədənsə bu dəfə də bu məsələyə diqqət ayırmadılar".

**Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında keçirilməsi nəzərdə tutulan görüşün baş tutmamasına gəlincə, ekspert bunu ən əvvəl ictimai rəyə hörmətsizlik kimi qiymətləndirib.** "Yəni Rusiya Qarabağla bağlı "Bolton planı"nın işə düşməsinə qısqanclıqla yanaşdı. Rusiya yenidən Ermənistan tərəfini öz nəzarətinə götürdü. Bir müddət əvvəl Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin İrəvana gəldi və Ermənistan rəhbərliyi ilə danışıqlar apardı. O, bu görüşlərdən sonra iddia etdi ki, ABŞ-ın gündəmə gətirmək istədiyi nizamlama prosesi nəticələrə hesablanmayıb. Rusiya bununla onu bildirdi ki, danışıqlar prosesini öz nəzarəti altına götürür. Hər halda, Karasinin səfərindən sonra gözlənilirdi ki, bu prosesdə Rusiyanın fəallığı daha çox nəzərə çarpacaq. Rusiya yenə də Ermənistanı ələ keçirməklə danışıqlar prosesinə tam nəzarət edir", - deyə o qeyd edib.

**Sözünə davam edən politoloq deyir ki, bu baxımdan Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü gözlənilirdi:** "Rus mediasının yazdığına görə, bu görüşün təşkilatçısı Sergey Lavrov olacaqdı. Amma Münhen konfransı başlayan kimi mətbuata məlumat sızdırıldı ki, nazirlər Azərbaycan və Ermənistan liderlərinin görüşünə hazırlaşırlar və bu görüş ABŞ-da keçiriləcək. Zənnimcə, bu, təxribat xarakterli məlumat idi. Ona görə ki, bu, nə Azərbaycan, nə də Ermənistan tərəfindən rəsmi qaydada bəyan edilmədi. Ardınca isə nazirlərin nəzərdə tutulan görüşü də baş tutmadı".

**Qabil Hüseynli də nazirlərin görüşünün keçirilməsinə Rusiyanın əngəl olduğuna əmindir:** "Zöhrab Mnatsakanyan isə görüş haqda onu dedi ki, "Elmar Məmmədyarovla heç bir problemi yoxdur, istədiyi vaxt onunla salamlaşır". Hesab edirəm ki, bu, Dağlıq Qarabağ münaqişəsinə qeyri-ciddi yanaşmadır və etik davranış deyil. Bu da onu göstərir ki, Rusiya vasitəçi kimi bu görüşün baş tutması üçün enerji sərf etməyib, yaxud bunu istəmədi. Nəticədə danışıqlar prosesi yenidən dalana dirəndi. Bir daha aydın oldu ki, Qarabağ məsələsinə dırnaqarası baxan dünya dövlətləri var və onlar bu münaqişələrin həllsiz qalmasında maraqlıdırlar".

*****

Lakin konfliktin illərlə həll olunmadan qalması müharibə riskinin də qalması deməkdir. Şübhə yox ki, Münhen görüşünün baş tutmaması bu riski artıracaq. Doğrudur, hələ ki Azərbaycanın öz ərazilərini işğaldan azad eləməkdən ötrü genişmiqyaslı hərbi əməliyyatlara başlaması üçün bütün zəruri geosiyasi şərtlər mövcud deyil. Xüsusən də Rusiya faktorunu qeyd eləmək lazım gəlir.

Ancaq situasiya qəfil dəyişə də bilər. Hər halda, "fors-major vəziyyəti" deyilən vəziyyətin yaranması istisna deyil. Başqa sözlə, hərbi toqquşmanın qəfildən baş verə biləcəyi ehtimalı qalır. Çünki atəşkəs "nə hərb, nə də sülh" rejimidir. O, on illər ərzində böyük sülh sazişi ilə yekunlaşmırsa, demək, yeni müharibə qaçılmaz ola bilər. Belə bir deyim də var ki, uzunmüddətli atəşkəs yalnız müharibəyə işləyir.

Vasitəçi güclər regionda böyük müharibənin alovlanmasını istəmirsə, o zaman bunu ciddiyə almalı və tələsməlidir. Xüsusən də söhbət konfliktin həlli üçün real rıçaqa malik Rusiyadan gedir. Münhen konfransından Dağlıq Qarabağla bağlı verilən əsas mesaj, çıxarılan əsas dərs də budur ki, sülhü istəməyənlər gec-tez savaşı qazanacaqlar - onun bütün proqnozlaşdırılan və proqnoz edilməyən nəticələri ilə birgə...



# Fevralın 26-da ilk dərslər Xocalı soyqırımına həsr olunacaq

**"Təhsil müəssisələrində Xocalı soyqırımının 27-ci ildönümünün keçirilməsi barədə" Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əmri imzalanıb. İdarədən verilən məlumata görə, müvafiq əmrlə təsdiqlənmiş tədbirlər planında ümumi təhsil müəssisələri və uşaq-gənclər inkişaf mərkəzlərində fevralın 26-sı ilk dərslər Xocalı soyqırımına həsr ediləcək. Həmçinin "Xocalıya gedən yol" mövzusunda mühazirə, toplantı, "dəyirmi masa" və konfransların təşkili nəzərdə tutulur.**

Bundan əlavə, "Xocalı faciəsi uşaq yaradıcılığında" mövzusunda bədii qiraət gecələri, məktəblilərin esse və inşa yazılarının təqdimatı, əl işlərindən ibarət sərgilər təşkil olunacaq. "Xocalı harayı" mövzusunda ədəbi-bədii kompozisiyalar təşkil olunacaq, sənədli və bədii filmlər nümayiş ediləcək. Xocalı soyqırımından bəhs edən divar qəzetləri, bülleten, fotostendlər və guşələr hazırlanacaq.

Təhsil müəssisələrinin internet resurslarına Xocalı soyqırımını əks etdirən materiallar yerləşdiriləcək, keçirilən tədbirlər kütləvi informasiya vasitələri və televiziya kanallarında işıqlandırılacaq. Eyni zamanda təhsil müəssisələrinin müəllim və şagird kollektivi soyqırım şahidləri ilə görüşəcək, "Ana fəryadı" abidəsini ziyarət edəcəklər.

Qeyd olunan tədbirlərin keçirilməsi ölkəmizin müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş vətən övladlarını yad etmək, böyüməkdə olan nəslə Vətənə sevgi, məhəbbət hissləri aşılamaq, məktəblilər arasında milli vətənpərvərlik ruhunu yüksəltmək və Xocalı soyqırımı haqqında həqiqətləri çatdırmaq məqsədlərinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# “Kölgə iqtisadiyyatı”na qarşı mübarizə: “Ya biznesi seç, ya da vəzifəni...”

## “Kölgə iqtisadiyyatı”nın azaldılması istiqamətində atılan addımlar real nəticələrə nail olmağa imkan verəcəkmi?



**Azərbaycanda “kölgə iqtisadiyyatı”nın azaldılması üçün ciddi tədbirlər həyata keçirilir. Bu barədə fevralın 18-də keçirilən konfransda həm vergilər naziri, həm də Dövlət Gömrük Komitəsinin sədri məlumat verib.**

**Nazir Mikayıl Cabbarov** bildirib ki, 2019-cu ildə vergi sahəsində keçirilən işlərin prioritetləri əvvəlki kimi qalır: “Əsas məqsədlər ”kölgə iqtisadiyyatı" ilə mübarizədir. Vergi sistemində islahatların aparılması zamanı Vergilər Nazirliyinin qarşısında iki mühüm ssenari var idi. Birincisi, vergi yükünün artırılması yolu ilə gedərək daxilolmaları artırmaq, ikincisi isə vergi yükünü azaltmaqla kölgəyə çəkilmiş bütün biznes strukturlarını, vergi ödəyicilərini geniş və bərabərhüquqlu vergi ödəməyə cəlb etmək idi. Azərbaycan hökuməti ikinci yolu seçdi".

**M.Cabbarov konkret rəqəmlər də səsləndirib:** “Sizə bəzi rəqəmləri demək istəyirəm. Bu rəqəm həmin məsələlərlə bağlı müəyyən fikir yaradacaq. 2018-ci ildə aparılan vergi nəzarəti tədbirləri nəticəsində iri topdansatış obyektlərində 930 milyon manat, market şəbəkələrində 122 milyon manat, özəl tibb müəssisələrində isə 230 milyon manat vəsaitin vergidən gizlədilməsi aşkar edilib”.

DGK sədri Səfər Mehdiyevin verdiyi məlumata görə isə sadəcə, malların və nəqliyyat vasitələrinin düzgün qiymətləndirilməsi və bəyan edilməsi, “kölgə iqtisadiyyatı”nın aradan qaldırılması ilə bağlı köklü islahatların həyata keçirilməsi nəticəsində 1 milyard manatdan artıq vəsaitin dövlət büdcəsinə köçürülməsi təmin olunub.

“Kölgə iqtisadiyyatı”nın azaldılması istiqamətində atılan addımlar real nəticələrə nail olmağa imkan verəcəkmi? Daha hansı tədbirlər həyata keçirilməlidir ki, kölgə iqtisadiyyatının həcmi kəskin şəkildə azaldıla bilsin?

**İqtisadçı-ekspert Rəşad Həsənov bildirir ki, ölkədə “kölgə iqtisadiyyatı” ilə bağlı ciddi problem var:** “İqtisadiyyatın, xüsusilə real sektorun əhəmiyyətli bir hissəsi illeqal fəaliyyət göstərir. Hətta Dünya Bankı bildirir ki, bu göstərici 60 faizin üzərindədir. Müşahidələr göstərir ki, həqiqətən bəzi sahələrdə hətta ”kölgə iqtisadiyyatı"nın səviyyəsi 70 faizdən yuxarıdır. Biznesin əhəmiyyətli bir hissəsi qeyri-qanuni fəaliyyət göstərir, dövriyyəni uçotdan gizlədir. Bu isə fiskal tənzimləmədən tutmuş ümumi bazarın öyrənilməsi, bazara təsir imkanlarının müəyyənləşdirilməsi, eyni zamanda təşviq mexanizmlərinin işləməsinə qədər mənfi təsir göstərir. Amma məsələ burasındadır ki, sahibkar mütləq qeyri-qanuni fəaliyyət göstərməkdə maraqlı deyil. Çünki qeyri-qanuni fəaliyyət göstərən sahibkar çox ciddi psixoloji təzyiqlərlə üzləşir, onun fəaliyyəti müxtəlif formada təzyiqlərə açıqdır. Amma sahibkar buna öyrəşdirilmişdir. Yəni mövcud infrastruktur bu şəraiti formalaşdırıb".

**Ekspert qeyd edir ki, son vaxtlar Azərbaycanda “kölgə iqtisadiyyatı”nın azaldılması üçün bir neçə istiqamətdə addımlar atılır:** “Bura ilk növbədə vergi qanunvericiliyinə edilən dəyişikliklər, vergi-gömrük əlaqələndirilməsi yolu ilə uçotun izlənilməsi imkanlarının ortaya qoyulması daxildir. Bundan başqa, ikinci bir yol da tətbiq olunmağa başlayır. Yəni biznes münasibətlərinin digər tərəfi olan vətəndaşlar prosesə cəlb olunur. Nağdsız və nağd alış-verişdə ƏDV-nin geri qaytarılması yolu ilə vətəndaşı bu prosesə qoşmaqla ümumi biznesin leqallaşdırılmasına nail olmaq nəzərdə tutulur. Dünya təcrübəsi göstərir ki, yalnız inzibati mexanizmlə yüksək nəticəyə nail olmaq mümkün deyil, mütləq təşviq mexanizmi də formalaşdırılmalıdır. Amma bizdə bir məsələ var: səmimiyyət. Həqiqətənmi bizdə bütün illeqal biznesin leqallaşdırılması məqsədi qoyulub qarşıya? Bu gün müəyyən olunan mexanizmlər siyasi dəstəyini ala biləcəkmi? Əgər siyasi dəstəyini ala biləcəksə, düşünürəm ki, növbəti dövrlərdə vergi yükünün bir az da azaldılması yolu ilə biznesin leqallaşdırılmasına imkanlar formalaşa bilər. Amma məmur biznesinin, inhisarçılığın hər hansı formada dəstəklənməsi kimi mövcud şərtlər dəyişməyəcəksə, bu zaman leqallaşma bəzi hallarda reallıqda ədalətsiz biznes mühitinin formalaşmasına gətirib çıxaracaq. Yəni leqal biznesin vergi və digər fiskal yükü artacaq, amma himayə olunan biznes bu sahədə müəyyən güzəştlər əldə edəcək, xərcləri daha az olacaq. Bu isə leqal biznesin iflas olub dövriyyədən çıxması ilə nəticələnə bilər”.

**R.Həsənov təşviq və inzibati metodlarla yanaşı, inhisarçılığa qarşı mübarizənin gücləndirilməsi üçün zəruri olan addımların da atılmasının gərəkdiyini bildirir:** “Sadə bir misal. Azərbaycanda Rəqabət Məcəlləsi 12 ildən yuxarıdır ki, müzakirə olunsa da, hələ də qəbul olunması baş tutmur. Sual yananır: nə üçün? Azərbaycan çox kiçik bir bazardır. Bu bazarın xüsusiyyətləri nəzərə alınaraq mütləq və mütləq Rəqabət Məcəlləsi olmalıdır. Eyni zamanda bu məcəllənin işləkliyi təmin olunmalıdır. Burada artıq bu hansı məmurun biznesidir, bunu kim himayə edir kimi prinsiplərə yer olmamalıdır. Eyni zamanda Rəqabət Məcəlləsində bazarın şərtləri nəzərə alınmalıdır. Məsələn, mövcud qanunvericilikdə nəzərdə tutulur ki, bazar payı 33 faizdən yuxarı olan subyekt inhisarçı hesab olunur. Amma hesab edirəm ki, Azərbaycan bazarı kiçik olduğu üçün bu göstərici daha aşağı payı əhatə etməlidir. Bütün bunlara o halda son qoymaq olar ki, məmurla biznes bir-birindən ayrılsın. Ötən parlament seçkilərində qeyri-rəsmi formada da olsa bir prinsip irəli sürüldü ki, ya rektor ol, ya deputat. İndi də eyni prinsip məmurlara tətbiq olunmalıdır: ya biznesi seç, ya da hakimiyyətdəki vəzifəni. Bunu da təzyiq yolu ilə deyil, yumşaq keçid formasında etmək lazımdır. Əks halda, vəsait ölkədən qaçar. Nəzərə almaq lazımdır ki, Azərbaycanda vəsaitlərin mühüm bir hissəsi məmur biznesi yolu ilə qazanılıb. Buna görə də yumşaq keçid mexanizmi seçilməlidir: biznesi seçən məmurlara qarşı hər hansı təzyiq olmamalıdır. Bu ayrılmadan sonra biznesin hamısı üçün eyni şərtlər olacaq və tətbiq olunan mexanizmlər işləyəcək”.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

# Bakıdakı “Armani” şirkətinin ermənilərlə nə əlaqəsi-təfərrüat

## “Armani”nin Bakıda 9 mağazası fəaliyyət göstərir ki, onların da hamısı şəhərin mərkəzində yerləşir




**Məşhur “Armani” firmasının erməni sözünün dəyişilmiş şəkli olması ilə bağlı iddia yenidən gündəmə gəlib. Belə ki, bu barədə modern.az saytında dərc edilən məqalədə iddia edilir ki, İtaliya istehsalı kimi “Armani” adı ilə satılan pal-paltarların satışından əldə edilən yüz minlərlə dollar italyan milyarderi, əslində erməni olan Corco Armaninin fonduna, oradan isə silah şəklində Azərbaycana düşmən ölkəyə ötürülür.**

Yazıda o da iddia edilir ki, “Armani”nin brendlərindən biri olan “Emporio Armani” əslində erməni imperiyası deməkdir.

“Yeni Müsavat” bu iddiaları araşdırıb.

Şirkət haqqında internetdə olan informasiyalarda bildirilir ki, qurucu Corcio Armani 1934-cü ildə iyulun 11-də Milan yaxınlığındakı Pyaçensada anadan olub. O, Pyaçensa Universitetində tibb üzrə təhsil almış, lakin dizayn işlərinə aludə olduğundan təhsilini başa vurmayıb. Corcionun atasının adı Ugo Armani olub. Yəni o, bu adı sonradan götürməyib. 1964-cü ildə N.Çerrutinin firmasında, 1970-ci ildən isə hazır geyim firmalarında müstəqil işləməyə başlayıb. 1974-cü ildən öz markası ilə kişi və qadın geyimləri kolleksiyalarını hazırlayıb. Armani kolleksiyalarına gənclər üçün cins parçadan geyimlər daxil edən (1981-ci ildən) ilk dizayner olub. 80-ci illərin əvvəllərindən Armani filmlər üçün kostyumlar hazırlamağa başlayır və o, bu sahədə də uğur qazanır.

Armani öz kompaniyasının direktoru, prezidenti və yeganə səhmdarıdır. 13 zavod, dünyanın 39 ölkəsində 300 mağazası var. O, hətta Dubayda “Giorgio Armani” adlı hotel də açıb. Bundan əlavə o, “Olimpia Milano” basketbol komandasının da prezidentidir. Bu gün o, İtaliyanın ən imkanlı şəxslərindən biridir.

“Armani”nin müxtəlif adda markaları var. Ətirlər isə kişi və qadın olmaqla iki kateqoriyaya bölünür. Kişi ətirlərinin adı qadın ətirlərinin adından fərqlidir. Məqalədə qeyd edilən “Emporio Armani” bu markalardan biridir. Eyni zamanda “Giorgio Armani”, “Armani junior”, “Armani Collezioni” “Armani Cosmetics” kimi markalar da mövcuddur.

Onu da qeyd edək ki, Türkiyə mətbuatında da bir neçə dəfə “Emporio Armani” markasının “erməni imperiyası” anlamını verməsi məsələsi qabardılıb. Lakin hər dəfə şirkət tərəfindən bu məsələnin absurd olduğu açıqlaması verilib. Hətta Türkiyədə bir qrup adam üzərində bu markanın adı yazılan şortlar geyindiyi üçün sorğuya da alınıb, erməni təxribatı törətməkdə günahlandırılaraq döyülüblər də.

“Yeni Müsavat” olaraq araşdırmamız nəticəsində öyrəndik ki, Bakıda “Armani” firmasının 9 filialı fəaliyyət göstərir. Həmin mağazalar daha çox şəhərin mərkəzindədir. İddia ilə bağlı “Armani” mağazalarından birinə zəng etdik. Bildirildi ki, markaların adı, sadəcə olaraq, şirkəti təsis edən şəxsin adı ilə bağlıdır. Mətbuatda gedən yazıların əsassız olduğu qeyd edildi.

Bakıdakı mağazalara gəlincə isə şəhərdə fəaliyyət göstərən mağazalardan 6-sı “Emporio Armani” markası, 2-si “Giorgio Armani”, 1-i isə “Armani junior” markası adı altında fəaliyyət göstərir. Bu mağazaların ikisi iri ticarət mərkəzlərində, digərləri isə mərkəzi küçələrdə ayrıca butik kimi fəaliyyətdədir. Bundan başqa, “Emporio Armani” və “Giorgio Armani” markalarının saatları, ətirləri şəhərin mərkəzində fəaliyyət göstərən iri kosmetika və saat mağazalarında satılır. Təbii ki, bu markaların qiymətləri heç də aşağı deyil. Lakin markaların qiymətini fantastik dərəcədə baha da saymaq olmaz. Ona görə də mağazaların müştəriləri daha çox maddi baxımdan orta və varlı yaşayanlardır. Azərbaycanda üzərinə “Emporio Armani” yazılan saatlara da rast gəlinir. Bu saatların orijinalları 450-500 manatdan başlayan qiymətlə satılır.

**“Yeni Müsavat”a danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, müvafiq qurumlar yayılan iddiaları araşdırmalıdır:** “Azərbaycanın təhlükəsizlik orqanları bu məlumatı araşdırmalıdırlar. Mümkündür ki, markalardan birinə ermənilər nüfuz edə, dünyaya hansısa şifrəli mesajlarını yaya bilərlər. Qəti şəkildə erməni məhsulunun Azərbaycanda satılmasına icazə verilməli deyil. Lakin Azərbaycan məhsullarının Ermənistanda satılmasına çalışmaq lazımdır. Bu məsələdə də araşdırma aparmaq mütləqdir”.

Onu da qeyd edək ki, sərhəd-buraxılış məntəqələrindən Azərbaycana Ermənistan istehsalı olan heç bir məhsul buraxılmır. “Yeni Müsavat”ın əməkdaşı olaraq Dövlət Gömrük Komitəsinin sərhəd-buraxılış məntəqələrinə təşkil etdiyi media-tur zamanı ölkəyə gətirilən qanunsuz malların saxlanıldığı anbarda da olmuşduq. Həmin anbarda xeyli sayda erməni istehsalı olan məhsullar saxlanılırdı. Bildirildi ki, əksəriyyəti suvenir və spirtli içki olan bu məhsulları ölkəyə keçirməyə turistlər cəhd ediblər. Qanunla qadağan olunduğu üçün onlardan bu məhsullar alınaraq, məhv edilməsi üçün müvafiq anbara verilib.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

# Türkiyəni qana bulayan terrorçu 2 ildən sonra ifadəsindən imtina etdi

## Əbdülqadir Maşaripovun məhkəməsi başladı; "Reina" gecə klubunda terror edən istintaqa nə demişdi?

**2017-ci il yanvarın 1-də İstanbulda baş vermiş "Reina" gecə klubunda terror edən Əbdülqadir Maşaripovun və digərlərinin məhkəmə prosesi başlayıb. İstanbul 27-ci Ağır Cinayətlər Məhkəməsinin Silivri rayonunda keçirilən iclasında 19 şübhəli azadlığa buraxılıb. Ancaq azad edilən şəxslər Türkiyə ərazisini tərk etməyəcək.**




Hazırda məhkəmə terror hadisəsinin əsas şübhəlisi Əbdülqadir Maşaripov, onun həyat yoldaşı Zarina Nurullayeva, digər dini kəbinli həyat yoldaşı, Fransa vətəndaşı Tene Traore də daxil olmaqla, 20 nəfərin işini araşdırır. Qeyd edək ki, məhkəmə prosesi mayın 16-dək təxirə salınıb.

Məhkəmə prosesində çıxış edən Maşaripov haqqında olan ittihamları rədd edib. "Reina" terrorunun əsas şübhəlisi deyib ki, terror aktını o törətməyib, eyni zamanda hadisə baş verən gecə kadrlara düşən əli avtomatlı şəxsin də özü olmadığını bildirib.

Türkiyə mediasının məlumatına görə, Maşaripov qapalı məhkəmə prosesində ifadə verib və bu zaman tərcüməçi olmadan türkcə danışıb. Maşaripov deyib ki, həyat yoldaşı xəstə olduğu və pulu olmadığı üçün İrana, Pakistana və daha sonra Türkiyəyə gedib. Eyni zamanda deyib ki, imkansızlıqdan İstanbulda tez-tez yerini dəyişməli olub. 2017-ci il yanvarın 2-də isə dostları ona internetdə yayılan fotoların göstərib. O, terroru törətmədiyini, kadrlardakı şəxsin də özü olmadığını və medianın onu qəsdən terrorçu kimi göstərdiyini iddia edib və polisdə, prokurorluqda verdiyi ifadələrdən imtina edib.

Xatırladaq ki, 2017-ci il yanvarın 1-də bayram gecəsi şənliyinin davam etdiyi "Reina" barına silahlı hücum təşkil olunub. Avtomatla silahlanmış şəxs bara daxil olaraq ətrafa atəş açıb. Nəticədə 39 nəfər ölüb, 65 nəfər isə yaralanıb. Ölənlərdən 4-ü "Reina" gecə klubunun işçiləri olub. Həmçinin bir nəfər Azərbaycan vətəndaşı olmaqla ümumilikdə 16 xarici ölkə vətəndaşı ölənlər arasında olub.



Qeyd edək ki, ilkin məlumatlarda bara "Şaxta Baba" geyimində 3 nəfərin daxil olaraq ətrafa atəş açdığı bildirilirdi. Həmin vaxt klubda çoxu gənclər olmaqla, 800 nəfərə yaxın insan olub. Hadisədən dərhal sonra terrorun arxasında İŞİD-in olması ilə bağlı iddialar gündəmə gəlib.

2017-ci il yanvarın 16-da polis İstanbulun Esenyurt rayonunda keçirdiyi əməliyyat nəticəsində "Reina" terrorunun əsas şübhəlisi olan Özbəkistan vətəndaşı, 1983-cü il təvəllüdlü Əbdülqadir Maşaripovu həbs edib.

Terrorçunun ələ keçdiyi evdə iraqlı bir kişi və biri misirli olmaqla, 3 qadın da tutulub. Terrorçu ilə birlikdə olduğu düşünülən 4 yaşlı oğlu isə tapılmayıb. İstanbul valisi terrorçunun 4 dil bildiyini və yaxşı hazırlanmış, Əfqanıstanda terror təlimi görmüş biri olduğunu, Türkiyəyə 2016-cı ilin yanvarında ayaq basdığını bildirib. Onun tutulduğu evdə 2 ədəd pilotsuz uçuş aparatı (dron) və 197 min dollar pul olub. Terrorçunun İŞİD üzvü olduğu dəqiqləşib. Adı Abdulkadir Maşaripov, ləqəbi Əbu Muhəmməd Xorasani olub və Türkiyədə gizli terror hücrələrindən birinin üzvü imiş.

Onu da qeyd edək ki, Maşaripov Türkiyə mediasında yayılmış ifadəsində cinayəti etiraf edib və bir sıra detalları açıqlayıb. Maşaripov təlimatı İŞİD liderlərindən olan Əbu Cihaddan aldığını deyib. Yeri gəlmişkən, Əbu Cihad ləqəbli terrorçu da sonradan yaxalanıb.

Maşaripov istintaqa ifadəsində deyib ki, Türkiyəyə 2016-cı ildə qeyri-qanuni yollarla gəlib. 4 ay ailəsi ilə birlikdə Zeytinburnunda qaldıqdan sonra Kayaşehire köçüb. 2016-cı ilin noyabr ayında Suriyadakı İŞİD əmirinin təlimatı ilə Konyaya köçüb və burada 1 ay qaldıqdan sonra yenidən İstanbula qayıdıb.

**İŞİD rəhbərliyi ilə "Telegram" proqramı vasitəsilə əlaqə saxladığını deyən Maşaripov istintaqa deyib ki, İŞİD-in Suriyadakı əmiri ona zəng edib Türkiyədə terror aktı törətməsi barədə təlimat verib:** "Dekabrın 26-da terror barədə planı həyata keçirməyə başladım. Həmin gecə bir nəfər "Telegram"dan məni avtobus dayanacağına çağırdı. Rusca danışan Qafqaz əsilli biri yanıma gəldi. Mənə yaddaş kartı və 700 lirə verdi və yeni ev kirayələməyi tapşırdı. Evə gedib yaddaş kartına baxdım. Terrorla bağlı Əbu Cihad adlı bir nəfərin rusca səs yazısı var idi. Dekabrın 27-də Taksimdə kamera ilə ətrafı çəkdim. Sonra Başakşehərdə tutduğum yeni evə getdim. Ailəmi da oraya apardım..."

**Maşaripov deyib ki, terror aktında istifadə etdiyi silahı yeni il gecəsindən 2 gün əvvəl rus dilində danışan, qafqazlı bir başqa terrorçu verib. Plana əsasən Taksimdəki xarici vətəndaşlara atəş açmalı, ya da özünü partlatmalı imiş. Ancaq havanın yağışlı olması və Taksimə silahla gəlməyin çətin olacağını düşündüyü üçün Əbu Cihada Taksimdə çox adam olmayacağını yazıb. Bundan sonra yeni təlimat gəlib:** "Dedi ki, bu saatda Taksimdə heç kim olmaz, "Reina" adlı bir klub var, orada terror törədə bilərəm. Taksiyə minib silahsız halda "Reina"ya getdim. Ətrafı izlədim, içəri girmədim. Əbu Cihaddan içəridən görüntü istədim. Mənə içəridə oynayanların videosunu atdı. Avtomatı əl çantasına qoydum, mağazaları isə bel çantama. Bombaları cibimə qoyub "Reina"ya getdim. Yolda telefonumu sındırıb atdım. Qapının ağzında polis var idi. İçəri girmək üçün onu vurdum. İçəri girəndə hədəf seçmədən güllə daraqları boşalana qədər ətrafa atəş açdım. Ardınca da iki əl bombası atdım. Gödəkcəmi niyə çıxardığımı xatırlamıram. Bombalardan biri əlimdə partladı, əlim yaralandı. Öldüyümü düşündüm. Az sonra özümə gəldim, ayağa qalxıb çölə çıxdım".

**Terrorçu ifadəsində bildirib ki, hadisədən iki gün sonra Bakırköydə polislər onu saxlasa da, həbs edə bilməyib. Polisə atəş açaraq qaçıblar:** "Daha sonra silahı gizlədib Əbu Cihada yazdım. Əbu Cihad dalımca bir iraqlı göndərdi. Mənə dedi, ölü kimi yaşa və heç bir yerə tərpənmə. Amma bir neçə gün sonra elə həmin evdə yaxalandım".

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Azərbaycanlı və çeçenlərin Moskvada növbəti görüşü oldu

## Görüşdə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və Çeçenistan Respublikasının hökumət sədrinin müavini, Rusiya Dumasının deputatı Adam Delimxanov iştirak edib






**Moskvadakı "Neolit" kafesində bir qrup azərbaycanlı ilə çeçen arasında baş vermiş insidentin səbəbkarı erməni olub.**

Axar.az xəbər verir ki, İnformasiya Təşəbbüsləri Mərkəzinin rəhbəri Fuad Abbasov apardığı jurnalist araşdırmasından sonra bu cür sensasion bəyanatla çıxış edib.

Abbasov özünün Rusiya hüquq-mühafizə orqanlarına ünvanlanan videomüraciətində münaqişənin ilk günündə çeçenlərin hansısa azərbaycanlını axtardığını bildirib:

"Onlar Whatsappda və digər sosial şəbəkələrdə bir-birilərinə həmin azərbaycanlının fotosunu göndəriblər. Çeçenlərin fikrincə, məhz həmin şəxs günahkar olub və onu cəzalandırmaq lazımdır. Bununla belə, azərbaycanlının adı qeyd olunmayıb".

Daha sonra isə jurnalist çeçenlərin axtardığı həmin "azərbaycanlı"nın pasportunun şəklini göstərir.

Məlum olur ki, bütün baş verənlərin günahkarı, çeçenlərin axtardığı şəxs özünü azərbaycanlı kimi qələmə verən Ermənistan vətəndaşı 1993-cü il təvəllüdlü Harnik Aramoviç Vardanyandır.

Bu arada Moskvada Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və Çeçenistan Respublikasının hökumət sədrinin müavini, Rusiya Dumasının deputatı Adam Delimxanovun da iştirakı ilə tanınmış azərbaycanlılar və çeçenlər arasında görüş keçirilib.

Bu barədə məlumatı jurnalist Fuad Çıraqov öz facebook səhifəsində yayıb. Görüş zamanı tərəflər məişət zəminində baş vermiş qarşıdurmanın iki xalq arasındakı münasibətlərə təsir etməyəcəyini bildiriblər.

Adam Delimxanov həmçinin azərbaycanlılarla çeçenlər arasında yaşanan toqquşmanın xüsusi olaraq hazırlandığını və bununla bağlı görüntülərin iki xalqın münasibətlərini pozmaq üçün qəsdən yayımlandığını bəyan edib. O, hazırda bu məsələnin aydınlaşdırılması ilə bağlı işlərin aparıldığını deyib, eləcə də Polad Bülbüloğlu ilə Azərbaycan tərəfinə yaranan insidentə doğru qiymət verdiklərinə görə təşəkkür edib.

Polad Bülbüloğlu isə öz növbəsində azərbaycanlılarla çeçenlər arasında dostluğun qırılmaz olduğunu bildirib. O, üçüncü tərəflərin bu dostluq əlaqələrinə zərbə endirməyə çalışdıqlarını, amma bu istiqamətdə heç bir uğur əldə etməyəcəklərini bəyan edib. Üstəlik, Bülbüloğlu iki xalqın münasibətlərinin pozulmasına cəhd edənlərin cəzalandırılması gərəkdiyini də söyləyib.

Qeyd edək ki, görüş Moskvadakı "Prezident hotel"də baş tutub. Görüşdə iştirak edənlər arasında K-1 döyüşçüsü, məşhur idmançı Zabit Səmədov da olub.

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

# "Rabitə işi"nə görə həbs edilən sabiq baş direktor necə "təmizə çıxdı"

## Məhəmməd Məmmədov Xətai Məhkəməsindən şərti cəzasının ləğvi haqda qərar aldı; Əkrəm Həsənov: "Bu, korrupsiya ilə mübarizənin nəticələrinə kölgə salır"

**"Rabitə işi"ndə əsas fiqurlardan biri "Aztelekom" MMC-nin sabiq baş direktoru Məhəmməd Məmmədov şərti məhkum etmənin götürülməsi üçün məhkəməyə müraciət edib. Xətai Rayon Məhkəməsi onun müraciətini təmin edib. Halbuki Məhəmməd Məmmədov vəzifə səlahiyyətlərindən sui-istifadədə, külli miqdarda mənimsəmədə ittiham olunaraq barəsində 6 il müddətinə azadlıqdan məhrum etmə cəzası çıxarılmışdı. Məhkəmədə 4 milyon 500 min manat ziyanı ödəmişdi. Apelyasiya instansiyası isə həmin cəzanı şərti cəza ilə əvəzləmişdi.**

Barəsində olduqca ciddi korrupsiya ittihamları məhkəmədə təsdiqlənmiş məmurun hətta şərti cəzadan da azad edilməsi nə dərəcədə qanunidir?

**Hüquqşünas Əkrəm Həsənov** "Yeni Müsavat"a Məhəmməd Məmmədovun şərti cəzadan azad edilməsini şərh edib. Hüquqşünas deyib ki, Azərbaycanda Məhəmməd Məmmədov kimi məmurların qanunla problemlərini bu sayaq həll etmələri ümumilikdə korrupsiya cinayətlərinin qarşısının alınmasına olduqca böyük zərər verir: "Korrupsiya ilə mübarizənin ən optimal variantı Sinqapurdadır. Orada tətbiq edilən model Azərbaycana tam uyğundur. Sinqapurda dövlət məmurlarına yüksək əmək haqqı verilir. Paralel olaraq korrupsiya cinayətlərinə görə olduqca sərt cəzalar tətbiq olunur. Heç bir bağışlanma, şərti cəza, əfv yoxdur. Hesab edirəm ki, Azərbaycan yalnız bu modeli qəbul etdiyi halda korrupsiyaya qarşı effektiv mübarizə apara bilər. Bu gün əsas problem Azərbaycanda məmurların əmək haqqının çox aşağı səviyyədə olmasıdır. 500-600 maaşa qol çəkən məmurun əlindən milyonlar keçir


Məhəmməd Məmmədov

və tək-tək məmurlar var ki, xalqın malına əlini uzatmır. Məhkəmə hakimlərinin, məhkəmə sistemində çalışanların əmək haqları da aşağıdır. Hakimlər ortalama 1200 manat, katiblər və digər işçilər isə 200-300 manat maaş alırlar. Bunun qarşılığında onların olduqca böyük iş yükü var. Hakimlər katiblərə, öz köməkçilərinə aldıqları maaşdan pul verməək məcburiyyətindədirlər. Məhkəmələrdə katiblər proseslərin stenoqramını aparmalıdırlar. Amma aparmırlar. Maaşları çox azdır deyə kimsə bunu tələb edə bilmir. Ümumilikdə bu, məhkəmə sisteminin işinə mənfi təsir göstərir. Bu adamlardan gözləmək ki, elə həmin maaşla qane olacaqlar, bu mümkün deyil. Bu adamların əllərindən Məhəmməd Məmmədov kimilərin milyonlarla manatlıq işləri keçir. Əslində hakimlər 5 min manat, katiblər, köməkçilər 1500 manat əmək haqqı almalıdır ki, rahat həyatlarını qura bilsinlər. Kimlərinsə əlinə baxmasınlar. Belə müzakirələr olanda adətən fikirlər səslənir ki, onlara yüksək maaş da verilsə, yenə də rüşvət alanları olacaq. Azərbaycanda kifayət qədər savadlı, vicdanlı hakimlər var. Söhbət ondan gedir ki, yüksək maaş veriləndə rüşvət alanlara çox sərt cəzalar olmalıdır. Hətta ömürlük azadlıqdan məhrumetmə cəzasının tərəfdarıyam. O kəslər ki, dövlət vəzifəsində işləyib yüksək maaşla təmin olunub və rüşvət alırsa, belə adamlar dövlətin, cəmiyyətin əsaslarına balta çalırlar, ona görə də ömürlük həbsə göndərilməlidirlər. Biz əgər məmurun, hakimin maaşını qaldırmırıqsa, deyirik ki, korrupsiya ilə mübarizə aparırıq, bu mübarizənin nəticəsi istənilən səviyyədə olmayacaq. Korrupsiyaya bulaşanlar öz işlərində olacaqlar. Deyəcəklər ki, əşi, onsuz da tutulanları da məhkəmə açıb buraxır, işimdə olum".

**Ə.Həsənov deyir ki, əvvəlki illərə nisbətən korrupsiya ilə mübarizə zəif də olsa aparılır:** "Məmurlar bir qədər özlərinə yığışıblar, qorxurlar. Dövlət vəzifəsində korrupsiya ilə məşğul olması sənədlərlə, sübutlarla isbat olunan, özünün, ətrafındakıların ifadələri ilə cinayət əməli təsdiqlənən məmurun azadlığa çıxması, barəsindəki şərti cəzanın ləğv olunması korrupsiya ilə mübarizənin nəticələrinə kölgə salır. Əgər şəxs xalqın, dövlətin 1 manatını mənimsədiyini etiraf edibsə, o adamın yeri həbsdir. Azərbaycanda belə məhkəmə hökmlərinin çıxarılması hakimlərin maaşları aşağı olduqca davam edəcək. Vəzifədə olan məmur da fikirləşəcək ki, filankəs 50 milyon mənimsədi, 5 milyonu qaytarıb şərti cəza ilə azadlığa çıxdı. Mən də xalqın, dövlətin pulunu talayım, oğurlayım və şərti cəza alıb gedib həyatımı yaşayım. Bunu da hamı bilir ki, belə korrupsioner məmurların azadlıqdan məhrumetmə yerlərində günləri heç də pis keçmir. Ayrıca kamera, hamam, tualet, televizor, telefon, soyuducu əllərinin altında olur. Yaxınları ilə görüşlərinə problem də olmur. Yeni özlərinə şərait yaradıb həbsdə də istədikləri kimi yaşayırlar. Bu, əlbəttə ki, korrupsiya ilə mübarizənin effektini olduqca azaldır".

Qeyd edək ki, Xətai Rayon Məhkəməsinin Məhəmməd Məmmədov barəsində çıxardığı qərardan narazı qalan dövlət ittihamçısı apelyasiya protesti verib. Bakı Apelyasiya Məhkəməsi prokurorluğun protestini təmin etməyib, birinci instansiya məhkəməsinin çıxardığı qərarı dəyişdirmədən saxlayıb. M.Məmmədov 2015-ci ildə Rabitə və Yüksək Texnologiyalar Nazirliyində (RYTN) aparılan yoxlamalar zamanı həbs edilmişdi. Mənimsəmədə və vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirli bilinirdi. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə M.Məmmədov isə 5 il 7 ay 19 gün müddətinə azadlıqdan məhrum olunub.

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# 500 manat maaş alan işçiyə 23 milyon kredit "yükləyiblər" - nonses

## "Beynəlxalq Bank işi"nin məhkəməsi maraqlı faktlar üzə çıxarıb

**Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə təqsirləndirilən "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev, qohumu İsmayıl Hidayətzadə, sabiq deputat Dünyamin Xəlilov, Camal Həsənov, Sərxan Rəsulov, Natiq İmanov, Samir Hacıyev, Təbriz Əbdülhəmidov, Mahir Qafarov, Sadıx Murtuzayev, Tərlan Məhərrəmov, Fəxrəddin Heybətov, Ramin Əhmədov, Fariz Muradov, Səlahəddin Qədirov, Erxan Cavad, Arif Ramazanov, Navai Şirinov, Svetlana Əsədullayeva, Arif Mədətov, Adil Mikayılov, Ramis Kərimovun cinayət işi üzrə məhkəmə iclası davam edir.**



Hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə ifadə verən təqsirləndirilən Navai Şirinov olduqca ilginc ifadə verib. Aydın olub ki, 500-600 manat maaş alan təqsirləndirilənin adına 23 milyon manatdan artıq kredit götürülüb.

Onun ifadəsinə diqqət edək.

**Sitat:** "007-ci ildə "General Consalting" şirkətində direktor kimi fəaliyyətə başladım. Məni bu vəzifəyə Dünyamin Xəlilov gətirmişdi. Onu 2005-ci ildə deputatlığa namizəd olan zaman tanımışam. Şirkətimiz tikinti işi ilə məşğul idi. Mən sonradan podratçı "Kənan İnşaat" şirkəti ilə işləməyə başladım və Beynəlxalq Bankdan kredit götürdüm. Forma 2 podratçı şirkətdən gəlirdi, mən də imzalayırdım. Adıma bir neçə kredit xətti açılmışdı. 2010-cu ilə qədər Beynəlxalq Bankın Zaqatala filialından kredit götürmüşəm. Əvvəl 300 min, sonra 450-800 min manat kredit götürülüb. Kredit müqaviləsi hazır formada gəlirdi və mən də imzalayırdım. 2010-cu ildən sonra isə Bakıya gəldim".

**N.Şirinov məhkəmədə deyib ki, adına Beynəlxalq Bankdan ümumilikdə 23 milyon 53 min manat kredit götürülüb:** "Məbləğlərin şişirdilməsi ilə razı deyiləm. İttihamda qeyd edilib ki, 2 milyondan çox şişirdilmə olub, həmin pulları mənimsəmədə təqsirləndirilirəm. Hazırda pulları ödəmək fikrim yoxdur".

**Təqsirləndirilən şəxs bildirib ki, D.Xəlilovun şirkətində direktor vəzifəsində çalışan zaman 300-600 manat arası maaş alıb:** "Elə olurdu ki, heç maaş da ala bilmirdim".

Daha sonra ifadə verən digər təqsirləndirilən Camal Həsənov bildirib ki, D.Xəlilovun göstərişi ilə Azərbaycan Beynəlxalq Bankından adına kredit götürülüb, pulu isə şirkətin kassiri Əli Muradova verib. Hazırda o, 8 milyon manatdan artıq pulu mənimsəmədə təqsirli bilinir.

Məhkəmənin bu şəxslərlə bağlı verəcəyi qərar da maraq doğurur. Bu adamlar, sadəcə, işçi olublar. Aydındır ki, onlar istəsəydilər belə nəinki 23 milyon, heç 20 min manat kredit ala bilməzdilər. Belədə barələrində ağır cəzaların verilməsi ədalət məhkəməsi adına rəzalət olacaq.

Rəsmi məlumata əsasən, aparılmış istintaqla 2001-2015-ci illərdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində işləmiş C.Hacıyevin göstərişləri əsasında ayrı-ayrı ölkələrdə yaradılmış hüquqi şəxslərlə real dəyəri olmayan sadə veksellərin alqı-satqısına dair 3,4 milyard ABŞ dolları və 987 milyon avro məbləğində (müvafiq dövrün məzənnəsi ilə 3,8 milyard manat) müqavilələr bağlanılaraq qanunsuz veksel əməliyyatları aparılmasına dair əsaslı şübhələr müəyyən edilib. Aparılmış istintaqla C.Hacıyev tanışı Dünyamin Xəlilov, digər 20 nəfər və qeyriləri ilə birlikdə qanunsuz maliyyə əməliyyatları aparılan və real dəyəri olmayan veksellərin alınması, eləcə də təminatı olmayan kreditlərin verilməsi yolu ilə ümumilikdə 4,7 milyard manat məbləğində pul vəsaitini mənimsəmə və digər cinayətlər yolu ilə 2,5 milyard manat hissəsini ələ keçirməklə cinayət yolu ilə əldə edilmiş həmin vəsaitin 2 milyard manatını leqallaşdırmasında, digər 2,2 milyard manat məbləğində pul vəsaitinin isə müxtəlif əməliyyatlara yönəltməklə "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib. Xatırladaq ki, C.Hacıyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il, D.Xəlilov 13 il və İ.Hidayət-zadə isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə D.Xəlilovun cəzası 13 ildən 12 il 9 aya, Ali Məhkəmə isə İ.Hidayət-zadənin cəzasını 5 ilə endirib.

**❑ E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

**Amerikan Havaçılıq və Kosmos Dairəsi (NASA) 2033-cü ildə Marsa gerçəkləşdirməyi planlaşdırdığı ilk insanlı səfəri üçün komik astronavtlar axtarır. "Yeni Müsavat" BBC Türkcəyə istinadən xəbər verir ki, qurum komik, əyləncəli bir insanın heyətlərin gərgin atmosferlərlə mübarizə aparmasını asanlaşdıracağı ilə bağlı araşdırmalara istinad edib. Son nəticədə isə dörd astronavt qrupu ilə çalışma aparıb.**

# Marsa səfərlə bağlı qiymətlər açıqlandı

## Heyətin tərkibi müəyyənləşib; 2033-cü ildə Aya səfər uğurlu alınarsa...




NASA-nın araşdırmasına liderlik edən Florida Universitetindən antropoloq Prof. Jeffrey Consona görə, Mars səfəri kimi məhdud bir sahədə uzun bir müddət qalmaq insanın əsəblərinə pis təsir edir. "Bu səbəbdən də kosmik maşında işlərin normal məcrada getməsi üçün heyətin əhvalını yüksək tutacaq birinə ehtiyacımız var" deyir.

Conson Antarktikada dörd il boyunca davam edən araşdırmaların nəticəsində "kloun, lider, dost, hekayə danışan, ortaq mövqe tapan və dərd ortaqları" kimi xarakterlərin heyətləri birləşdirdiyi və işlərin daha yaxşı getməsini təmin etdiyini müəyyən edib. Amerika, Rusiya, Polşa, Çin və Hindistanda da buna bənzər nəticələr əldə edilib. NASA, Mars səfərinə hazırlıq üçün 2033-cü ildə Aya astronavt göndərməyi planlaşdırır. Rusiya və Çin də 2040-cı ildə səfərlər təşkil etməyi planlaşdırır.

Marsa uçuş kosmik missiyanın hər bir ekipaj üzvünü radiasiya ilə təmasa görə 2,5 il qocaldacaq. Bu haqda "RİA Novosti" Moskvada keçirilən Aviakosmik və Ekoloji Tibb adlı konfransın hesabatında məlumat yer alıb. "Marsa uzun sürən (üç ilə qədər) uçuş zamanı və uçuşdan sonra maksimum Günəş aktivliyi şəraitində müxtəlif qalınlıqlı radiasiyadan qoruyan alüminium "sığınacaqda" olan kosmonavtların üzləşəcəyi ümumi radiasiya riski hesablanıb.

Sadə şar formalı kosmik aparat və onun içində olan insan bədənini imitasiya edən fantom model əsasında aparılan hesablamalara görə, Marsa iki il müddətli uçuş və geri dönüş zamanı hər bir ekspedisiya üzvü üçün radiasiya riski yaşdan asılı olmayaraq 7,5 faiz təşkil edəcək. Bu isə kosmonavtların ömrünün orta hesabla 2,5 il qısalmasına yol açacaq", - deyə sənəddə bildirilir.

Daha öncə isə xəbər verilmişdi ki, Marsda daimi insan koloniyası qurmanın məqsəd qoyulduğu "Mars One" adlı layihədə iştirak etmək istəyənlərin sayı 100 mindən 100-ə endirilib. Layihə çərçivəsində əvvəlcə qırmızı planetə araşdırmalar aparmaq üzrə insansız kosmos vasitəsi göndəriləcək, yük daşınması səfərləri təşkil ediləcəyi planlaşdırılırdı. Məsələn, 7-8 il bundan öncə bu səfərin təxmini tarixi 2018-ci il olaraq göstərilirdi. Daha sonra isə ilk insan uçuşunun 2024-cü ildə olacağı deyildi. Bu səfərə qədər "qırmızı planet"də insan həyatına uyğun mühit yaradılması üçün işlər getdiyi də qeyd olundu.

Marsa ayaq basacaq insanların bu müddətdə ciddi təlim proqramlarından keçəcəyi də göstərilir. Layihənin xərci təxminən 6 milyard dollardır. Aya səfər edən ilk üç insandan biri olan Bill Anders "Apollo 8"dəki kosmonavtlardan biridir. O, "BBC Radio"ya müsahibəsində bildirib ki, Marsa insan göndərmək fikri gülüncdür. 85 yaşlı Anders Marsa pilotsuz aparatların göndərilməsini dəstəklədiyini, amma insan göndərmə layihəsinin çox bahalı olduğunu qeyd edib: **"Biz niyə buna məcburuq? Bizi Marsa səfər etməyə məcbur edən nədir? Dövlətlərin bu məsələdə maraqlı olduğuna inanmıram".**

"Apollo 8" missiyasını idarə edən Frenk Borman isə Marsa insan göndərmə missiyası mövzusunda daha müsbət düşünür: **"NASA məsələsində Bill qədər tənqidçi deyiləm. Günəş Sistemimizin kəşf edilməsi mövzusunda iradəli olmağın vacibliyini düşünürəm və insanlı missiyalar da bunun bir parçasıdır".**

Lakin Marsa səfər etmək sözügedən layihənin ən çətin tərəfi deyil. Marsın atmosferinin planetimizə nisbətən 1% olduğunu düşünsək, astronavtlar ilk növbədə oradakı təzyiqdən qurtulmağın yollarını tapmalıdırlar. İkinci çətinlik isə insanın yaşaması üçün lazımlı olan oksigendir ki, Marsda çox da rast gəlinən bir şey deyil. Planetdəki radiasiya nisbətinin olduqca yüksək olduğunu deyən mütəxəssislər bunun kosmonavtların xərçəngə yoluxmaq riskini xeyli dərəcədə artırdığını deyir ki, bu da üçüncü məqamdır.

Keçək qiymətlərə. Bu il fevralın 13-də səfər qiymətləri ilə bağlı məlumatlar da açıqlanıb. Elon Musk şəxsi twitter hesabından paylaşdığı cavabda Marsa gediş biletinin qiyməti haqqında bəzi məlumatlar verib. Twitter istifadəçisi Elan Muska Marsa getməyin neçəyə başa gələcəyi haqda sual verib. Musk isə Marsa səfərin 500 min dollar olacağını bildirib. Həmçinin o, vaxt keçdikcə bu qiymətin 100 min dollara qədər düşəcəyini və insanların evlərini sataraq Marsa getmək istəyəcəklərini vurğulayıb.

**Marsa getdikdən sonra oranı bəyənməyənlərin dönüş biletinin pulsuz olacağını deyən Musk özünün orada yaşamaq ehtimalının 70 faiz olduğunu bildirib:** "Marsda ölmək şansın Yerdə ölmək şansından daha yüksəkdir. Sən bir qutunun içərisində kosmosun dərinliklərinə gedirsən. Sən uğurlu eniş edə bilərsən, lakin enən kimi baza qurmaq üçün davamlı çalışmaq lazımdır. İstirahət üçün vaxt yoxdur". Mask bundan əvvəl bildirib ki, Marsda davamlı həyat növbəti 40-100 il ərzində mümkün ola bilər.

Qeyd edək ki, "Space X" insanları Marsa aparmağı qarşısına məqsəd qoyan "Starship" gəmisi hazırlayır. Şirkətin məqsədi insanları bu hava gəmisi ilə əvvəlcə Aya aparmaq olacaq. Aya səfər uğurlu alınarsa, insanları Marsa aparmaq üzərində işlərə başlanacaq.

Marsa eniş edər-etməz sürətli bir şəkildə bir baza inşa edilməsi lazım olduğunu bildirən Musk "Kef üçün vaxt yoxdur. Bunu etdikdən sonra belə çətin bir ətraf mühit olacaq. Bu səbəbdən ölüm ehtimalı yüksək olacaq. Biz geri qayıda biləcəyinizi düşünürük, amma bundan əmin deyilik" ifadələrini istifadə edib.

Marsa səyahət üçün keçiriləcək reklam haqqında da danışan Musk, bu reklamın Shackleton-ın Antarktida reklamına bənzəməsi lazım olduğunu söyləyib. Musk "Marsa gedəcək ilk planetlər arası gəmini inşa edirik. Əvvəlcə qısa müddətli uçuşlar olacaq. Sınaqların gələn ilin birinci yarısından başlayacağını təxmin edirik" deyib. O, enmə-qalxma sınaqlarında əvvəlcə insanların iştirak etməyəcəklərini bildirib. "Space X" sınaqlarının digər kosmos və robot texnologiyası firmalarının və xüsusilə dövlətləri daha çox bu istiqamətə yönəltmək üçün ilham qaynağı olacağını umduğunu dilə gətirib.

O, insanların Marsda ilk öncə güc qaynağı, şüşə qübbə və vacib həyati tələbatlara ehtiyacları olacağını qeyd edib.

Qeyd edək ki, bir müddət öncə Muskun eyni zamanda baş meneceri olduğu ABŞ-a məxsus "Enerji Saxlama firması"nın və elektrikli avtomobil istehsalçısı Teslanın düzəltdiyi "Model 3" adlı elektrikli vasitənin bazara çıxarılmasında gecikmələr yaşanmışdı. ABŞ-da "vicdanlı milyarder" və "kosmos vurğunu" olaraq tanınan Muskun, "Falcon Heavy" adlı raketi, yenidən istehsal ediləcək parçaları, ağır yük daşıma tutumu və 90 milyon dollarla, yəni nisbətən daha ucuz xərclə başa gəlməsi ilə diqqət çəkib. Belə ki, "Falcon Heavy", 63.8 tonluq yük daşıma tutumu ilə bu günə qədər dizayn edilən ən güclü ticarət raketi hesab edilir.

1914-cü ildə Cənub Qütbünə səfərə çıxan Ernest Shackleton, "The Times"a bir reklam vermiş, reklamda "Aşağı maaş, amansız bir soyuq, tamamilə qaranlıqda uzun aylar, daim təhlükə, qayıtmamaq təhlükəsi və uğur vəziyyətində qazanılacaq şərəf qarşılığında təhlükəli səyahətə çıxacaq adamlar axtarılır" ifadələri yer almışdı.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

# Bakı "Formula-1" yarışlarına hazırlaşır - dördüncü dəfə

## Trek boyu beton sədlərin quraşdırılması işləri davam etdirilir, Pit binasının əsas quruluşu isə artıq hazırdır




**Aprelin 26-28-də Bakı 4-cü dəfə "Formula-1" yarışlarına ev sahibliyi edəcək. Artıq yarışa hazırlıq işlərinə başlanılıb və "Formula-1" Azərbaycan Qran-Prisinin paddok ərazisində qızğın işlər gedir. Hazırda Hökumət Evinin qarşısında plana uyğun işlər aparılır, tikinti davam etdirilir. Pit binasının əsas quruluşu hazırdır, artıq binanın içərisində işlər görülür.**

Yollarda isə təhlükəsizlik məqsədilə beton sədlər quraşdırılır. Bakı Şəhər Halqasından (BŞH) bildirilib ki, indiki mərhələdə Xəqani küçəsinin Puşkin küçəsi ilə Bülbül prospekti arasında olan hissələrinə baryerlər qoyulur. Şəhər sakinlərindən xahiş olunub ki, gecə saatlarında (22:00-06:00) Xəqani küçəsinin bu hissəsində avtomobillərini saxlamasınlar, əvəzində yaxın ərazilərdə yerləşən parklanma yerlərindən istifadə etsinlər.

Bildirilib ki, bütün işlər yarış həftəsinin əvvəlində tam yekunlaşacaq. Son işlər isə yarış həftəsinin ilk günlərində həyata keçiriləcək.

Azərbaycan Qran-Prisi də daxil olmaqla bütövlükdə 2019-cu il "Formula-1" dünya çempionatında yer alan hər bir yarış üçün media nümayəndələrinin akkreditasiyası Beynəlxalq Avtomobil Federasiyası (FIA) və "Formula One Management" (FOM) şirkəti tərəfindən kurasiya olunur.

Yerli media nümayəndələrinin yarışa qeydiyyatı əməliyyat şirkətinin vasitəçiliyi ilə həyata keçirilir. Akkreditasiya prosesi fevralın 28-dək davam edəcək. Qeydiyyatdan keçmək istəyən jurnalistlər BŞH-in rəsmi veb-səhifəsinə daxil olaraq müvafiq formanı doldurmalı və tələb olunan sənədləri sistemə yüklədikdən sonra onlayn qaydada müraciət etməlidirlər. Natamam və ya vaxtından gec göndərilmiş müraciət formaları nəzərə alınmayacaq.

**BŞH-in Marketinq və kommunikasiya şöbəsinin rəhbəri, milli mətbuat katibi Nigar Arpadarai yerli media nümayəndələrini qeydiyyatdan keçməyə çağıraraq deyib:** ""Formula-1" yarışlarında iştirak edən media nümayəndələri müəyyən rəsmi standartlara və kriteriyalara əməl etməlidirlər. Yalnız həmin göstəricilərə tam cavab verən jurnalistlər FIA və FOM-un təsdiqi ilə yarışa buraxılış vəsiqəsi əldə edəcəklər. Fürsətdən istifadə edərək yarışı işıqlandırmaq istəyən bütün jurnalistləri bu kriteriyalarla yaxından tanış olmağa və "Formula 1" Azərbaycan Qran-Prisinə gecikmədən qeydiyyatdan keçməyə çağırıraq".

Məlumat üçün qeyd edək ki, noyabr və dekabr aylarında biletlər 20 faiz endirimlə satılırdı. Nigar Arpadarai məsələ ilə bağlı söyləyib ki, indiki mərhələdə endirim kampaniyası olmasa da, satış çox uğurla gedir. Artıq 47 ölkədən biletlər alınıb. Ötən ilin statistikasına görə, biletlər son günə qədər 75 ölkədən alınmışdı.

Sırf yerli sakinlərə əlavə 25 faizlik endirim də tətbiq olunur. Yerli sakinlər kateqoriyasına şəxsiyyət vəsiqəsinə sahib hər bir Azərbaycan vətəndaşı və ölkədə müvəqqəti yaşama icazəsi olan hər bir xarici vətəndaş daxildir.

**Onu da qeyd edək ki, artıq rəhbər marşallarla görüş də keçirilib. Bakı Şəhər Halqasından "Yeni Müsavat"a verilən məlumata görə, yüzə yaxın rəhbər marşalın iştirak etdiyi tədbirdə çıxış edən BŞH-in İdman Əməliyyatları şöbəsinin rəhbəri Çingiz Mehdiyev marşal olmaq istəyənlərin sayının hər il artdığını bildirib:** "Son illər atdığımız uğurlu addımlar nəticəsində hər il marşallıq fəaliyyətinə qoşulmaq istəyənlərin sayı artmaqdadır. Ötən il marşal olmaq üçün 1603 müraciət qeydə alınmışdısa, artıq bu göstərici bu il 2445 olub. Bundan başqa, biz mövcud marşallarla daha səmərəli əlaqənin təmini üçün xüsusi təlim və kommunikasiya sistemi qurmuşuq. Bu sistem də öz növbəsində marşallarla birgə fəaliyyətimizin daha keyfiyyətli şəkildə təşkilinə xidmət etməkdədir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 40 (7210) 20 fevral 2019

**Amerikan Havaçılıq və Kosmos Dairəsi (NASA) 2033-cü ildə Marsa gerçəkləşdirməyi planlaşdırdığı ilk insanlı səfəri üçün komik astronavtlar axtarır. “Yeni Müsavat” BBC Türkcəyə istinadən xəbər verir ki, qurum komik, əyləncəli bir insanın heyətlərin gərgin atmosferlərlə mübarizə aparmasını asanlaşdıracağı ilə bağlı araşdırmalara istinad edib. Son nəticədə isə dörd astronavt qrupu ilə çalışma aparıb.**

# Marsa səfərlə bağlı qiymətlər açıqlandı

## Heyətin tərkibi müəyyənləşib; 2033-cü ildə Aya səfər uğurlu alınarsa...




NASA-nın araşdırmasına liderlik edən Florida Universitetindən antropoloq Prof. Jeffrey Consona görə, Mars səfəri kimi məhdud bir sahədə uzun bir müddət qalmaq insanın əsəblərinə pis təsir edir. “Bu səbəbdən də kosmik maşında işlərin normal məcrada getməsi üçün heyətin əhvalını yüksək tutacaq birinə ehtiyacımız var” deyir.

Conson Antarktikada dörd il boyunca davam edən araşdırmaların nəticəsində “kloun, lider, dost, hekayə danışan, ortaq mövqe tapan və dərd ortaqları” kimi xarakterlərin heyətləri birləşdirdiyi və işlərin daha yaxşı getməsini təmin etdiyini müəyyən edib. Amerika, Rusiya, Polşa, Çin və Hindistanda da buna bənzər nəticələr əldə edilib. NASA, Mars səfərinə hazırlıq üçün 2033-cü ildə Aya astronavt göndərməyi planlaşdırır. Rusiya və Çin də 2040-cı ildə səfərlər təşkil etməyi planlaşdırır.

Marsa uçuş kosmik missiyanın hər bir ekipaj üzvünü radiasiya ilə təmasa görə 2,5 il qocaldacaq. Bu haqda “RİA Novosti” Moskvada keçirilən Aviakosmik və Ekoloji Tibb adlı konfransın hesabatında məlumat yer alıb. “Marsa uzun sürən (üç ilə qədər) uçuş zamanı və uçuşdan sonra maksimum Günəş aktivliyi şəraitində müxtəlif qalınlıqlı radiasiyadan qoruyan alüminium ”sığınacaqda" olan kosmonavtların üzləşəcəyi ümumi radiasiya riski hesablanıb.

Sadə şar formalı kosmik aparat və onun içində olan insan bədənini imitasiya edən fantom model əsasında aparılan hesablamalara görə, Marsa iki il müddətli uçuş və geri dönüş zamanı hər bir ekspedisiya üzvü üçün radiasiya riski yaşdan asılı olmayaraq 7,5 faiz təşkil edəcək. Bu isə kosmonavtların ömrünün orta hesabla 2,5 il qısalmasına yol açacaq", - deyə sənəddə bildirilir.

Daha öncə isə xəbər verilmişdi ki, Marsda daimi insan koloniyası qurmanın məqsəd qoyulduğu “Mars One” adlı layihədə iştirak etmək istəyənlərin sayı 100 mindən 100-ə endirilib. Layihə çərçivəsində əvvəlcə qırmızı planetə araşdırmalar aparmaq üzrə insansız kosmos vasitəsi göndəriləcək, yük daşınması səfərləri təşkil ediləcəyi planlaşdırılırdı. Məsələn, 7-8 il bundan öncə bu səfərin təxmini tarixi 2018-ci il olaraq göstərilirdi. Daha sonra isə ilk insan uçuşunun 2024-cü ildə olacağı deyildi. Bu səfərə qədər “qırmızı planet”də insan həyatına uyğun mühit yaradılması üçün işlər getdiyi də qeyd olundu.

Marsa ayaq basacaq insanların bu müddətdə ciddi təlim proqramlarından keçəcəyi də göstərilir. Layihənin xərci təxminən 6 milyard dollardır. Aya səfər edən ilk üç insandan biri olan Bill Anders “Apollo 8"dəki kosmonavtlardan biridir. O, ”BBC Radio"ya müsahibəsində bildirib ki, Marsa insan göndərmək fikri gülüncdür. 85 yaşlı Anders Marsa pilotsuz aparatların göndərilməsini dəstəklədiyini, amma insan göndərmə layihəsinin çox bahalı olduğunu qeyd edib: **“Biz niyə buna məcburuq? Bizi Marsa səfər etməyə məcbur edən nədir? Dövlətlərin bu məsələdə maraqlı olduğuna inanmıram”.**

“Apollo 8" missiyasını idarə edən Frenk Borman isə Marsa insan göndərmə missiyası mövzusunda daha müsbət düşünür: **”NASA məsələsində Bill qədər tənqidçi deyiləm. Günəş Sistemimizin kəşf edilməsi mövzusunda iradəli olmağın vacibliyini düşünürəm və insanlı missiyalar da bunun bir parçasıdır".**

Lakin Marsa səfər etmək sözügedən layihənin ən çətin tərəfi deyil. Marsın atmosferinin planetimizə nisbətən 1% olduğunu düşünsək, astronavtlar ilk növbədə oradakı təzyiqdən qurtulmağın yollarını tapmalıdırlar. İkinci çətinlik isə insanın yaşaması üçün lazımlı olan oksigendir ki, Marsda çox da rast gəlinən bir şey deyil. Planetdəki radiasiya nisbətinin olduqca yüksək olduğunu deyən mütəxəssislər bunun kosmonavtların xərçəngə yoluxmaq riskini xeyli dərəcədə artırdığını deyir ki, bu da üçüncü məqamdır.

Keçək qiymətlərə. Bu il fevralın 13-də səfər qiymətləri ilə bağlı məlumatlar da açıqlanıb. Elon Musk şəxsi twitter hesabından paylaşdığı cavabda Marsa gediş biletinin qiyməti haqqında bəzi məlumatlar verib. Twitter istifadəçisi Elan Muska Marsa getməyin neçəyə başa gələcəyi haqda sual verib. Musk isə Marsa səfərin 500 min dollar olacağını bildirib. Həmçinin o, vaxt keçdikcə bu qiymətin 100 min dollara qədər düşəcəyini və insanların evlərini sataraq Marsa getmək istəyəcəklərini vurğulayıb.

**Marsa getdikdən sonra oranı bəyənməyənlərin dönüş biletinin pulsuz olacağını deyən Musk özünün orada yaşamaq ehtimalının 70 faiz olduğunu bildirib:** “Marsda ölmək şansın Yerdə ölmək şansından daha yüksəkdir. Sən bir qutunun içərisində kosmosun dərinliklərinə gedirsən. Sən uğurlu eniş edə bilərsən, lakin enən kimi baza qurmaq üçün davamlı çalışmaq lazımdır. İstirahət üçün vaxt yoxdur”. Mask bundan əvvəl bildirib ki, Marsda davamlı həyat növbəti 40-100 il ərzində mümkün ola bilər.

Qeyd edək ki, “Space X” insanları Marsa aparmağı qarşısına məqsəd qoyan “Starship” gəmisi hazırlayır. Şirkətin məqsədi insanları bu hava gəmisi ilə əvvəlcə Aya aparmaq olacaq. Aya səfər uğurlu alınarsa, insanları Marsa aparmaq üzərində işlərə başlanacaq.

Marsa eniş edər-etməz sürətli bir şəkildə bir baza inşa edilməsi lazım olduğunu bildirən Musk “Kef üçün vaxt yoxdur. Bunu etdikdən sonra belə çətin bir ətraf mühit olacaq. Bu səbəbdən ölüm ehtimalı yüksək olacaq. Biz geri qayıda biləcəyinizi düşünürük, amma bundan əmin deyilik” ifadələrini istifadə edib.

Marsa səyahət üçün keçiriləcək reklam haqqında da danışan Musk, bu reklamın Shackleton-ın Antarktida reklamına bənzəməsi lazım olduğunu söyləyib. Musk “Marsa gedəcək ilk planetlər arası gəmini inşa edirik. Əvvəlcə qısa müddətli uçuşlar olacaq. Sınaqların gələn ilin birinci yarısından başlayacağını təxmin edirik” deyib. O, enmə-qalxma sınaqlarında əvvəlcə insanların iştirak etməyəcəklərini bildirib. “Space X” sınaqlarının digər kosmos və robot texnologiyası firmalarının və xüsusilə dövlətləri daha çox bu istiqamətə yönəltmək üçün ilham qaynağı olacağını umduğunu dilə gətirib.

O, insanların Marsda ilk öncə güc qaynağı, şüşə qübbə və vacib həyati tələbatlara ehtiyacları olacağını qeyd edib.

Qeyd edək ki, bir müddət öncə Muskun eyni zamanda baş meneceri olduğu ABŞ-a məxsus “Enerji Saxlama firması”nın və elektrikli avtomobil istehsalçısı Teslanın düzəltdiyi “Model 3" adlı elektrikli vasitənin bazara çıxarılmasında gecikmələr yaşanmışdı. ABŞ-da ”vicdanlı milyarder" və “kosmos vurğunu” olaraq tanınan Muskun, “Falcon Heavy” adlı raketi, yenidən istehsal edilə biləcək parçaları, ağır yük daşıma tutumu və 90 milyon dollarla, yəni nisbətən daha ucuz xərclə başa gəlməsi ilə diqqət çəkib. Belə ki, “Falcon Heavy”, 63.8 tonluq yük daşıma tutumu ilə bu günə qədər dizayn edilən ən güclü ticarət raketi hesab edilir.

1914-cü ildə Cənub Qütbünə səfərə çıxan Ernest Shackleton, “The Times”a bir reklam vermiş, reklamda “Aşağı maaş, amansız bir soyuq, tamamilə qaranlıqda uzun aylar, daim təhlükə, qayıtmamaq təhlükəsi və uğur vəziyyətində qazanılacaq şərəf qarşılığında təhlükəli səyahətə çıxacaq adamlar axtarılır” ifadələri yer almışdı.

❑ Sevinc TELMANQIZI,
“Yeni Müsavat”

# Bakı “Formula-1" yarışlarına hazırlaşır - dördüncü dəfə

## Trek boyu beton sədlərin quraşdırılması işləri davam etdirilir, Pit binasının əsas quruluşu isə artıq hazırdır



**Aprelin 26-28-də Bakı 4-cü dəfə “Formula-1" yarışlarına ev sahibliyi edəcək. Artıq yarışa hazırlıq işlərinə başlanılıb və ”Formula-1" Azərbaycan Qran-Prisinin paddok ərazisində qızğın işlər gedir. Hazırda Hökumət Evinin qarşısında plana uyğun işlər aparılır, tikinti davam etdirilir. Pit binasının əsas quruluşu hazırdır, artıq binanın içərisində işlər görülür.**

Yollarda isə təhlükəsizlik məqsədilə beton sədlər quraşdırılır. Bakı Şəhər Halqasından (BŞH) bildirilib ki, indiki mərhələdə Xəqani küçəsinin Puşkin küçəsi ilə Bülbül prospekti arasında olan hissələrinə baryerlər qoyulur. Şəhər sakinlərindən xahiş olunub ki, gecə saatlarında (22:00-06:00) Xəqani küçəsinin bu hissəsində avtomobillərini saxlamasınlar, əvəzində yaxın ərazilərdə yerləşən parklanma yerlərindən istifadə etsinlər.

Bildirilib ki, bütün işlər yarış həftəsinin əvvəlində tam yekunlaşacaq. Son işlər isə yarış həftəsinin ilk günlərində həyata keçiriləcək.

Azərbaycan Qran-Prisi də daxil olmaqla bütövlükdə 2019-cu il “Formula-1" dünya çempionatında yer alan hər bir yarış üçün media nümayəndələrinin akkreditasiyası Beynəlxalq Avtomobil Federasiyası (FIA) və ”Formula One Management" (FOM) şirkəti tərəfindən kurasiya olunur.

Yerli media nümayəndələrinin yarışa qeydiyyatı əməliyyat şirkətinin vasitəçiliyi ilə həyata keçirilir. Akkreditasiya prosesi fevralın 28-dək davam edəcək. Qeydiyyatdan keçmək istəyən jurnalistlər BŞH-in rəsmi veb-səhifəsinə daxil olaraq müvafiq formanı doldurmalı və tələb olunan sənədləri sistemə yüklədikdən sonra onlayn qaydada müraciət etməlidirlər. Natamam və ya vaxtından gec göndərilmiş müraciət formaları nəzərə alınmayacaq.

**BŞH-in Marketinq və kommunikasiya şöbəsinin rəhbəri, milli mətbuat katibi Nigar Arpadarai yerli media nümayəndələrini qeydiyyatdan keçməyə çağıraraq deyib:** “”Formula-1" yarışlarında iştirak edən media nümayəndələri müəyyən rəsmi standartlara və kriteriyalara əməl etməlidirlər. Yalnız həmin göstəricilərə tam cavab verən jurnalistlər FIA və FOM-un təsdiqi ilə yarışa buraxılış vəsiqəsi əldə edəcəklər. Fürsətdən istifadə edərək yarışı işıqlandırmaq istəyən bütün jurnalistləri bu kriteriyalarla yaxından tanış olmağa və “Formula 1” Azərbaycan Qran-Prisinə gecikmədən qeydiyyatdan keçməyə çağırırıq".

Məlumat üçün qeyd edək ki, noyabr və dekabr aylarında biletlər 20 faiz endirimlə satılırdı. Nigar Arpadarai məsələ ilə bağlı söyləyib ki, indiki mərhələdə endirim kampaniyası olmasa da, satış çox uğurla gedir. Artıq 47 ölkədən biletlər alınıb. Ötən ilin statistikasına görə, biletlər son günə qədər 75 ölkədən alınmışdı.

Sırf yerli sakinlərə əlavə 25 faizlik endirim də tətbiq olunur. Yerli sakinlər kateqoriyasına şəxsiyyət vəsiqəsinə sahib hər bir Azərbaycan vətəndaşı və ölkədə müvəqqəti yaşama icazəsi olan hər bir xarici vətəndaş daxildir.

**Onu da qeyd edək ki, artıq rəhbər marşallarla görüş də keçirilib. Bakı Şəhər Halqasından “Yeni Müsavat”a verilən məlumata görə, yüzə yaxın rəhbər marşalın iştirak etdiyi tədbirdə çıxış edən BŞH-in İdman Əməliyyatları şöbəsinin rəhbəri Çingiz Mehdiyev marşal olmaq istəyənlərin sayının hər il artdığını bildirib:** “Son illər atdığımız uğurlu addımlar nəticəsində hər il marşallıq fəaliyyətinə qoşulmaq istəyənlərin sayı artmaqdadır. Ötən il marşal olmaq üçün 1603 müraciət qeydə alınmışdısa, artıq bu göstərici bu il 2445 olub. Bundan başqa, biz mövcud marşallarla daha səmərəli əlaqənin təmini üçün xüsusi təlim və kommunikasiya sistemi qurmuşuq. Bu sistem də öz növbəsində marşallarla birgə fəaliyyətimizin daha keyfiyyətli şəkildə təşkilinə xidmət etməkdədir”.

❑ Əli RAİS,
“Yeni Müsavat”

YENİ MÜSAVAT

Son səhifə

N 40 (7210) 20 fevral 2019



## Toy xərcləri üçün saxta pul hazırladı, həbs olundu

**Malayziyalı kişi dəbdəbəli toy üçün bir dəstə saxta pul düzəldib. Bu barədə informasiya portalı "Asia One" xəbər verib. Orduda qulluq edən kişi bir hərbi bazanın kseroks maşınında neçə gün boyunca dörd min Malayziya dolları məbləğində saxta pul düzəldib. 28 yaşlı əsgər bu pulları gəlinə toy məsrəfləri üçün verib və bunu gerçək kupyuralarla qarışdırıb. Xərcləri təxirə salmaq mümkün deyildi. Çünki toyun tarixi 30 marta təyin edilmişdi.**

Gəlin bankomatların qəribə görüntüsünə fikir verdi. Əsgər isə ona izah etdi ki, bu kupyuraları ona bankomat təqdim edib. Dediklərini sübut etmək üçün o, qıza bankomatın yaxınlığından əldə etdiyi qəbzləri göstərib. Həmin qəbzdə böyük məbləğdə pulun bankdan götürülməsi öz əksini tapıb. Gəlin ona polisə müraciət etməyi məsləhət görüb.

Oğlan israrlar əsasında polisə müraciət edib. O, müraciət zamanı ümid edirmiş ki, bank saxta pulları gerçəyi ilə dəyişdirəcək. Amma növbəti gün onu həbs ediblər. Axtarış zamanı onun evindən xeyli saxta pullar və surətçıxarma aparatı aşkar ediblər.

Avqustda evində milyon yun saxta pul çap edən kişi barədə xəbər verilmişdi. İşsiz kişi bildirmişdi ki, bu işlə xəstə qızına görə məşğul olub.

## Adamın dəmiri çatmırsa, arıqlaya bilmir

**Dəmir çatışmazlığı bir sıra xəstəliklərə səbəb olan problemdir. Ancaq yeni araşdırmalar göstərib ki, dəmir çatışmazlığından əziyyət çəkənlər köklüyə daha meyillidirlər. Üstəlik, onlar istəsələr də, arıqlaya bilmirlər. Yəni kök insanda dəmir əskikliyi varsa, o, nə qədər pəhriz saxlasa da, arıqlaya bilməyəcək. Çünki dəmir çatışmazlığı müəyyən hormonların nisbətinin pozulmasına səbəb olur ki, bu da kökəlməklə nəticələnir. Dəmir çatışmazlığı arıqlama prosesinin də qarşısını alır.**




Dəmir çatışmazlığına daha çox böyümə çağındakı uşaqlarda, menstruasiya olan gənc qızlarda, hamilələrdə və uşaq əmizdirən analarda, həmçinin sağlam qidalanmayan insanlarda rast gəlinir.

Hər ay mütəmadi olaraq menstruasiya keçirənlər 1 ml. qanla 5 mg. dəmir itirirlər. Bu itirilən dəmir bərpa edilməlidir. Dəmir çatışmazlığından əziyyət çəkən insanlar tez-tez acırlar. Ona görə də arıqlaya bilmir, hətta gün keçdikcə daha da kökəlirlər. Ən pisi isə odur ki, belə insanlar pəhriz saxlasalar, təhlükəli xəstəliklərə yaxalana bilərlər.

## Göldəki iki qorxunc varlıq hamını heyrətə saldı



**Çinin Quançjou şəhərindəki parklardan birində qəribə bir varlıq sakinləri qorxudub. Bu barədə "Daily Mail" nəşri xəbər verib. İnsident 9 fevralda Bayun gölü əməkdaşının gözü qabağında baş verib. "Onun çiyni qara rəngə malik idi və tısbağaya bənzəyirdi", - o, bunu yerli KİV nümayəndələrinə bildirib. Onun qiymətləndirməsinə görə, balığın uzunluğu 2 metrə yaxın olub.**

Bundan sonra gölün sahilində xəbərdarlıq lövhəsi qoyuldu və orada əməkdaşların suya girməsinin qadağan olunması öz əksini tapdı. Hüquq-mühafizə orqanları əməkdaşları isə bildiriblər ki, göldə peyda olan varlıq barədə daha öncədən də məlumatlı idilər. Dördüncü gün park əməkdaşları göldən birinin uzunluğu 1.2 metr, o birininki isə 0.9 metr olan iki balıq çıxardılar.



## 10 il əvvəlki xatirəyə görə evini yandırdı

**Amerikanın Vaşinqton ştatındakı Yakima şəhərində yaşayan 29 yaşlı Coel Kruz valideynlərinin evində tək olan vaxt bir xatirəsini yada salıb və evi yandırıb. Kişi xatırlayıb ki, 10 il əvvəl qardaşı qazı onun üzünə vurub. O, bunu yadına salan kimi evi yandırmağa qərar verib. Polisin iddiasına görə, Kruz içi bitki yağı ilə dolu olan qazançanı plitənin üstünə qoyub, qazı maksimal temperatura qədər artırıb və evdən çıxıb. Coel polisə bildirib ki, bu cinayətə onu beynindəki səslər vadar edib. Bundan sonra onu psixoloji sağlamlıq üçün yoxlamaya göndəriblər.**

Polis nümayəndəsi bildirib ki, Kruzu dövlət xəstəxanasına göndərmək istəsələr də, sonuncular onu qəbul etməkdən imtina ediblər. Onlar deyiblər ki, bu şəxs özü və ətrafındakılar üçün təhlükə təşkil edir.

## Qoroskop (20 fevral)




**QOÇ** - Həddindən ziyadə məhsuldar gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Yeni təkliflərə razılıq verin. Əks təqdirdə müttəfiqlərinizi itirəcəksiniz.

**BUĞA** - O qədər də səmərəli təqvim deyil. Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə səhhətinizlə bağlı problemlərin baş qaldırması əsəblərinizə mənfi təsir göstərə bilər.

**ƏKİZLƏR** - Göstəricilər düşərli bir gün yaşayacağınızı bəyan edir. Xislətinizdən asılı olaraq ətrafda hər şey gözəl olacaq. Amma vaxt tapıb müqəddəs ziyarətgahlarımıza da baş çəkməyə çalışın.

**XƏRÇƏNG** - Hansısa xoşgəlməzlik haqqında düşünməyə dəymaz. Çünki ulduzların düzümü günün əksər saatlarını xoş ovqatda keçirəcəyinizi bildirir. Təzə xəbərlər və büdcədə artım da gözlənilir.

**ŞİR** - Ailə-sevgi münasibətlərində bütün proseslər ürəyinizcə olacaq. Bu səbəbdən də qarşı tərəfin rəylərinə hörmətlə yanaşmalısınız. Yeni sövdələşmələrdə təşəbbüskarlığı ələ alın.

**QIZ** - Gün ərzində mənfi enerjili Ay bürcünüzdə qərar tutacaq. Buna baxmayaraq, kifayət qədər dəyərli bir gün yaşayacaqsınız. Atdığınız addımlar ətrafda sizə qarşı rəğbət yaradacaq.

**TƏRƏZİ** - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda gərginlik müşahidə olunsa da, sonrakı müddəti normal şəkildə başa vura biləcəksiniz. Bütün iş və görüşlərinizdə Allahı yaddan çıxarmayın.

**ƏQRƏB** - Yaxşı olar ki, vaxtınızı bütünlüklə münasibətlərin tənzimlənməsinə həsr edəsiniz. Çünki hesablamalar fəaliyyətdə passivliyin hökm sürəcəyini göstərir. Dini dəyərlərə hörmət edin.

**OXATAN** - Hiss olunur ki, ətrafınızda olanların əksəriyyəti fikirlərinizə qarşıdır. Lakin bunu əsəbi şəkildə qəbul etməməlisiniz. Sübut edin ki, haqqınızda deyilənlər doğru deyil.

**OĞLAQ** - Qərarlarınızda qətiyyətli olmasanız, qarşınıza çıxan mühüm şansları itirəcəksiniz. Risk etməkdən qorxmayın. Hər şeydən əlinizi üzəndə heç olmasa sevgi amilindən bəhrələnin.

**SUTÖKƏN** - Qarşınızda müəyyən qədər mübahisəli bir tarix durur. Odur ki, istər evdə, istərsə də iş yerində çılğınlıqdan uzaq olmalısınız. Konflikt yaratmaqdansa, barışdırıcı mövqe seçin.

**BALIQLAR** - Yeni simalarla rastlaşma ehtimalınız böyükdür. Ola bilsin ki, qarşılaşdığınız adamların bir çoxu mövcud problemlərinizin həllində əsaslı rol oynasın. Odur ki, buna hazır olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Polis maşın oğrusuna göstəriş verdi, o da uşağı xilas etdi



**Amerikanın Florida ştatında maşın oğurlamağa görə cəza çəkən məhbus bir yaşlı uşağı xilas edib. Lenta.ru saytının xəbərinə görə, atası maşının qapısını bağlayıb və açar içəridə qalıb. Bundan sonra maşın avtomatik olaraq bloklanıb. Valideynlər maşının pəncərəsini qırmaq istəyəndə isə bunu ətrafdakı polis şerifi görüb. Sonuncu həmin ərazidə beş məhbusun ictimai iş prosesinə nəzarət edirdi. Məhbuslardan biri maşın qaçırmağa görə məhkum olunmuşdu. O, polisin razılığı ilə blok olunan maşını açıb və bir dəqiqə sonra uşaq artıq valideynlərinin qucağında olub.**

Polis Kriz Nokko isə bu situasiyanın unikal olduğunu deyib. Onun sözlərinə görə, bəzən cinayətkarın xoş bir məqsəd uğrunda öz vərdişlərindən istifadə etməsi də xoşdur.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755